# Xalq qəzeti

Xalqın qəzeti!

№ 129 (30533) 23 iyun 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


# Azərbaycanın enerji təşəbbüsləri “yaşıl” həmrəyliyi gücləndirir

## “Euronews” televiziyasında Prezident İlham Əliyevin müsahibəsi yayımlanıb




**İyunun 21-də “Euronews” televiziyasında Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz – “Caspian Oil&Gas” və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji – “Caspian Power” sərgilərindən reportaj yayımlanıb.**

Həmin reportajda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Euronews”a müsahibəsi də yer alıb.

İndi həmin müsahibənin tam variantını təqdim edirik.

**Müxbir:** Cənab Prezident, hər zaman Sizi burada görmək olduqca xoşdur. Bu gün Siz “Masdar” və Zati-aliləri Sultan Əhməd Əl-Cabir ilə çox mühüm xəbər verdiniz. Xahiş edirik, planlarınız barədə daha çox məlumat verərdiniz.

**Prezident İlham Əliyev:** Bəli, həqiqətən, əla tədbirdir və o, əslində, bizim yaşıl gündəliyimizi nümayiş etdirir və eləcə də göstərir ki, Azərbaycan nəinki ənənəvi enerji mənbələrinə, o cümlədən bərpaolunan enerjiyə sərmayə yatıranlar üçün cəlbedicidir. “Masdar” bizim bərpaolunan enerji sahəsində strateji tərəfdaşımızdır. Ötən ilin oktyabrında biz 230 meqavatlıq ilk Günəş enerjisi stansiyasının açılışını etdik. Bu gün isə ümumi gücü 1 qiqavat olan üç Günəş və külək enerjisi stansiyalarının təməlqoyma mərasimini keçirdik. Bu, yalnız başlanğıcdır, çünki biz orta perspektivdə 10 qiqavata və 2030-cu ilədək 5 qiqavata qədər gücü əhatə edən bütün müqavilələri və anlaşma memorandumlarını icra etməyi planlaşdırırıq. Hədəfimiz belədir. Potensial var. Siz Günəşi, istəyimizi və o cümlədən, küləyi görə bilərsiniz. Yaxşı sərmayə mühiti var. Bu, həqiqətən göstərir ki, ölkə ənənəvi enerjidən əldə etdiyi gəlirləri hazırda bərpaolunan enerjiyə yönəldir. COP29-a evsahibliyi edəcək ölkə kimi yaşıl enerjiyə keçid prosesində öndə gedənlərdən olmaq bizim üzərimizə düşən öhdəlikdir.

**(ardı 2-ci səhifədə)**

# Azərbaycan Şimal–Cənub Nəqliyyat Dəhlizinin önəmli həlqəsidir

**Rusiyanın İrandakı ticarət nümayəndəliyində Dağıstan hökumətinin təmsilçisi Andrey Tanaev bu günlərdə TASS agentliyinə bildirib ki, Azərbaycan, Rusiya və İran nümayəndələri Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində yükdaşımaları üzrə işçi qrupun yaradılması barədə razılığa gəliblər. Onun sözlərinə görə, 3 ölkənin rəsmiləri Rusiya–Azərbaycan və Azərbaycan–İran sərhədlərində sərhəd və gömrük terminallarına baxış keçirib, yaradılan şəraitlə maraqlanıblar.**



Qeyd edək ki, İran tərəfi ilə bu görüşün keçirilməsinin əsası 2024-cü ilin fevralında Rusiya Baş nazirinin müavini Aleksandr Novak və İranın neft naziri Cavad Oucinin sədrliyi ilə Tehranda reallaşan ticarət-iqtisadi əməkdaşlıq üzrə Rusiya–İran hökumətlərarası komissiyasının iclası zamanı qoyulub.

**(ardı 7-ci səhifədə)**

# Günəş enerjisi 8 dəfə çoxalıb


Səhifə ⇨ 7



# Paşinyan yenə nala-mıxa vurur

**Üç qonşu və üç regional dövlətin (Azərbaycan–Türkiyə–Rusiya–İran–Gürcüstan–Ermənistan) bir platformadan çıxış etməsi ideyasını 44 günlük müharibədən sonra rəsmi Bakı və Ankara irəli sürmüşdü. Məqsəd Cənubi Qafqazda həllini gözləyən mövcud problemlərin region və regionətrafı ölkələrin birgə iştirakı ilə çözülməsi, eləcə də transmilli nəqliyyat, enerji daşıyıcılarının tranziti ilə bağlı layihələrdə yaxından əməkdaşlığın yaradılması idi.**

“Altılar”ın hamısının mənafeyi və strateji maraqları ilə üst-üstə düşən bu perspektivli layihənin hələ də tam reallaşmamasının bir sıra səbəbləri var. Bunların sırasına “3+3” formatında təmsil olunacaq Gürcüstan və Rusiya, həmçinin Ermənistan və Rusiya arasındakı münasibətlərdə yaşanan məlum gərginliyi daxil etmək lazımdır. Fəqət, son bir ildə Azərbaycan, Türkiyə və İranın bu cəlbedici əməkdaşlıq platformasının reallaşması yolunda atdıqları konkret addımların fonunda bölgədə maraqlarını güdən kənar aktorların da fəallaşması müşahidə olunmaqdadır. Əlbəttə ki, burada, ilk növbədə, Fransa və ABŞ-nin adları ön sırada yer alır.

***

Rəsmi İrəvanın eyni vaxtda “iki stulda əyləşmək” taktikasının iflasa uğradığı indiki geosiyasi durumda Paşinyan hakimiyyətinin sülh danışıqlarının vasitəçisiz, birbaşa dialoq yolu ilə aparılmasına razılaşmasının ardınca bölgənin problemlərinin “Qafqaz evi”nin daxilində aradan qaldırılması xəttinə yön alması hiss olunmaqdadır. Son vaxtlar Ermənistan baş naziri Nikol Paşinyanın regional məsələlərin Azərbaycan–Türkiyə–Gürcüstan–Ermənistan formatında müzakirə edilməsi barədə nikbin açıqlamaları da belə sağlam yanaşmanın işartıları sayılmalıdır. Nikol Paşinyan yuxarıda qeyd etdiyimiz “dördlük” formatının səmərəsi barədə 2 gün bundan əvvəl partiyasının qapalı keçirilən iclasında danışıb.

**(ardı 3-cü səhifədə)**

# İrəvanın COP29-la bağlı manipulyasiyaları

**Son zamanlar Ermənistan hakimiyyətində, dünya erməniliyində, xaricdəki ermənipərəst dairələrdə ciddi aktivləşmə müşahidə olunmaqdadır. Onlar Bakı–İrəvan sülh gündəliyinə xələl gətirmək, prosesi pozmaq niyyətindədirlər. Habelə buna yönələn müəyyən “fəaliyyət” gerçəkləşdirməkdədirlər. Ortaya suallar çıxır: məgər rəsmi İrəvan keçmişin dərslərindən nəticə çıxarmayıb? Yoxsa, Fransa bilmir ki, Ermənistanı silahlandırıb onu illüziya bataqlığına çəkməyin heç bir faydası olmayacaq? Bəlkə baş nazir Nikol Paşinyan və tərəfdarları hesab edirlər ki, Cənubi Qafqazdakı reallıqları dəyişmək gücündədirlər? Onlara 44 günlük müharibədən ötən iki-üç ildə yaşananlar dərs olmayıb?**




Əslində, suallar kifayət qədərdir. Görünür, Ermənistan yenə də sülh gündəliyi məsələsində Azərbaycanın hansısa güzəştlərə gedə biləcəyinə ümid bəsləyir. Xaricdəki ermənipərəst dairələrin də belə düşündükləri aşkardır. Elə isə sual meydana çıxır: Beləkləri bilmirlər ki, Azərbaycanın sərt tədbirlərə əl atması mümkündür? Sual ritorikdir, çünki cavabı bəllidir.

Bəli, dünyada hər kəs ölkəmizin güc-qüdrətindən xəbərdardır, Prezident İlham Əliyevin prinsipial və qətiyyətli mövqeyində dayanacağına əmindir. Deməli, mətləb başqadır və bu, rəsmi İrəvan üçün, müəyyən mənada, saman çöpündən yapışmağa bənzəyir. Söhbətimiz, əsasən, bu barədədir. Əlbəttə, digər məqamlara da nəzər salacağıq.

**(ardı 3-cü səhifədə)**

# Qafqaz Albaniyası Dədə Qorqud yurdu idi

**Məşhur albanşünas alim K.Trever özünün “Qafqaz Albaniyasının tarixi və mədəniyyətinin oçerki” adlı kitabında qeyd edir ki, Moisey Kalankatlının “Albaniya tarixi” əsərində rast gəlinən ermənilərlə bağlı məlumatlar saxtadır. Sonradan erməni keşişləri tərəfindən bu əsərə daxil edilmiş kompilyativ fraqmentlərdir.**

K.Trever burada böyük bir sualın cavabını açıqlayır. O məlumat verir ki, erməni keşişləri orta əsrlər dövründə Alban tarixi əsərinə ermənilər haqqında olan uydurmaları və əfsanələri ona görə daxil edirdilər ki, erməni xalqı ilə alban xalqının tarixini eyniləşdirsinlər, bunların bir soy-kökdən olduğunu əsaslandırsınlar və sübut etsinlər. Bu və digər maraq doğuran məsələlərə aydınlıq gətirmək üçün AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi Ramin Əlizadə ilə görüşüb söhbət etdik:

**(ardı 9-cu səhifədə)**

# “Qərbi Azərbaycana qayıdış” qədim tarix və yurd sevgisindən güc alır


Səhifə ⇨ 8

# Çin enerji istehlakında Avropanı üstələyib



**Böyük Britaniyanın Enerji İnstitutunun yeni hesabatı Qərb ölkələrinin enerji istehlakını azaltmaq və qalıq yanacaqların (neft, kömür və təbii qaz) yandırılmasını məhdudlaşdırmaq səylərinin nəticəsiz olduğunu göstərir. Son 10 ildə Avropa adambaşına düşən enerji istehlakını, təxminən, 1 faiz azaldıb.**

Hindistan və Çin isə əksinə, bu rəqəmi 3 faiz artırıb və bunun çox hissəsi kömür və digər qalıq yanacaqların daha çox yandırılması ilə əlaqədardır. Nəticədə ümumi istixana emissiyaları tarixi maksimuma, Çinin adambaşına düşən enerji istehlakı isə ilk dəfə olaraq Avropa səviyyəsinə çatıb.

**(ardı 4-cü səhifədə)**

# “Euronews” televiziyasında Prezident İlham Əliyevin müsahibəsi yayımlanıb

(əvvəli 1-ci səhifədə)

**Müxbir:** Ənənəvi enerji sektorunun olması ilə yanaşı, yeni yaşıl bərpaolunan enerjiyə keçidə gəldikdə, çətinliklər hansılardır?

**Prezident İlham Əliyev:** Bilirsiniz, əslində, hər yeni iş qeyri-müəyyənliklərlə dolu olur. Lakin bizim böyük tərəfdaşlarımız var. Artıq qeyd etdim, “Masdar” strateji tərəfdaşdır. Həmçinin “ACWA Power” var. Daha sonra, BP sərmayədarlarımız sırasındadır və bizimlə işləməyi planlaşdıran digər ölkələrin bir çox şirkətləri var. Bir sözlə, biz neft və qaz sahəsində hər şeyi başdan-ayağa bilirik. Burada isə biz təzə başlayırıq.

Çətinliklərə gəldikdə, bu, milli enerji şəbəkəsi ilə bağlıdır, çünki biz onu gücləndirməliyik ki, sərmayədarların verdiyi mümkün qədər çox enerjini qəbul edə bilsin. Digər çətinlik ötürülmə xətləri ilə bağlıdır, çünki bu halda biz öz qonşularımızla fəal çalışmalıyıq. Azərbaycanın özünə planlaşdırdığımız qədər bərpaolunan enerji lazım deyil və bu səbəbdən hədəfimiz ixracdır. Bərpaolunan enerjidən istifadəyə olduqca düşünülmüş yanaşma tətbiq edilməlidir ki, elektrik enerjisi maksimum istehsal olunsun və təbii qaza qənaət edilsin ki, o, əsasən indi Avropaya lazım olan qaydada nəql olunsun. Yalnız daxili gündəliyimizdən asılı olan və həll edilməli bir çox məsələlər, şübhə etmirəm ki, tam reallaşacaq. Lakin beynəlxalq tərəfdaşlıq tələb edən məsələləri biz tərəfdaşlarımızla həll etməliyik.

**Müxbir:** Bakı Enerji Həftəsində 37-dən artıq ölkədən gəlmiş 300-dən çox iştirakçının olması digər şirkətlərin bu işə sadiqliyini və bu konfransın nəyə görə enerji sektorunda qlobal liderliyi əks etdirdiyini göstərir. Elə deyilmi?

**Prezident İlham Əliyev:** Mən də belə düşünürəm. Tədbir artıq 30 ildir keçirilir. Birincisi, o, hələ 1994-cü ildə təşkil olunmuşdur. İkincisi, ölkələrin coğrafiyasına və şirkətlərin sayına baxsanız görərsiniz ki, iştirakçıların sayı artır. Heç də hər enerji tədbiri ABŞ Prezidentinin müraciəti şərəfinə nail olmur. Bu tədbirin bütün illəri belə olub və bu, əslində, onun unikal mahiyyətini və gücünü nümayiş etdirir. Düşünürəm ki, bütün bu amillər həmin tədbiri müxtəlif məsələləri həll edən, inkişaf yolunu göstərən, çox inkişaf etmiş və inklüziv platformaya çevirir. Birincisi, Xəzər Neft və Qaz Sərgisi oldu. Sonra biz qaz hasilatına başladıq. Tədbir artıq Xəzər Neft və Qaz Sərgisi və Konfransı adını aldı. Sonra biz bərpaolunan enerji sahəsində işə başladıq və tədbir fərqli sektorları əhatə edən Bakı Enerji Həftəsinə çevrildi. Siz qısa müddət ərzində bir ölkədə hər istiqamətdə – neft, təbii qaz və indi isə yaşıl enerji sahələrində uğurları görə bilərsiniz.

**Müxbir:** Yeri gəlmişkən, Siz xüsusi sərəncamla bu ili “Yaşıl dünya naminə həmrəylik ili” elan etdiniz. Elə deyilmi?

**Prezident İlham Əliyev:** Bəli, evsahibliyi edən ölkə kimi bizim əsas məqsədlərimizdən biri birliyi və həmrəyliyi yaratmaqdır. Biz COP zamanı və ondan sonra sədrliyimizin davam edəcəyi dövrdə elə müsbət mühit qurmaq istəyirik ki, ölkələr və şirkətlər bir-biri ilə istəklə işləsin və qarşılıqlı iddiaları kənara qoysunlar, planetin qorunması ilə əlaqədar əsas gündəliyə diqqət yetirsinlər.

**Müxbir:** Cənab Prezident, hər zaman Sizi görməkdən məmnunuq.

**Prezident İlham Əliyev:** Çox sağ olun!

***AZƏRTAC***

# Azərbaycan bərpaolunan enerjiyə sərmayə üçün cəlbedici ölkədir

**Avropa İttifaqının enerji sahəsində etibarlı tərəfdaşına, strateji müttəfiqinə çevrilmiş Azərbaycan, həm də bu gün dünyanın prioritet elan etdiyi “yaşıl keçid”in də fəal iştirakçısı kimi tanınır. Bu sahədə zəngin potensiala malik olan ölkəmizdə hazırda mühüm “yaşıl” layihələr uğurla icra olunur və sözügedən sahədə gələcəkdə yüksək göstəricilər əldə ediləcəyi proqnozlaşdırılır. Çünki respublikamızın bu sahədə potensialı olduqca yüksəkdir. Digər tərəfdən, Azərbaycanın əlverişli investisiya və siyasi sabitlik məkanı kimi tanınması, eyni zamanda, enerji ilə bağlı götürdüyü öhdəliklərə tam sadiqliyi ölkəmizin yaxın illərdə bu sahədə də əsas təchizatçılardan birinə çevriləcəyini deməyə əsas verir.**




İyunun 21-də “Euronews” televiziyasında Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz – “Caspian Oil&Gas” və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji – “Caspian Power” sərgilərindən reportaj yayımlanıb. Həmin reportajda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Euronews”a müsahibəsi də verilib.

Dövlətimizin başçısı Azərbaycanın “yaşıl gündəliyi”ni nümayiş etdirdiyini, habelə respublikamızın nəinki ənənəvi enerji mənbələrinə, o cümlədən, bərpaolunan enerjiyə sərmayə yatıranlar üçün cəlbedici olduğunu diqqətə çatdırıb. Ölkə rəhbəri daha sonra deyib: “Masdar” bizim bərpaolunan enerji sahəsində strateji tərəfdaşımızdır. Ötən ilin oktyabrında biz 230 meqavatlıq ilk Günəş enerjisi stansiyasının açılışını etdik. Bu gün isə ümumi gücü 1 qiqavat olan üç Günəş və külək enerjisi stansiyalarının təməlqoyma mərasimini keçirdik. Bu, yalnız başlanğıcdır, çünki biz orta perspektivdə 10 qiqavata və 2030-cu ilədək 5 qiqavata qədər gücü əhatə edən bütün müqavilələri və anlaşma memorandumlarını icra etməyi planlaşdırırıq…”.

Bütün bunlar isə dövlətimizin başçısının vurğuladığı kimi, Azərbaycanın zəngin “yaşıl enerji” potensialından və əlverişli investisiya mühitindən xəbər verir. Yeri gəlmişkən, respublikamızda iqtisadi cəhətdən əlverişli və texniki cəhətdən istifadəsi mümkün bərpaolunan enerji mənbələrinin böyük ehtiyatı var. Belə ki, ölkəmizin quruda 27 qiqavat enerji potensialı (günəş və külək enerjisi), dənizdə isə 157 qiqavat enerji potensialı mövcuddur. Bu enerjinin əldə olunması, istehsalı və ixracı isə böyük investisiyalar tələb edir ki, belə bir əlverişli sərmayə şəraiti də diqqət çəkir.

Bu məqamda onu da xatırladaq ki, Azərbaycanda bərpaolunan enerji potensialının icrası məqsədilə indiyədək xarici investorlarla bir sıra müqavilələr imzalanıb. Azərbaycan Energetika Nazirliyi, Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən ötən il təqdim edilən Yol Xəritəsində 2040-cı ilədək ölkəmiz investisiya qoyuluşu sayəsində dəniz küləyindən 7 qiqavatlıq enerji hasilatını reallaşdırmağı planlaşdırıb. Ümumiyyətlə, 2040-cı ilədək respublikamızda 1,5 qiqavat qoyuluş gücünün gerçəkləşdirilməsi və dekarbonlaşdırılmış enerji istehsalının 7 faizinin reallaşdırılması, həmçinin bu dövrdə dəniz külək energetikasının qoyuluş gücünün 7,2 qiqavata çatdırılması və enerji təchizatının 37 faizin təmin olunması nəzərdə tutulub.

Prezident İlham Əliyevin müsahibədə “Masdar”ın Azərbaycanın bərpaedilən enerji sahəsində strateji tərəfdaşı olması ilə bağlı söylədiyi fikir barədə isə qeyd edə bilərik ki, Birləşmiş Ərəb Əmirliklərinin bu şirkəti ilə sıx əməkdaşlıq yaradılıb. Energetika Nazirliyi və “Azərenerji” ASC ilə “Masdar” şirkəti arasında 445 meqavatlıq Biləsuvar və 315 meqavatlıq Neftçala günəş elektrik stansiyaları, eləcə də 240 meqavatlıq Abşeron-Qaradağ külək elektrik stansiyası layihələri üzrə “İnvestisiya müqaviləsinə Əlavə”, “Enerji alqı-satqı müqaviləsi”, “Ötürücü şəbəkəyə qoşulma müqaviləsi” və “Torpaq icarə müqaviləsi” imzalanıb.

Yeri gəlmişkən, Prezident İlham Əliyev hələ bu il martın 1-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclasındakı çıxışında bu barədə ətraflı bəhs edərək ölkəmizin “yaşıl enerji” potensialının uğurla reallaşdırdığını, bu istiqamətdə mühüm uğurlara nail olduğunu bildirib. Dövlətimizin başçısı daha sonra “Yaşıl dünya naminə həmrəylik ili”ndə bərpaolunan enerji ilə əlaqədar geniş tədbirlər həyata keçirildiyini, bu layihələr arasında keçən ilin oktyabr ayında 230 meqavatlıq gücə malik ilk böyük Günəş Elektrik Stansiyasının açılışının gerçəkləşdiyini qeyd edib: “Bu stansiya bərpaolunan enerji sahəsində aparıcı şirkətlərdən biri “Masdar” tərəfindən inşa olunub. İmzalanan müqavilələrə və anlaşma memorandumlarına əsasən, 2030-cu ilədək Azərbaycanda 5 min meqavata qədər, yəni 5 qiqavat günəş və külək enerjisi istehsal edilməsi planlaşdırılıb”.

Prezident İlham Əliyev “Euronews” televiziyasına müsahibəsində ənənəvi enerji sektorunun olması ilə yanaşı, “yaşıl bərpaolunan enerji”yə keçid zamanı nəzərə çarpan çətinliklər barədə də danışıb: “Çətinliklərə gəldikdə, bu, milli enerji şəbəkəsi ilə bağlıdır, çünki biz onu gücləndirməliyik ki, sərmayədarların verdiyi mümkün qədər çox enerjini qəbul edə bilsin. Digər çətinlik ötürülmə xətləri ilə bağlıdır, çünki bu halda biz öz qonşularımızla fəal çalışmalıyıq. Azərbaycanın özünə planlaşdırdığımız qədər bərpaolunan enerji lazım deyil və bu səbəbdən hədəfimiz ixracdır. Bərpaolunan enerjidən istifadəyə olduqca düşünülmüş yanaşma tətbiq edilməlidir ki, elektrik enerjisi maksimum istehsal olunsun və təbii qaza qənaət edilsin ki, o, əsasən indi Avropaya lazım olan qaydada nəql olunsun…”.

Dövlətimizin başçısının diqqətə çatdırdığı bu məsələlərin həlli istiqamətində qısa müddətdə ciddi layihələr gerçəkləşdirilib. Məhz bunun nəticəsidir ki, respublikamızda enerji keçidi üzrə reallaşdırılan layihələr çərçivəsində indiyədək, ümumilikdə, 1,5 milyard ABŞ dolları məbləğində investisiya yatırılıb və bu sərmayə qoyuluşunun gecəkdə də davam etdiriləcəyi nəzərdə tutulub.

Qeyd edək ki, ölkəmizdə 20-25 il müddətinə hesablanan “yaşıl enerji” layihələri yerli və xarici ekspertlər tərəfindən Azərbaycanın gələcəyinə, dövlət siyasətinə olan inamın göstəricisi kimi dəyərləndirilib.

Hazırda isə ölkə rəhbərinin müsahibədə vurğuladığı kimi, Azərbaycanın qarşısında duran əsas məsələlərdən biri istehsal edilən “yaşıl enerji”nin Avropa ölkələrinə ixracı üçün zəruri infrastrukturun qurulmasıdır. Məhz elə bu məqsədlə də indi 3 dəhliz üzrə – “Xəzər–Qara dəniz–Avropa” “yaşıl enerji” dəhlizi, Zəngəzur dəhlizi və Mərkəzi Asiya ölkələrindən “yaşıl enerji” resurslarının Avropaya ixrac edilməsi çərçivəsində səmərəli iş aparılır.

***XQ***

23 İyun Dövlət Qulluqçularının Peşə Bayramı Günüdür

# Baş Prokurorluqda bayram şənliyi

**23 İyun Dövlət Qulluqçularının Peşə Bayramı Günü münasibətilə Baş Prokurorluqda tədbir keçirilib. Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasında demokratik, hüquqi və dünyəvi dövlət qurulması prosesində dövlət qulluğunun rolunu və xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə müstəqil və müasir dövlət qulluğu sisteminin yaradıldığını, “Dövlət qulluğu haqqında” 21 iyul 2000-ci il tarixli Qanun da daxil olmaqla dövlət qulluğuna dair bir sıra qanunvericilik aktlarının qəbul edildiyini, həmçinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 may 2006-cı il tarixli Sərəncamı ilə 23 iyun tarixinin ölkəmizdə Dövlət Qulluqçularının Peşə Bayramı Günü kimi təsis edildiyini diqqətə çatdırıb.**



Mərasimdə ölkədə dövlət qulluqçularının sayının 27 min nəfər olduğu və onların 29,7 faizini qadınların təşkil etdiyi, həmçinin prokurorluq orqanlarında 642 nəfər dövlət qulluqçusunun fəaliyyət göstərdiyi, həmin şəxslərdən isə 32,9 faizini qadınların təşkil etdiyi qeyd olunaraq ölkə başçısı tərəfindən dövlət qulluqçularına göstərilən xüsusi diqqət və qayğıya, həmçinin Prezidentin dövlət qulluqçularının fəaliyyətində müəyyən etdiyi prinsiplərə toxunulub.

Baş prokuror tərəfindən peşə bayramı ilə əlaqədar müvafiq əmrlə təltif edilmiş 24 dövlət qulluqçusu və 4 nəfər prokurorluq orqanlarında çalışmış veteran dövlət qulluqçusuna hədiyyələr təqdim edilib.

Dövlət qulluqçuları və veteranlar göstərilən diqqət və qayğı ilə əlaqədar Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirib.

***XQ***

# Dövlət qulluğu xalqa xidmət meydanıdır

**Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Azərbaycan Dövlət İdarələr və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının Gəncə şəhər komitəsinin təşkilatçılığı ilə Gəncədə 23 İyun Dövlət Qulluqçularının Peşə Bayramı qeyd olunub.**



Əvvəlcə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və aparatın kollektivi ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb, xatirəsinə dərin ehtiram ifadə ediblər.

Niyazi Bayramov dövlət qulluqçularını peşə bayramları münasibətilə təbrik edib, onlara işlərinin peşəkarı olmağı və öz peşələrinə daim məsuliyyətlə yanaşmalarını tövsiyə edib. O qeyd edib ki, Prezident İlham Əliyevin dediyi kimi, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır.

Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyev dövlət qulluqçuları adından göstərilən diqqətə görə öz minnətdarlığını bildirib.

DİİXİHİ Gəncə Şəhər Komitəsinin sədri Mahmud Fərzəliyev də öz növbəsində, dövlət qulluqçularını təbrik edərək, onlara işlərində uğurlar arzulayıb.

Çıxışlardan sonra DİİXİHİ Gəncə Şəhər Komitəsi adından bir qrup dövlət qulluqçusu səmərəli əmək fəaliyyətinə görə diplomlarla təltif olunublar.



Goranboyda da 23 İyun Dövlət Qulluqçularının Peşə Bayramı Günü” ilə bağlı tədbir keçirilib.

Rayon icra hakimiyyətinin aparatının məsul əməkdaşları və digər dövlət qulluqçularının iştirakı ilə Heydər Əliyev Mərkəzində keçirilən toplantıda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı il 25 may tarixli Sərəncamı ilə təsis edilən “Dövlət Qulluqçularının Peşə Bayramı” münasibəti ilə rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev Goranboyda fəaliyyət göstərən dövlət qulluqçularına təbriklərini çatdırıb. Dövlət qulluğunda fərqlənən bir neçə əməkdaşa rayon icra hakimiyyəti başçısının Fəxri Fərmanları təqdim edilib.

Qeyd edək ki, Dövlət Qulluqçularının Peşə Bayramı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2006-cı il 25 may tarixli sərəncamı ilə təsis edilib.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# İrəvanın COP29-la bağlı manipulyasiyaları

## Paşinyan sülhdən ona görə yayınır ki...

(əvvəli 1-ci səhifədə)

Başlayaq ondan ki, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Azərbaycanın, guya, sülh prosesindən yayındığına dair açıqlama verib. O, bir qayda olaraq, ənənəvi şablonları dilə gətirib: 1991-ci ilin Alma-Ata Bəyannaməsi, ərazi bütövlüyü, suverenlik və sair... Yəni erməni XİN rəhbəri açıq-aşkar onu bildirir ki, sərhədlərin delimitasiyası və demarkasiyası məsələsində hazırkı pozitiv ab-hava dəyişəcək. Yəni, ölkəsi indiki müsbət tendensiyadan uzaqlaşacaq. Uzaqlaşacaq və təqsiri Azərbaycanın boynuna atacaq.

Nəzərə alaq ki, xaricdəki anti-Azərbaycan qüvvələr də özlərini ölkəmizi təqsirləndirmək "musiqisinin notlarına kökləyiblər". Çoxgedişli kombinasiyaların səbəbi bəllidir: Bu ilin noyabrında Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransı (COP29).

Bəli, həm Ermənistan rəhbərliyi, həm dünya erməniliyi, həm də xaricdəki ermənipərəstlər və anti-Azərbaycan qüvvələr COP29-la bağlı oyun oynamağa girişiblər. Onlar özlərinin destruktiv və sülh prosesinə xələl gətirən mövqeləri ilə Bakını sərt addımlar atmağa təhrik etmək yolunu tutublar. Düşüncələri, təxminən, belədir: biz hansı təxribata əl atsaq, Azərbaycan susacaq. Susacaq ki, COP29 kimi dünya miqyaslı tədbirə evsahibliyi statusuna xələl gəlməsin. Əslində, onların bu cür siyasi şantaja əl atacaqları proznozlaşdırılan idi.




Qeyd edək ki, rəsmi İrəvan Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Ermənistan Respublikası baş naziri Aparatının ötən il dekabrın 7-də yayılmış birgə açıqlamasındakı pozitiv auranı elə həmin vaxtdan heçə endirib. Axı o açıqlamada bildirilmişdi ki, "xoş niyyətin təzahürü olaraq, Ermənistan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) ev sahibliyinə öz namizədliyini geri götürərək, Azərbaycan Respublikasının namizədliyini dəstəkləyir".

Ermənistanın hazırda heç bir xoş niyyəti yoxdur. Heç onda da olmayıb. Sadəcə, riyakarlıq edib, özünü dünya ictimaiyyətinə "demokratiya donunda" göstərmək istəyib. Guya ki, Azərbaycanın xeyrinə COP29-a evsahibliyi arzusundan daşınıb. Onsuz da İrəvanın belə bir nüfuzlu toplantını keçirmək üçün maliyyə vəsaiti yox idi. Hər kəsə yaxşı məlumdur ki, COP29-un təşkili Ermənistanda iqtisadi böhran yarada bilərdi. İqtisadi böhranın isə siyasi rakursu qaçılmazdır. Ölkə xaricdən aldığı silah-sursatın pulunu verə bilmir, az qala, dilənçiliklə məşğuldur, COP29 onun harasına yaraşırdı? Deməli, rəsmi İrəvanın imtina üçün bəhanə axtarması labüd idi və tapdı da.

Bəli, Ermənistan xoş niyyətli olsa idi, indiyədək Azərbaycanla sülh müqaviləsinə imza atmış, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmişdi. Ancaq bunu etmir, üstəlik, sülh müqaviləsinin vacib komponenti sayılan sərhədlərin delimitasiyası və demarkasiyası məsələsində ölkəmizə qarşı çıxır, Bakını qeyri-səmimilikdə günahlandıran ritorikaya üstünlük verir. Belə düşünmək mümkündür ki, rəsmi İrəvan COP29-a qədər bu sayaq manipulyasiyalarını davam etdirəcək. Onun məqsədini isə qeyd etdik.

Ancaq daha bir məqsəd var. Ermənistan və havadarları öz aləmlərində, dünyanın nəbzinə uyğun davranış ortaya qoymaq əzmindədirlər. Onlar hesab edirlər ki, yaxın aylarda nələrsə dəyişəcək və həmin dəyişikliklər fonunda Azərbaycanın hazırda tutduğu mövqeyə təsir imkanları yaranacaq. Buna görə də qarşıdakı müddətdə sülh gündəliyində irəliləməni deyil, geriləməni proqnozlaşdırmaq mümkündür. Ermənistan var gücü ilə çalışacaq ki, proses dalana dirənsin. Eyni zamanda, şərti sərhəddə, qoşunların təmas xəttində hərbi eskalasiya mühitinin formalaşacağını da ehtimal etmək mümkündür. Axı Fransa Ermənistana yeni silahları heç də əbəs yerə vermir. Nəzərə alaq ki, hərbi eskalasiya və onun nəticəsində Ermənistanın görəcəyi zərər rəsmi İrəvana imkan verəcək ki, dünyada Azərbaycanın, guya, sülhdən boyun qaçırdığına dair rəy formalaşdırsın.

Ancaq həm Ermənistan rəhbərliyi, həm də xaricdəki ermənipərəstlər yaxşı anlamalıdırlar ki, bu sayaq gedişlərlə Bakının mövqeyində dəyişikliyə nail olmaq mümkünsüzdür. Əksinə, rəsmi İrəvan manipulyativ gedişləri artırdıqca, durumunu daha da ağırlaşdıracaq. Ermənistan rəhbərliyi düşünməlidir ki, bu gün təklif edilən şərtlərlə razılaşmamaq ona baha başa gələcək, gələcəkdə indiki şansı da itirəcək. Amma bu barədə düşünürmü? Təəssüf ki, yox!

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Paşinyan yenə nala-mıxa vurur

## Baş nazirin "dördlük" formatını gündəmə gətirməsinin arxasında nə gizlənir?

(əvvəli 1-ci səhifədə)

Bu barədə məlumat yayan "Hraparak" qəzetinin yazdığına görə, baş nazir qapalı iclasın gündəliyini dəyişərək yeni mövzunu müzakirəyə çıxarmaqla iqtidar komandasının üzvlərini belə təəccübləndirib: "Toplantıdan əvvəl səhiyyə məsələlərinin müzakirə ediləcəyi barədə razılıq əldə olunmuşdu. Amma iclas başlayan kimi, baş nazir Ermənistanın xarici siyasət strategiyası mövzusunu önə çəkərək, Avropa və Rusiya ilə əlaqələrin müzakirəsini təklif edib. Həmçinin regional məsələlərin Azərbaycan–Türkiyə–Gürcüstan–Ermənistan formatında müzakirə edilməsi təklifini irəli sürüb".

Qəzet qeyd edir ki, Paşinyan partiyadaşlarına gündəmdən kənara çıxmasının səbəbi ilə bağlı tutarlı izahat verməyib. Əslində, bir müddət bundan əvvəl parlament dinləmələrində müxalif fraksiyaların təmsilçiləri Paşinyan hökumətindən Avropa İttifaqına (Aİ) üzvlük məsələsinin referenduma çıxarılmasını tələb edirdilər: "Qapalı toplantıda iştirak edən partiyadaşları Paşinyanın xarici siyasət prioritetləri ilə bağlı müzakirələri bərpa etməklə Ermənistanın Aİ-yə üzvlük məsələsində tələsməyin lüzumsuz olduğu tezisini yenidən aktivləşdirməyə çalışmasından şübhələnirlər". Yeri gəlmişkən, Paşinyanın sədri olduğu "Mülki müqavilə" partiyasının daxilində müəyyən fikir ayrılığının yaranması barədə erməni mediasında xəbərlər də tirajlanmışdı.

* * *

Bir daha qeyd edək ki, "3+3" formatını 44 günlük müharibədən sonra prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən irəli sürülüb. "Altılıq"da adları keçən ölkələrin heç biri Cənubi Qafqaza kənar arbitrin təşrif buyurmasını arzulamır. Region dövlətləri coğrafi yöndən yerləşmə konfiqurasiyalarına görə də bir-birinə bitişikdir, yaxud aralarında "altılıq"ın digər üzvləri yer alır. Tarix bu ölkələri və onların xalqlarını eyni taleyi yaşamaq kimi sınaqlardan az keçirməyib. Bu gün heç kəsə sirr deyil ki, bu üç böyük dövlət (Türkiyə, İran və Rusiya) Cənubi Qafqazın üç ölkəsinin himayədarı roluna iddia edirlər. Milli, tarixi və siyasi mövqe baxımından yanaşsaq, Azərbaycan Türkiyənin simasında özünə strateji müttəfiq, Rusiyanın simasında isə köhnə tərəfdaş qazanıb. Bakının bircə İranla münasibətləri durulmağa doğru gedən vəziyyətdədir. Ermənistan isə öz təqsiri ucbatından Türkiyə ilə düşmən, Rusiya ilə qeyri-dost, İranla isə soyuq müttəfiqlik havasındadır. Gürcüstana gəldikdə isə Tbilisi hər üç böyük dövlətlə məsafə saxlamaq taktikasını yeridir. Onlardan ikisi (Türkiyə və İran) ilə dinc qonşuluq əlaqələrinə, Rusiya ilə gərgin münasibətlərə malikdir.

İntəhası, indi əsas mövzu Azərbaycan və Ermənistanın arasındakı sülh sazişi istiqamətindəki irəliləyişi davam etdirməkdir. Bu isə artıq regionun hər üç böyük dövlətinin dəstəklədiyi və təqdir etdiyi xətdir. Sadəcə, ona görə yox ki, Türkiyə, İran və Rusiya Cənubi Qafqazı özlərinin "doğma əraziləri" hesab edirlər, həm də ona görə ki, bu dövlətlərin üçünün də ABŞ və Fransa, eləcə də Avropanın digər böyük dövlətləri ilə tarixi və geosiyasi mübahisələri var. Belə görünür ki, bu tarixi mübahisələr bəziləri üçün yenidən "aktuallaşıb".

Bütün bunlara baxmayaraq, "altılıq" kənar güclərin, başqa dövlətlərin Cənubi Qafqaza müdaxilə etməsini, buraya yerləşməsini qəti istəmir. Bunu sözügedən üç kiçik dövlətdən ikisi istəmir. Çünki təcrübədə "yadelli böyük dövlətlər"in regiona müdaxiləsinin hansı fəsadları törətdiyinə dair həm uzaq tarixdə yer alan, həm də çağdaş dövrümüzə aid danılmaz faktlar var. Yalnız Ermənistan, daha doğrusu, "dördlük" formatını gündəmə gətirməyə çalışan Paşinyan iqtidarı Rusiyaya arxa çevirərək, Fransanın, ABŞ-nin ağuşuna atılmaqla erməni xalqının "xoşbəxt gələcəyini" təmin edəcəyini düşünür. Amma reallıq və hadisələrin dialektik inkişafı onu deyir ki, Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanacağına, Cənubi Qafqaza davamlı sülhün gələcəyinə artıq hamı, hətta okeanın o tayındakılar da inanırlar. Onlar da gerçəkliyi görür və anlayırlar ki, ermənilərlə azərbaycanlıların yanaşı, yaxud birgə yaşaması kimi "əzablı seçimləri" aradan qalxıb. Otuz beş – otuz altı il öncə azərbaycanlılar Ermənistandan kütləvi şəkildə qovuldular, doqquz ay əvvəl isə ermənilər Azərbaycan torpaqlarını könüllü surətdə tərk etdilər. Yəni, hazırda hər iki tərəf özlərinin ana dövlətinin sərhədləri daxilindədir. Bundan sonrası iki xalq arasında düşmənçiliyin tədricən aradan qaldırılması və gələcəkdə mehriban qonşuluq münasibətlərinin bərpa edilməsi kimi uzaq pespektivinə ümid bəsləmək qalır.

* * *

Bütün bunlardan savayı, İrəvan Bakı qarşısında konstitusiya dəyişikliyi kimi etimad və səmiyyət testindən də keçməlidir. Məhz bundan sonra Bakı və Ankara İrəvanla əməkdaşlıq məsələsinə baxa bilərlər. Hələlik isə Ermənistan hakimiyyəti Azərbaycanla sülh sazişinin imzalanmasına aparan yola kötük diyirlətməyə çalışanlara özünün milli maraqları naminə kəskin sözünü deməlidir.

Məhz Fransa və ABŞ İrəvana ünvanladıqları ismarıclarla "3+3" formatının reallaşmasına əngəl yaratmağa çalışırlar. Paris və Vaşinqtonun Bakı və İrəvanın bölgədə sülh və əmin-amanlığa nail olunması yolunda atdıqları addımlarla bağlı təqdiredici mesajlarının altından fərqli niyyətlərın boylandığını sezmək o qədər də çətin deyil. Hətta skeptik siyasi ekspertlərin gəldikləri qənaətə görə, Fransa və ABŞ hesab edirlər ki, Cənubi Qafqazda münaqişə davam etməli, Ermənistan hərbi cəhətdən güclənməli, qüvvələrin "balansı" yaradılmalı və ardınca Hayastan Azərbaycana hücum edib, bir sıra üstünlüklərə nail olmalıdır. Və yalnız ondan sonra tərəflər sülh danışıqları masasına otura bilərlər. Məgər Yelisey sarayından səsləndirilən bəyanat və ultimatumların, Ermənistana göndərilən hücum silahlarının altında bu məkrli plan gizlənmirmi?

Bəs, bütün bunların qarşılığında Azərbaycan nə deyir? Bakı hərbi münaqişənin yenidən alovlanmasına qarşıdır və hesab edir ki, əgər Ermənistan yenidən müharibə yolunu seçsə bu dəfə məğlubiyyəti daha ağır, yaraları sağalmaz olacaq.

**İmran BƏDİRXANLI**
**XQ**




### Ekspert rəyi



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri, siyasi icmalçı**

Əvvəlcə onu qeyd edək ki, Ermənistanın Avropa İttifaqına üzvlüyü məsələsi ilə "3+3" platformasının, formal olaraq, bir-birinə aidiyyatı yoxdur. İrəvanın bu addımı atmaqda məqsədi Qərbdən, Avropadan hissolunacaq dəstəyi almaqdır. Buraya təkcə Azərbaycanla sülh danışıqları prosesi daxil deyil, ümumiyyətlə, gündəlikdə iqtisadi, eləcə də geniş geosiyasi məsələlər var. Təbii ki, ABŞ Dövlət katibi Antoni Blinkenin Bakıya telefon zənginin məzmunu da sülh danışıqları və sülh sazişinin tezliklə imzalanması ilə bağlı idi. Ağ ev bu məsələdə tərəfləri tələsdirir. Azərbaycanın danışıqlarda prinsipial mövqeyi dəyişməz olaraq qalmaqdadır. Söhbət rəsmi İrəvanın ölkə konstitusiyasında etməli olduğu dəyişikliklərlə bağlıdır. Aydındır ki, Ermənistanın Avropa İttifaqına üzvlük məsələsinin ortaya atılması daha çox piar məqsədi daşıyır. Bölgədə hadisələrin hansı məcrada inkişaf edəcəyindən çox şey asılı olsa da, Ermənistanın yaxın illərdə Aİ-yə üzv qəbul olunacağını gözləmirəm.

Yaxın perspektivdə Ermənistanın KTMT-dən ya tamamilə çıxacağı, ya da fəaliyyətini dayandıracağı barədə danışmaq olar. Bir fakt da nəzərə alınmalıdır ki, hazırda Ermənistanla Rusiya arasında ticarət dövriyyəsi durmadan artır. Məhz bu amilə görə, Ermənistanın Avrasiya İqtisadi İttifaqından çıxıb, Avropa İttifaqına daxil olacağı ağlabatan görünmür. Onu da deyək ki, əgər Ermənistanı indi Aİ üzvlüyünə növbəyə götürsələr belə, qərarın on ildən sonra veriləcəyi də sual altındadır. Bu quruma üzv olmaq üçün Albaniya, Monteneqro və başqa ölkələr neçə illərdir ki, növbə gözləyirlər.

# Qarabağ separatçıları Paşinyana qarşı

**Rəsmi İrəvanın "Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında ikitərəfli saziş" layihəsinin tezliklə imzalanmasında nə qədər səmimi olduğu hazırda ən aktual məsələlərdən biridir.**

Bununla bağlı Azərbaycan tərəfi vaxtaşırı narahatlığını ifadə edir. Sonuncu dəfə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin iyunun 19-da verdiyi şərh bu baxımdan diqqəti cəlb edir. XİN rəsmisi həmin gün bildirmişdir ki, 30 il ərzində beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozan, bu gün dəfələrlə istinad etdiyi Alma-Ata Bəyannaməsinə zidd olaraq, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı təcavüz törədən, qonşularına ərazi iddialarını davam etdirən, öz təcavüzkar əməllərini məhz ölkəmiz tərəfindən atılmış addımlar nəticəsində dayandıran Ermənistanın sülhpərvər ölkə imici yaratması siyasi manipulyasiyadır. Heç bir sərhəd tanımayan Ermənistanın Azərbaycan hərbçilərinin 30 ildən sonra yerləşdiyi mövqeləri delimitasiya olmadan öz kəndlərinin əraziləri kimi təqdim etməsi və Azərbaycanı işğalda təqsirləndirməsi absurddur. Eyni zamanda, bildirilmişdir ki, Azərbaycanın sülh prosesi təşəbbüsü ilə çıxış etdiyini və ilkin layihəsi məhz rəsmi Bakı tərəfindən təqdim olunmuş sülh sazişi üzrə danışıqlar aparmağa Ermənistanı təşviq etdiyini nəzərə alaraq, bu ölkənin Azərbaycan tərəfinin sülh prosesində səmimiliyini şübhə altına almağa heç bir mənəvi əsası yoxdur.

Bundan bir gün sonra Ermənistan xarici işlər naziri bəyanat yayaraq İrəvanın sülh istəyində səmimi olduğunu bildirib. Ancaq baş verən proseslər, o cümlədən, Fransadan Ermənistana silah tədarükü ilə bağlı yeni faktların açıqlanması, adıçəkilən ölkədən 36 ədəd "Caesar" özüyeriyən artilleriya qurğusunun alınmasına dair saziş imzalanması başqa mətləblərdən xəbər verir. Bundan əlavə, Azərbaycanla Ermənistan arasında real və davamlı sülh müqaviləsinin imzalanması üçün əsas şərt, "Ermənistan və Dağlıq Qarabağın birləşməsi"nə çağıran ölkənin müstəqillik aktına açıq şəkildə istinad edən Ermənistan konstitusiyası başda olmaqla, ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit edilmiş Azərbaycana qarşı davam edən ərazi iddialarına son qoyulmasıdır. Bunları etmədən sülhdən danışmaq qətiyyən doğru deyil. İrəvan öz əməlləri ilə dayanıqlı sülhdə maraqlı olmadığını açıq şəkildə nümayiş etdirir.

İyunun 21-də isə Ermənistanda sülh prosesinə mənfi təsir edə biləcək daha bir hadisə baş verib. Həmin gün İrəvanda erməni apostol kilsəsinin "Artsax yeparxiyası"nın ofisi açılıb. Ofisin açılacağını iyunun 19-da yeparxiyanın rəhbəri, yepiskop Vartanes Abramyan rəsmən elan edib. Qeyd olunub ki, yeni struktur "Dağlıq Qarabağ" sakinlərinin hüquqları ilə bağlı problemlərin qaldırılması məqsədilə yaradılıb. "Yeparxiyanın dostlarının dəstəyi ilə ofis qarabağlıların cari problemləri ilə daha yüksək səviyyədə məşğul olacaq. Prioritet vəzifələr sırasında Qarabağın mədəni-tarixi irsinin qorunub saxlanılması, məcburi köçkünlərin (?) sosial-iqtisadi problemlərinin həlli və onların öz vətənlərinə (?) qayıtması üçün mümkün yolların tapılması daxildir" – yayılan məlumat bu cür sərsəm fikirlərlə doludur.

Ofisə Qarabağdakı tarix-geologiya muzeyinin keçmiş direktoru Melaniya Balayan rəhbərlik edir. Mədəni və tarixi irsin qorunması proqramlarına keçmiş qondarma rejimin "mədəniyyət, gənclər və turizm naziri" Lernik Ovannisyan, "beynəlxalq layihələrin" əlaqələndirilməsini isə xunta rejiminin sabiq "xarici işlər naziri" Karen Mirzoyan həyata keçirəcəklər. Qeyd edilib ki, ofis iyulun 1-dən öz qapılarını bütün hayların üzünə açacaq.

İyunun 21-də buna paralel olaraq, keçmiş rejimin İrəvandakı "nümayəndəliyində" vəziyyət gərginləşib. Hayastan daxili işlər nazirliyinin kriminal polisinin xüsusi təyinatlı bölməsinin əməkdaşları "nümayəndəliyə" basqın ediblər. Onlar darvazaları sındıraraq içəri daxil olublar. Yada salaq ki, hələ iyunun 7-də hüquq-mühafizə orqanlarının əməkdaşları rejimin sonuncu "qlavarı" Samvel Şahramanyana xidmət edən avtomobili müsadirə etməyə cəhd göstərmişdilər. İyunun 21-də isə onlar buna nail olublar. Xüsusi təyinatlılar avtomobilin müsadirəsinin cinayət işinin tərkib hissəsi kimi həyata keçirildiyini qeyd ediblər. Ermənistan hökuməti isə heç bir dövlət əhəmiyyətli vəzifə daşımadıqları üçün separatçılara xidməti avtomobillərdən istifadəni qadağan edib. Şahramanyan və digər separatçılar dəfələrlə buna görə polis tərəfindən saxlanılmışlar.

Ermənistanda aprelin sonlarından başlayaraq keçirilən və bu ay fiaskoya uğrayan etiraz aksiyalarına rəhbərlik edən arxiyepiskop Baqrat Qalstanyan isə Azərbaycanla həmsərhəd Kirants kəndindən İrəvana qayıdan kimi, yenə həmin günün axşamı "nümayəndəliyə" gəlib. Burada onu çox səmimi qarşılayıblar. S.Şahramanyan və qondarma rejimin əldəqayırma "parlamentinin deputatları" "srbazan"ı binanın girişində gözləyirdilər. Görüşdən əvvəl Baqrat avtomobili "Artsax nümayəndəliyinə" hədiyyə etmək istədiyini bildirib. "Mən bu qəbuledilməz insidentdən bu gün Voskeparda xəbər tutdum. Xalqımıza xidmət etmək üçün avtomobilimi sizə vermək istəyirəm. Bu, əhəmiyyətsiz və ucuz yollarla təzyiq göstərməyə çalışan insanlara aydın siqnal verməli olan mühüm aktdır" – deyə Baqrat nəqliyyat vasitəsinin açarlarını Şahramanyana təhvil verərək bildirib.



Onu da deyək ki, Nikol Paşinyan iqtidarı ilə Qarabağ erməniləri arasında münasibətlərin pisləşməsində Baqratın aksiyalarının özünəməxsus rolu var. Həmin aksiyalara qatılanların bir çoxu 2020-ci il müharibəsindən və 2023-cü ilin sentyabrındakı lokal xarakterli antiterror tədbirlərindən sonra İrəvana könüllü gedən şəxslərdir. Bunu yaxşı bilən N.Paşinyan iyunun 12-də parlamentdə müzakirələr zamanı Qarabağdakı separatçıları "klerikal feodal tör-töküntülər" adlandırmışdı. "Müxalifətin məqsədi Ermənistanı yeparxiyaya çevirməkdir. Sizin üçün Qarabağ əhalisi mitinqlər üçün materialdır" – deyə Paşinyan əsəbi şəkildə bildirmişdi.

Ermənistan hakimiyyətinə yaxınlığı ilə seçilən "Armenian Report" saytında bugünlərdə yerləşdirilmiş "Qarabağlılar minnətdarlıq əvəzinə, Ermənistanı dişləyirlər" sərlövhəli analitik məqalədə təəssüflə bildirilib ki, bu gün yerli ermənilər 30 ildən artıq bir müddətdə Ermənistanın dövlət büdcəsi, erməni vergi ödəyicilərinin hesabına rahat yaşayanların qara nankorluğu ilə üz-üzədirlər. Söhbət nicat axtarışı ilə Ermənistana köçən 100 min (?) Qarabağ ermənisindən gedir: "Həmkarımız və bloger Roman Bağdasaryan öz verilişlərinin birində hesablamışdı ki, 30 il ərzində çoxsaylı marafonlar nəticəsində təkcə erməni diasporu tərəfindən "Artsaxa" 30 milyard dollar sərmayə qoyulub. Fərdi investisiyalar da var idi, məsələn, Levon Ayrapetyan. Ermənistan Respublikasının köməyi isə dəfələrlə çox idi. Nə deyə bilərik? "Artsax" yalnız Ermənistanın köməyi sayəsində mövcud olub. Digər məqam budur ki, nəticədə bu vəsaitlərin oğurlanması hesabına yalnız Qarabağ elitasının yuxarı təbəqəsi varlanıb. Lakin buna baxmayaraq, fakt faktlığında qalır ki, "Artsax" bütün bu illər ərzində erməni vergi ödəyicilərinin hesabına mövcud olub. Qarabağ erməniləri indi minnətdarlıq hiss etməlidirlər. Ermənistan hökuməti 2020-ci il oktyabrın 1-dən yaşayış xərclərini kompensasiya etmək üçün Qarabağdan olan "qaçqınlara" aylıq yardım ödəməyə başlayıb. Hər ailə ayda adambaşına 40 min dram və kommunal xərclər üçün daha 10 min dram alırdı. Kiçik və kasıb Ermənistan üçün bunlar çox böyük məbləğdir. İyunun 16-da hökumət Qarabağdan "məcburi köçkün düşmüş" ailələrin mənzillə təmin olunması üçün dövlət dəstəyi proqramının icrası prosedurunu açıqlayıb. Bəs cavab nədir? Cavab qara nankorluqdur. Bir çox qarabağlılar əvvəlcə Robert Koçaryanın bayrağı altında dayanmışdılar (görünür, onun onları necə aşağıladığını unudublar), indi isə tamamilə Baqrat Qalstanyanın tərəfdarları sırasına qoşulublar və onunla birgə Paşinyan hökumətinin istefasını tələb edirlər".

Məqalədə qeyd edilib ki, Tavuş arxiyepiskopunun etiraz hərəkatının ən aqressiv tərəfi məhz Qarabağdan olan "qaçqınlar"dır. Sonda N.Paşinyanın səbri tükənib və parlamentdəki çıxışı zamanı Qarabağdakı klerikal-feodal elitasının nümayəndələrinin Azərbaycana bir neçə milyard dəyərində hərbi texnika və sursat olan arsenalları təhvil verdiyini və Ermənistandakı müxalifətin qarabağlıları 5 min dram qarşılığında mitinqlərə apararaq, onlardan hakimiyyət dəyişikliyi üçün istifadə etdiyini bildirib: "Qarabağda sizin o qədər silahınız var idi ki... Onlar erməni vergi ödəyicilərinin pulları ilə alınmışdı. Belə deyək, insanlar uşaqlarının boğazlarından kəsərək həmin silahları alaraq "Artsax"da sizə vermişdilər, ancaq siz panika içində hər şeyi atıb qaçdınız. Siz döyüşmək belə istəmirdiniz, sadəcə olaraq, Ermənistana qaçdınız. Və burada hələ də hüquqdan dəm vurursunuz. İndi mən 100 min (?) nəfərin hamısını demirəm, lakin onların, demək olar ki, yarısı Koçaryanı və Qalstanyanı dəstəkləyir. Sizin vicdanınız haradadır? Minnətdarlığınız haradadır? Heç nə yoxdur".

Müəllif Tevos Arşakyan qeyd edib ki, nə onun, nə də redaksiyadakı həmkarlarının "Artsax xalqı"na qarşı nifrət yaratmaq niyyəti yoxdur. Qeyd edib ki, onlar erməniləri irəvanlılara, qarabağlılara, zəngəzurlulara və sair yerlərə bölmək kimi yaramaz fenomenin əleyhinədirlər. "Biz erməni cəmiyyətində "Artsax xalqı"na qarşı antipatiya təbliğ etmirik. Xeyr, burada belə hissləri doğuran onlar özləridir. "Artsaxlılar"ın Ermənistan sakinlərinə qarşı xüsusi aqressiyasını görürük, hiss edirik. Artıq bir-birinin ünvanına təhqiramiz ifadələrlə müşayiət olunan neçə-neçə qarşıdurma baş verib. Bu gün İrəvan küçələrində xüsusi rəftar tələb edən həmin o "Artsax" sakinləri Robert Koçaryan, Serj Sarkisyan, Seyran Ohanyan, Arkadi Qukasyan, Bako Saakyan tərəfindən qarət və talan edilən də harada idilər?" – deyə müəllif qeyd edib.

Ümumiyyətlə, Ermənistanda keçmiş illərdə də yerli ermənilərlə Qarabağ erməniləri arasında həmişə ixtilaflar olub. Sadəcə, Ermənistan Birinci Qarabağ müharibəsindən qalib ayrıldığı üçün bu ixtilaflar çox da nəzərə çarpmayıb. Əslində isə yerli ermənilər Qarabağı hər zaman ölkənin "başına bəla" adlandırıblar. Az-çox rasional düşünənləri Qarabağı heç zaman görməyən uşaqlarının Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazisində qulluq etdiyini, həlak olduğunu bildiriblər. Əslən İcevandan olan Nikol da bu düşüncədə olanlardandır. İyunun 12-də parlamentdəki iclasda Paşinyan Qarabağdakı keçmiş rejimi 2023-cü ilin sentyabr ayında döyüşməməkdə, tez bir zamanda təslim olmaqda və erməni vergi ödəyicilərinin pulları hesabına alınmış milyardlarla dəyəri olan silah-sursatı Azərbaycana verməkdə ittiham etmişdi. Hazırda Paşinyan və onun komandası Ermənistanda Qarabağ ermənilərinə qarşı nifrətin artmasında maraqlıdır. Qeyd etdiyimiz kimi, bu da səbəbsiz deyil: Çünki radikal müxalifətin mitinqlərinə və küçə yürüşlərinə qatılanların əksəriyyəti Qarabağdan gəlmələrdir.

***Səxavət HƏMİD***
**XQ**

**Beynəlxalq həyat**

# Çin enerji istehlakında Avropanı üstələyib

**(əvvəli 1-ci səhifədə)**

Ötən il Çinin adambaşına düşən enerji istehlakı ilk dəfə olaraq Avropanı ötüb. Bu, Londonda yerləşən Enerji İnstitutunun (EI) yeni statistik icmalında deyilir. "Bloomberg" agentliyi yazır ki, Çinin enerji istehlakı məlumat mərkəzləri şəbəkəsi, 5G və elektrik avtomobilləri doldurma infrastrukturu və xaricdə tələbatı ödəmək üçün tam gücü ilə işləyən fabriklər səbəbindən artır. Eyni zamanda, Çin bərpa olunan enerji potensialını yaratmaqla elektrik enerjisi istehsalını dünyanın qalan hissəsindən daha çox artırıb. Lakin Çində enerji istehsalının ümumi artımı həm də kömür və digər qalıq yanacaqlardan istifadənin artması ilə təmin edilib.

Hesabatda bildirilir ki, ABŞ-da adambaşına düşən ilkin enerji istehlakı son on ildə 0,4 faiz, Avropa İttifaqında isə 1,2 faiz azalıb. Bununla belə, qlobal enerji istehsalı və istixana emissiyaları azalmayıb, əksinə, artıb və artmaqda davam edir. 2023-cü ildə enerji ilə bağlı qlobal istixana qazı emissiyaları tarixdə ilk dəfə olaraq 40 Gt karbon ekvivalentini keçib. Bilirilir ki, ötən il qlobal ilkin enerji istehlakı üzrə ardıcıl ikinci rekord qeydə alınıb və 2 faiz artaraq 620 exacoul (eJ) olub. Bu gün qlobal ilkin enerji istehlakının artım tempi son 10 ildə orta göstəricidən 0,6 faiz, koronavirus böhranından əvvəlki 2019-cu ilin səviyyəsindən isə 5 faizdən çox yüksəkdir. Nisbətən aşağı karbonlu qalıq yanacaq olan təbii qaza tələbat sabit olaraq qalır.



Mütəxəssislərin sözlərinə görə, enerji istehlakının ümumi artımı isə daha çox karbon tutumlu mədən yanacaqlarından – neft və kömürdən istifadənin artması ilə bağlıdır. Bu tendensiya enerji ilə bağlı istixana qazı emissiyalarının bütün zamanların ən yüksək həddə olması deməkdir. EI-nin araşdırmasına görə, qalıq yanacaqlarından yaranan karbon emissiyaları enerji ilə bağlı istixana qazları emissiyalarının ən böyük mənbəyidir və ümumi həcmin təxminən 87 faizini təşkil edir.

Bundan əlavə, Qərb ekspertləri qeyd edirlər ki, avropalılar əsasən karbon emissiyalarını inkişaf etməkdə olan ölkələrə ixrac ediblər. Bununla bağlı "Bloomberg qeyd edir ki, Avropada enerji istehlakının və emissiyaların azalması digər ölkələrdə karbon emissiyalarını artırırsa, bu o deməkdir ki, iqlim siyasəti işləmir. Qalıq yanacaqdan istifadə təkcə Çində deyil, Hindistanda da artır. Sürətli iqtisadi artım fonunda Hindistan ilk dəfə Avropa və Şimali Amerikanın birləşdiyindən daha çox çirkləndirici yanacaq istifadə edib. Yaxın illərdə bu tendensiyanın dəyişəcəyinə dair əlamətlər də görünmür. Hindistan Kömür Nazirliyinin sözçüsü Afrit Lal Min ötən ilin sonunda demişdi ki, Hindistan sənaye və iqtisadi artımın sürətləndirilmiş trayektoriyasındadır və kömür ölkənin inkişafında əsas rol oynamağa davam edir. Onun sözlərinə görə, Hindistanın əhalinin enerji tələbatını təmin etmək üçün ucuz və əlçatan yanacaq mənbəyinə alternativi yoxdur. Onun sözlərinə görə, 2028-ci ilə qədər yeraltı kömür hasilatının üç dəfə artırılması açıq mədən ehtiyatlarının tükənməsini kompensasiya etməyə və idxalı mərhələli şəkildə dayandırmağa kömək edəcək.

Hindistan 2024-2025-ci maliyyə ilinin sonuna qədər elektrik istehsalını 15,4 GVt artıracaq ki, bu da, təxminən, 10 ilin ən yüksək illik göstəricisidir. "Business Standard" qəzetinin məlumatına görə, artımın yeni kömürlə işləyən elektrik stansiyalarının işə salınması hesabına əldə edilməsi planlaşdırılır. Hazırda ölkədə 28,5 QVt gücündə kömürlə işləyən elektrik stansiyası tikilir və növbəti üç il ərzində ümumi gücü 50 GVt olan bir neçə kömür elektrik stansiyası inşa olunacaq. Son 10 ildə Hindistan istilik enerjisi istehsalının artımını geridə qoyaraq, 100 GVt-dan çox bərpa olunan enerji gücü əlavə edib. Bununla belə, ekoloji cəhətdən təmiz elektrik enerjisinin yığılması üçün anbarların olmaması onun istehsalına mane olur və kömürlə işləyən enerji obyektlərinin nəinki qorunub saxlanmasına, həm də gücünün artmasına səbəb olur. İndi onlar Hindistanın elektrik enerjisinin təxminən dörddə üçünü istehsal edirlər və hökumət inanır ki, kömür ən azı daha 10 il milli enerji qarışığında dominant yanacaq olaraq qalacaq. Bu isə o deməkdir ki, dünya daha da çirklənəcək.

Hindistanın Kömür Nazirliyinin məlumatına görə, ölkənin təxmini kömür ehtiyatları hazırda 361 milyard metrik ton təşkil edir. Ölkənin kömür idxalı 90 milyon tona çatır, lakin "fillər ölkəsi"ndə kömür hasilatını artırdıqdan sonra ixraca keçidlə dayandırılacaq. Hesablamalara görə, 2030-cu ilə qədər Hindistanın daxili kömür ehtiyacı 1,5 milyard tona çatacaq. "Özünü təmin edən Hindistan" dövlət proqramına uyğun olaraq ölkədə yeni kömür mədənləri açılacaq və mövcud mədənlərdə hasilat artırılacaq. Son 2023–2024-cü maliyyə ilində (31 martda başa çatıb) Hindistanda kömür hasilatı 1 milyard tonu ötüb.

Qeyd etmək yerinə düşər ki, Hindistan orta illik PM2 konsentrasiyası ilə dünyada havanın çirklənməsinə görə beşinci ən yüksək səviyyəyə malikdir. PM2.5 və ya ölçüsü 2,5 mikron və ya daha az olan hissəciklər ən çox yayılmış və təhlükəli hava çirkləndiricisidir. PM2.5-ə məruz qalma ürək və ağciyər xəstəlikləri də daxil olmaqla bir çox xəstəliklərə səbəb olur.

**S.ELAY**
**XQ**



# Postmüharibə dövründə liderlik

### III məqalə

***Lider açıq oynayır,.. lider arxasınca aparır.***

**Teodor Ruz elt**

## Liderin şəxsiyyəti və mürəkkəb geosiyasət

2003-cü ildən başlayaraq Cənubi Qafqazı ciddi geosiyasi çalxalanmalardan qorumaq strategiyasını Azərbaycanın həyata keçirməsi siyasi proqnozlaşdırma baxımından tarixi bir qənaət idi. Burada siyasi proqnozlaşdırmanın üç aspekti – liderin şəxsi potensialı, ölkənin real vəziyyəti və qlobal geosiyasətin dinamikası bir-biri ilə harmoniya təşkil etməli idi.

Ötən 21 il ərzində regionu geosiyasi tarazlıqdan çıxarmaq cəhdləri dəfələrlə oldu. Onun mütəmadi təkrar olunan əlaməti Ermənistanın Azərbaycan sərhədlərində təxribatlar törətməsi idi. Ermənilər və onların havadarları bu yolla iki şeyə nail olmaq arzusunda idilər. Birincisi, Azərbaycanı daim təzyiq altında saxlamağın fonunda danışıqları qeyri-müəyyən vaxta qədər uzatmaq. İkincisi, rəsmi Bakını müstəqil siyasətindən çəkindirmək və ağır şərtlərlə müqavilə imzalatmağa məcbur etmək. Həmin dövrdə tez-tez erməni siyasətçilərin və onların havadarlarının leksikonunda "Azərbaycanı sülhə məcbur etmək" kimi ifadə təsadüfən işlədilmirdi.

Azərbaycan 2016-cı il məlum qısa müddətli Aprel savaşına qədər çoxistiqamətli siyasəti ilə bu kimi cəhdlərin qarşısını məharətlə aldı. Gürcüstana olan təcavüzün də böyüyüb regional xaosa çevrilməsini Bakı özünün konstruktiv enerji və humanitar xarici siyasəti ilə əngəllədi. İndi ekspertlər sırasında Qərbin Gürcüstanı müdafiə etdiyi haqqında fikir söyləyənlər az deyil. Burada, təbii ki, həqiqət vardır. Ancaq iki məqam unudulmamalıdır. Birinci məqam ondan ibarətdir ki, 2020-ci il II Qarabağ savaşı da göstərdi ki, Qərb davranışlarında heç də səmimi deyildir və öncə öz maraqlarını düşünür.

Əgər Qərb Gürcüstana qarşı səmimi olsaydı, M.Saakaşvilinin, ümumiyyətlə, Rusiyaya qarşı müharibəyə başlamasına imkan verməzdi, qaşısını alardı. Bunun əvəzində Gürcüstan ərazi bütövlüyünü bərpa etmək adı ilə təxribata çəkildi. Moskvanın sərt və sürətli əks-tədbirindən sonra isə Qərb başqa cür davranmağa başladı. Ona görə də diplomatik fəallığına baxmayaraq, Qərb Cənubi Qafqazda geosiyasi sabitliyə ciddi töhfə vermədi.

Bu prosesdə əsas rolu Azərbaycan oynadı. Necə? Hər şeydən öncə, Azərbaycan Gürcüstanı müdafiə etdi, lakin Rusiyaya qarşı çıxmadı. Azərbaycan siyasi-diplomatik fəaliyyəti ilə Cənubi Qafqazdakı enerji layihələrinin zərər görməsinə imkan vermədi. Hər hansı kiçik bəhanə ilə Moskva həmin marşrutları asanlıqla vura bilərdi. Onların vurulması isə sözün həqiqi mənasında, regionun geosiyasi xaosa sürüklənməsinin başlanğıcı olacaqdı. Bunun qarşısını Azərbaycanın siyasəti aldı.

İkinci məqam ondan ibarətdir ki, Azərbaycan Gürcüstanı bir an belə tək buraxmadı. Enerji strategiyasında Gürcüstanın yeri və rolunu daha da artırdı. Bu da beynəlxalq səviyyədə Tbilisinin həm ayaqda qalmasına, yəni siyasi səhnədə passiv mövqeyə atılmamasına, həm də təhlükəsizliyin təminində Gürcüstan faktorunun real qiymətini onun qərbli dostlarının bilməsinə əlavə imkan yaratdı. Konkret desək, Azərbaycanın enerji siyasəti Gürcüstanı beynəlxalq aləmin gözündə regional təhlükəsizliyi məsələsində əsas faktorlardan biri statusuna yenidən yüksəltdi. Bu, Azərbaycanın real mövqeyi baxımından regional miqyasda dərin siyasi diaqnozun və düzgün strateji proqnozlaşdırmanın nəticəsi idi. Çünki Bakı Gürcüstanın geosiyasi qiymətini yüksəltməklə, bütövlükdə, regionun əhəmiyyətini təmin etmiş oldu. Azərbaycan üçün bu gedişat ərazi bütövlüyünü bərpa etmək kontekstində vacib geosiyasi məqam idi.

Bununla Azərbaycan 2008-ci il böhranını lokallaşdırdı və onun regiona yayılmasının qarşısını kəsdi. Nəticədə rəsmi Bakı üç istiqamətdə diplomatik fəallığını artıraraq, tarixi nəticələr əldə etdi.

Onlardan biri Avropa istiqamətində siyasətini milli maraqlar çərçivəsində bir addım da irəli aparmaqla bağlıdır. Təzahürü isə assosiativ üzvlükdən imtina etməsində oldu. Azərbaycan həmin addımı ilə həm Brüsselə, həm də Moskvaya göstərdi ki, onun üçün əsas olan milli maraqlardır və bunu kimsəyə güzəştə getmək fikrində deyil. Bu müstəqil mövqe, təbii ki, Kremli tam qane edirdi. Eyni zamanda, Brüssel anladı ki, Azərbaycanı Ermənistan və Gürcüstan kimi təxribatlara çəkə bilməz. Hadisələrin sonrakı gedişi göstərdi ki, həmin qarışıq və ziddiyyətli dövrdən Cənubi Qafqazda zərərsiz çıxa bilən yalnız Azərbaycan oldu. Təbii ki, bu, həm də region üçün müsbət bir məqam idi. Onun siyasi-konseptual aspekti ilə yanaşı, praktiki-diplomatik memarı isə Azərbaycan Prezidenti idi.

Bizcə, vurğulanan mərhələ XXI əsrdə böyük geosiyasi güclərin toqquşması prosesində dövləti yaranmış vəziyyətdən maksimum zərərsiz çıxarmağın postsovet məkanında ilk nümunəsidir. Çünki məhz həmin mərhələdən sonra faktiki olaraq Azərbaycanın yeni səviyyədə fəalliyəti başladı. Bu, multikulturtalizmi, enerji siyasətini və regional əməkdaşlıq formatlarını əhatə edirdi. Həmin istiqamətlərin hər biri Ulu öndərdən başlayan təcrübənin XXI əsrin ikinci onilliyinin reallıqlarına uyğun inkişafı idi. Təbii ki, onun səmərliliyi ilk növbədə liderin analitik və proqnostik aspektləri sintez edə bilməsindən asılıdır.

Həmin məqamın ilk sınağı iki istiqamətdə özünü göstərdi. Birinci, dünyada sürətlə dəyişən geosiyasi dinamikanın fonunda milli təhlükəsizliyin yeni şərtlərinin meydana çıxması ilə bağlı idi. Həmin şərtlərə görə, enerji təhlükəsizliyi milli təhlükəsizlik üçün daha çox aktual olmağa başlamışdı. Azərbaycan Prezidenti onu üç mərhələdə bir-biri ilə bağlı surətdə həll etdi: milli, regional və qlobal. Yeni enerji təşəbbüsləri təməldə milli maraqlara cavab verirdi, regional miqyasda "qazan-qazan" prinsipinə tam uyğun idi və qlobal miqyasda birbaşa Avropanın enerji təhlükəsizliyi ilə Avropa İttifaqı dövlətlərinin milli təhlükəsizliyi arasında sıx bağlantı yaradırdı. Bütün bunların nəticəsi kimi, rəsmi Brüssel müxtəlif rəsmi səviyyələrdə burmənalı bəyan etdi: "Azərbaycan Avropanın etibarlı enerji tərəfdaşıdır"!

İkinci, 2016-cı ilin aprelində Azərbaycanın erməni təxribatlarına cavab olaraq qısamüddətli hərbi əməliyyat aparması dumanlı başları ayıltdı. Azərbaycan Lələtəpəni azad etməklə göstərdi ki, o, həm dövlət, həm də ordu timsalında ciddi surətdə dəyişmişdir. Ölkə iqtisadi, sosial və ideoloji yeniləşmənin siyasi-diplomatik fəaliyyətə və müdafiə qüdrətinin artmasına əhəmiyyətli təsir etdiyini dünyaya göstərdi.

Bununla 2016-cı ildə Azərbaycan iki sferada – enerji və ordu quruculuğunda prinsipial yeniliklər etməyə qadir olduğunu sübuta yetirdi. Bu fakt siyasi diaqnostika və proqnozlaşdırma aspektlərində son dərəcə vacib mənzərəni əks etdirirdi. Çünki faktiki olaraq Azərbaycan Respublikasının real gücünü ortaya qoyurdu.

Bizcə, Azərbaycan Prezidenti bu faktlarla dünyaya maraqlı mesajlar vermişdir. İlk növbədə, Azərbaycanın müstəqil dövlət olduğunu bir daha nümayiş etdirmişdir. Bunun əsasında Azərbaycan Respublikasının daim inkişaf etdiyini göstərmişdir. Nəhayət, Azərbaycanın güclü dövlət üçün əhəmiyyətli olan əsas sahələrdə səmərəli proqramlar həyata keçirmək qüdrətində olduğunu təsdiqləmişdir.

Sonuncu tezis özündə daxili birliyi, iqtisadi inkişafı, enerji strategiyasının dinamik inkişaf etdirilməsini və ordu quruculuğunun uğurlu olmasını ehtiva edirdi. İlham Əliyev bu böyük nailiyyəti liderlik keyfiyyətləri ilə Azərbacyanın real vəziyyəti və qlobal geosiyasi dinamikanın düzgün nisbətini müəyyənləşdirmək və onun əsasında doğru proqnozlaşdırma aparmaq sayəsində əldə etmişdir.

Nəhayət, 2020-ci ildə II Qarabağ savaşının timsalında Prezident İlham Əliyevin siyasi təhlili, diaqnozu və proqnozlarının çox doğru olduğu əyani təsdiqini tapdı. Cəmi 44 gün çəkən Zəfər savaşı dövlət başçısının şəxsi yüksək keyfiyyətləri ilə siyasi-diplomatik fəaliyyətin, real vəziyyətin və qlobal geosiyasi dinamikanın tarixi sintezinə nail olmasını sübut etdi. Bundan başqa, hətta, XXI əsr üçün nəzəri və praktiki yenilik sayılan bir özəlliyi Azərbaycan Prezidenti göstərdi. Biz İlham Əliyevin nümunəsində ekskluziv olaraq dövlət başçısı, Ali Baş Komandan və intensiv informasiya müharibəsində mücadilə edən lider – siyasətçi – diplomatı gördük.

Müasir politoloji nəzəriyyələrdə liderin yuxarıda vurğulanan keyfiyyətlərinin uğurlu olmanın başlıca parametrləri olduğu haqqında kifayət qədər fakt və təhlillər mövcuddur. Məsələn, politoloqlar XXI əsr üçün liderin kommunikativliyinin həlledici olması barədə fikirlər irəli sürürlər. Səbəbi ondan ibarətdir ki, müasir geosiyasi dinamika olduqca sürətli və riskli dəyişikliklərlə xarakterizə olunur. Hər hansı təhlil və proqnoz faktiki olaraq qısa müddət üçün keçərlidir. Bundan başqa, müxtəlif istiqamətlərdən fərqli və gözlənilməz təsirlər istisna edilmir.

Bu cür sürətli və dəyişkən dinamikanı adekvat olaraq nəzəri qiymətləndirmək mümkün deyilsə, onu yalnız liderin şəxsi qabiliyyətləri kompensasiya edə bilər. Onun yolu isə danışıqlar masasında, müzakirələrdə və hətta mübahisələrdə liderin fəaliyyətindən keçir.

Kifayət qədər savadlı, yüksək diplomatik keyfiyyətlərə malik, uzaqgörən, məntiqli və inamlı lider lazımdır ki, qarşı tərəflə müzakirələrində həm siyasi ritorikanı gözləsin, həm də ədalətli və məntiqi fikirləri ilə onu cəlb edə bilsin. Politoloqlar vurğulayırlar ki, İlham Əliyev məhz bu keyfiyyətləri sayəsində dünyanın ən güclü liderlərini belə inandıra bilmişdir! Burada mütləq vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti 2003-cü ildən bu yana öz liderlik qüdrətini ardıcıl, davamlı və addım-addım dünyanın güclü dövlətlərinin başçılarına sübut etmişdir. Faktlara baxaq.

XXI əsrin başlanğıcında Rusiya, İran, ABŞ və Avropa liderləri özlərini Azərbaycana qarşı bir qədər fərqli aparırdılar. İlham Əliyev həm ikitərfli görüşlərdə, həm də müxtəlif tədbirlərdə mövqeyini elə tutarlı izah etdi ki, onların hər biri nəticədə fikirlərini ciddi surətdə dəyişdilər. Məsələn, Aİ rəsmiləri Azərbaycanla Ermənistan arasındakı münaqişədə Azərbaycanın haqlı olduğunu qəbul etdi. Məhz İlham Əliyevin gərgin siyasi-diplomatik mücadiləsi müsbət nəticəni verdi. Buna paralel olaraq, Rusiya rəhbərliyi ilə mütəmadi müzakirələr İlham Əliyevin səmimi, səviyyəli və prosesləri çox gözəl bilən lider olduğuna rəsmi Moskvanı inandırdı. Təhlil göstərir ki, bu cür yüksək kommunikativlik qabiliyyəti və diplomatik məharəti sayəsində Azərbaycan Prezidenti Ermənistan məsələsində Rusiya rəhbərliyinin mövqeyini dəyişə bilmişdir.

İranla münasibətlərdə də kifayət qədər səmərəlilik nümayiş etdirən Azərbaycan Prezidenti dəfələrlə regionu təxribatçı hərəkətlərdən xilas etmişdir. İkinci Qaqabağ savaşı zamanı da İlham Əliyevin İrana qarşı təmkinli münasibəti bir sıra fəlakətlərin qarşısını almışdır.

Türkiyə məsələsi xüsusi əhəmiyyət kəsb edir. İlham Əliyev Heydər Əliyev xəttini inkişaf etdirərək Türkiyə rəhbərliyi ilə çox sıx münasibətlər qurmuşdur və indi Prezident R.T.Ərdoğanla Azərbaycan Prezidentini həm də şəxsi qardaşlıq və dostluq birləşdirir.

Bütün bunlar, hər şeydən öncə, İlham Əliyevin lider kimi yüksək ünsiyyət qabiliyyəti, kommunikasiya qurmaq bacarığı, fikrini qarşı tərəfə sübut etmək qüdrəti və yüksək iradi keyfiyyətləri sayəsində mümkün olmuşdur.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# "Min illər yatdılar, oyananda dünyanı silkələdilər"

*Çinin "Xalq qəzeti" 4 min illik arxeoloji tapıntılardan yazır*



**Bəri başdan deyək ki, bu, bizim paytaxtımızda ərsəyə gələn "Xalq qəzeti" yox, Çin kommunistlərinin 1948-ci il 15 iyundan bəri Pekində nəşr etdikləri mətbu orqanıdır. Xatırladaq ki, Rusiya Federasiyasındakı "İnoSMİ.ru"u saytı dünyanın aparıcı kütləvi informasiya vasitələrinin, eləcə də, "Jenmin Jibao"nun ən maraqlı yazılarını ruscaya tərcümə edərək paylaşır. Bu Çin qəzetinin yazdığına görə Qərbi Çindəki San Sin Duy xarabalıqlarındakı dağıntılar altından dörd min (4000) il əvvəlki sivilizasiyaya aid mədəniyyət nümunələri tapılmışdır.**

"Jenmin Jibao" yazır: "Çin Xalq Respublikasının sədri Si Cinpin hələ bir il qabaq San Sin Duy dağıntıları muzeyində olarkən demişdi ki, buradakı arxeoloji qazıntıların nəticələrini bütün dünya alqışlayacaq. Çünki buradakı tapıntılar dörd min ildən də çox əvvəlki dövrün sivilizasiyalarının görkəmli nailiyyətlərini nümayiş etdirir. Bu tapıntılar Çin sivilizasiyasının çoxnövlülüyünü sübut etməklə yanaşı, Şu adlı qədim Cənub-Qərbi Çin sivilizasiyası ilə Aran Çin dövləti sivilizasiyası arasındakı bağlılığı, oxşarlığı da göstərir.

"Jenmin Jibao" yazır ki, son günlər isə "Jenminvan" xəbər agentliyinin reportyorları adı çəkilən dörd min yaşlı tapıntıları görmək üçün Sıçuan vilayətinin Quanxan şəhərinə getmiş, orada gördükləri faktlar əsasında "Onlar min illər boyu yatmışdılar, oyananda isə bütün dünyanı silkələdilər" adlı sensasiya xarakterli material hazırlamışlar. Həmin materialda qeyd olunur ki, Sıçuan vilayətindəki (Cənub Qərbi Çin) San Sin Duy dağıntıları Qədim Şu dövlətinin inkişaf səviyyəsi haqqında mükəmməl təsəvvür yaradır: "Bu dağıntıların (indi isə tapıntıların) olduğu məkan Yantsızi çayının hövzəsində həm tarixi mədəniyyət baxımından, həm də qədim paytaxtın çox böyük ərazisinin olduğuna görə ən zəngin yerdir."

"Jenminvan"ın reportyorları yazırlar ki, yeni tapıntılar qədim Şu dövlətinin müəmmalı tarixinin öyrənilməsinə və çoxsaylı sualların cavablandırılmasına möhtəşəm töhfə verəcəkdir.

***İttifaq MİRZƏBƏYLİ***

# Taxıl biçini sürətlənir



**Azərbaycanda payızlıq taxıl əkini sahələrinin 30 faizində biçin başa çatıb. Bu barədə Kənd Təsərrüfatı Nazirliyində taxıl biçininin təşkili ilə bağlı yaradılmış operativ qərargahdan mətbuata məlumat verilib.**

Xəbərə görə, bu günə qədər 303 549 hektar sahədə biçin aparılıb, sahələrdən ümumilikdə, 920 344 ton məhsul yığılıb. Hazırda taxıl üzrə orta məhsuldarlıq 30,3 sentner təşkil edir.

Ölkə üzrə arpa əkini sahələrinin 58,7 faizində, buğda sahələrinin 9,2 faizində biçin başa çatıb. Arpa üzrə orta məhsuldarlıq 29,6 sentner, buğda üzrə orta məhsuldarlıq isə 33,7 sentner təşkil edir.

Dünən biçin prosesinə 1572 kombayn cəlb olunub, bunlardan 626-sı "Aqroservis" ASC-nin, 946 kombayn isə fiziki və hüquqi şəxslərin mülkiyyətində olan kombaynlardır. Ümumilikdə, bu mövsüm kütləvi biçin prosesində 1803 kombaynın iştirak edəcəyi gözlənilir.

***Elçin ABBASOV***
***XQ***

“Xalq qəzeti” – 105

# Kommunist mətbuatında türkçülük məfkurəsini yaşatmaq cəhdləri

**Kommunist-bolşevik rejiminin Türkiyə Respublikasına maddi dəstəyi hər iki ölkənin təkcə qonşuluq siyasətindən yox, həm də dünyadakı siyasi vəziyyətdən irəli gəlirdi. Bu dönəmdə özlərinin siyasi maraqlarını önə çəkən kommunistlər Türkiyə ilə münasibətlərini yaxşılaşdırmaq üçün daha bir mühüm layihəni həyata keçirirlər: Bakıda SSRİ məkanında yaşayan türk xalqlarının tarixi, ədəbiyyatı, dili, əlifbası, etnoqrafiyası və mədəniyyəti ilə bağlı bir sıra mühüm və əhəmiyyətli qərarların qəbul edildiyi Birinci Türkoloji Qurultay (1926, 26 fevral-5 mart) çağırılır. Qurultayda latın qrafikalı əlifbaya keçidin elmi-metodik prinsipləri hazırlandı, eyni zamanda, qurultayın qərarına əsasən, 1929-cu il yanvarın 1-dən Sovet hökuməti ərəb əlifbasının istifadəsinə qadağa qoydu. Qurultayın iclaslarına Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri Səməd Ağamalıoğlu sədrlik etmiş, Rəyasət Heyətinə türkologiya sahəsində böyük xidmətləri olan alimlər, türk dünyasının tanınmış simaları seçilmişlər.**

Türkologiyanı böyük və sistemli elmi təlim kimi təqdim edən Bakı Türkoloji Qurultayı böyük əks-səda doğurmuş, haqqında mətbuatda gedən yazılar silsiləsi bu dəyəri dəfələrlə artırmışdı. Səkkiz gün davam edən bu mötəbər tədbirdə 131 nümayəndə iştirak etmişdi. Müzakirəyə çıxarılan türk xalqlarının ortaq dili, tarixi və ədəbiyyatı məsələləri bu gün də öz aktuallığını qoruyub saxlayır. Ölkənin bir nömrəli mətbuat orqanı olan “Kommunist” qəzetinin dərc etdiyi materiallar dəyərli mənbələr olmaqla, həm də qurultayın böyük tarixi əhəmiyyətini və mötəbərliyini təsdiqləyən amillərdən hesab oluna bilər.

Dövrünün məşhur siyasi və dövlət xadimləri olan SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədri Qəzənfər Musabəyovun qurultaya təbrik nitqinin, Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri Səməd Ağamalıoğlunun sədr kimi geniş məruzəsinin, Sovet Azərbaycanının partiya və dövlət xadimləri Ruhulla Axundovun, Həbib Cəbiyevin, böyük türk dünyasının və türkologiya elminin görkəmli simaları Əli bəy Hüseynzadə, Mehmet Fuad Köprülüzadə, Vasili Bartold, Hənifə Zeynallı, Bəkir Çobanzadə və onlarca bu kimi nəhənglərinin məqalə və müsahibələrinin təqdim olunduğu “Kommunist” qəzetinin o dönəmdə nəşr olunmuş nüsxələri Türkiyə–Sovet dostluğuna inam yaratdığı kimi, həm də Türkiyə ilə münasibətlərin böyük və uğurlu gələcəyini ifadə etməkdə, buna böyük inam yaratmaqda idi. Təəssüf ki, sonralar məlum oldu ki, Türkiyəni kommunist yoluna gətirmək planının mühüm bir hissəsi də bu qurultayla bağlı imiş. Tədqiqatçı alim Elmar Məhərrəmov haqlı olaraq qeyd edir ki, “Türk xalqlarına olan bu isti münasibət, canıyananlıq, sevgi nədən irəli gəlirdi? İlk öncə türk xalqlarına olan bu səmimiyyət bizə elə gəlir ki, Sovet hökumətinin daxili və xarici siyasətindən irəli gəlirdi. Bu hökumət dünyaya nümayiş etdirmək istəyirdi ki, Rus imperiyasının qurduğu dövlət azadlıq, bərabərlik, qardaşlıq simvoludur. SSRİ-nin məkrli planının iflasa uğraması isə cəmiyyəti daha böyük faciələrlə üz-üzə qoydu və repressiyaların başlanması ilə nəticələndi”. Mərhum professor Kamil Nərimanoğlunun təbirincə desək, qurultayın işində iştirak edən 100-dən artıq iştirakçının pantürkizmdə ittiham edilərək represiyaya uğraması, əksər alim və mütəfəkkirlərin həbs və fiziki məhvlə üzləşməsi yaxın tarixin ən böyük ziyalı-alim soyqırımı sənədidir, 30-cu illərin Sovet-Stalin diktatura rejiminin tarixi üçün ittihamdır.

Bütün bunlara baxmayaraq, AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Birinci Türkoloji Qurultaya həsr olunmuş məqalələrinin birində qeyd edir ki, dünya elminin, xüsusən də türk dünyasının böyük elmi hadisəsi olan Birinci Bakı Türkoloji Qurultayı həm tarix kimi, həm də müasirlik baxımından mühüm əhəmiyyətə malikdir. Azərbaycan Prezidenti İlham Əliyevin Birinci Türkoloji Qurultayın 80 illiyi ilə bağlı 9 noyabr 2005-ci il tarixli, 90 illik yubileyinin keçirilməsi haqqında 18 fevral 2016-cı il tarixli sərəncamları da qurultayın türk xalqlarının həyatında necə böyük tarixi əhəmiyyət daşıdığını bir daha təsdiq edir.

Göründüyü kimi, Birinci Bakı Türkoloji Qurultayının proqram və sənədlərini gündəmdə saxlayan mətbuat, o cümlədən “Kommunist” qəzeti əlifba islahatının həyata keçirilməsində informasiya təbliğat ruporu olmuşdur. Elmi və ədəbi-bədii təşkilatların hələ yeni formalaşdığı o illərdə “Kommunist” qəzetinin redaksiyası milli elmi-mədəni qüvvələri öz ətrafında toplayan başlıca mənəvi mərkəz idi.

Azərbaycan ikinci dəfə müstəqilliyini qazananda bəzi qüvvələrin mətbuata ciddi qınaqları, o cümlədən sovet rejimini dəstəkləmək kimi tarixi reallıqları dəyərləndirməkdən uzaq olan ciddi və haqsız iradları ortaya çıxdı. Bu sırada “Kommunist” qəzetinin adı birinci çəkilənlərdən idi. Hətta cəmiyyətdə bu kimi zərərli fikirlər yüksək tribunalardan belə eşidilməkdə idi. Amma bir sıra tədqiqat əsərlərində də vurğulandığı kimi, unudulmamalıydı ki, öz dövrü üçün birinci rəsmi partiya və dövlət qəzeti olan “Kommunist” kütlənin siyasi və mənəvi tərbiyəçisi kimi fəaliyyət göstərirdi. Bu qəzet həmişə tarixi hadisələrin mərkəzində olmuş, xalq kütlələrinə müsbət təsir göstərmiş, respublikanın gündəlik həyatında baş verən bütün məsələlərin həllində siyasi rəhbərliyin mühüm təbliğat vasitəsi olmuşdur. Bir məsələni unutmaq olmaz ki, bu qəzet orqanı olduğu rəhbər təşkilatın siyasətini yerinə yetirməyə borclu idi, onun ayırdığı maliyyə vəsaiti ilə nəşr olunurdu, amma bununla belə o, milli təəssübkeşliyini unutmamış və həmişə də bunun cəzasını çəkmişdir.

Bir sıra tədqiqatçıların da yazdığı kimi, “Kommunist” təkcə rejimin məqsəd və məramını təbliğ edən qəzet deyil, milli jurnalistikamızın avanqardı idi. O, ictimai fikri formalaşdıran, Azərbaycan dilinin və mədəniyyətinin keşiyində dayanan, tariximizi təbliğ edən, mənəviyyatımızı yad təsirlərdən qoruyan müqəddəs bir ocaq, ciddi bir mərkəz idi. Sovet rejimi dağılanda, haqlı olaraq, “Kommunist”in adı dəyişdirilərək “Xalq qəzeti” qoyuldu. Çünki bu nəşr, həqiqətən, uzun illər boyu xalqın qəzeti olmağa çalışıb. “Kommunist”lik əksər hallarda qəzetin yalnız adında olub. 1919-cu ildən üzü bəri bu qəzetdə yüzlərlə yazı dərc edilib ki, onlar bu gün də uğurlu və yaradıcılıq imkanları baxımından zəngin jurnalistka materialı kimi həm cəmiyyətə, həm də jurnalistika sahəsində çalışan müəlliflərə nümunə ola bilər. Bəzi ümdə misalların haqqında danışmaq da olar: 1922-ci il martın 2-də “Kommunist” qəzetində Azərbaycanın sərvətlərinin Rusiyaya daşınıb aparılması və əvvəllər bunun müqabilində Bakıya ərzaq adı altında boş vaqonlar gətirilməsi barədə böyük müzakirə və mübahisələrə səbəb olan bir yazı dərc edilib. “Yoxsul” imzası ilə təqdim olunan bu məqalənin müəllifi Xalq Daxili İşlər Komissarı vəzifəsində çalışan Həmid Sultanov idi. Arxiv sənədləri əsasında hazırlanan məqalədə 1912-ci ildən 1922-ci ilə qədər Azərbaycandan Rusiyaya göndərilən sərvət və məhsullar haqqında məlumatlar yer alır. Bunun əvəzində isə Rusiyadan Azərbaycana ərzaq məhsulları göndərilir, amma qapısı möhürlü olan vaqonlar çox vaxt boş olurmuş. Sovet qurluşunun “sosial ədalətinə” az qala varlığı ilə inanan müəllif yazısında ümidlə elan edirdi ki, bu kimi işlərə son qoyulacaq, sovet hakimiyyəti bu cür saxtakarlıqların qarşısını alacaqdır.

Məqalənin dərcindən heç bir gün keçməmiş – martın 3-də Azərbaycan K(b)P MK-nın Siyasi Bürosunun xüsusi iclası çağrıldı və bu iclasın qərarı ilə Həmid Sultanov tutduğu vəzifədən azad edildi. Hətta bəzi mənbələr bu məsələ ilə əlaqədar olaraq onun haqqında həbs qərarı verildiyini də yazırlar. Düzdür, bu qərar həyata keçirilməsə də, haqqında danışılan məsələnin rejim tərəfindən nə qədər diqqətlə izləndiyini təsdiqləyir. Amma yeri gəlmişkən, bir məsələni də xatırlatmağa dəyər ki, o dövrdə və elə sonralar da bolşeviklərin qərar və qadağalarını dərc edən, eyni zamanda, yüksək tribuna olan “Kommunist” sonralar, xüsusən də 80-ci illərin sonlarında milli azadlıq hərəkatının geniş vüsət aldığı dövrlərdə ciddi qınaqlarla üzləşdi. Təbii ki, sonralar zaman hər şeyi yoluna qoydu, amma yüzlərlə günahsız insanı 1930-37-ci illərdə sürgünə və represiyaya məruz qoyanların əməlləri və adları belə yaddaşlardan silinmədi. Hətta Ayna Sultanovanın adına olan park və heykəli də saxlanıldı. Yüzlərlə ziyalını sürgün və represiyaya məruz qoyan bu xanımın buna nə qədər haqqı olduğunun bir sətirlik belə bəraəti yoxdur və heç vaxt da olmayacaq. Düzdür, rejimin eybəcərliklərindən bəhrələnən “ideallar və məqsədlər” bolşeviklərə xidmət edənlərin heç birinin taleyindən yan keçmədi. Bolşeviklərə xidmət edənlərin, demək olar ki, hamısı eyni aqibəti yaşadı, Sovet hökuməti 1938-ci ildə A.Sultanovanı da, qardaşı Qəzənfər Musabəyovu və həyat yoldaşı Həmid Sultanovu da xalq düşməni kimi güllələdi. Haqq dərgahında törətdikləri əməllərinin cəzasını canları ilə ödədilər. Bu, bir təsəlli yeri olsa belə, rejimin xislət və məramından gələn acı həqiqət kimi qalmaqdadır. Amma bu heç də bəraət vermir ki, ərazisi 1,6 hektar sahəni əhatə edən və şəhərin gur bir yerində yerləşən “Lenin partiyasının sədaqətli qızı”nın adını daşıyan parkı və heykəli saxlayaq. Heykəl, təbii ki, sənətkarlıq baxımından dəyərlidir. Amma istər-istəməz sual yaranır: Cümhuriyyət qurucularından hansınınsa, yaxud doğma Bakını erməni işğalından azad edən Nuru paşanın heykəlləşdirilməsi niyə yada düşmür? Əslində, bu barədə mətbuatda dəfələrlə yazılıb və göründüyü kimi də, heç nə yaddan çıxmayıb. Biz də repressiya tariximizin bu kimi miraslarını dağıtmağın tərəfdarı deyilik və bu tarixin də başqa bir şəkildə, deyək ki, “Qənimətlər parkı” kimi bir ərazidə nümayişini istərdik. Nə qədər acı və faciələrlə dolu olsa belə, bu, xalqımızın tarixidir.



“Kommunist” qəzetinin milli təmayülünü Sergey Kirov, Levon Mirzoyan kimi yad və düşmən simaların, çox ziddiyyətli bir şəxs olan Əliheydər Qarayev kimi milli hisslərdən məhrum yerli rəhbər kadrların fikir və mülahizələri əsasında Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi daim nəzarət altında saxlamış, yeri gəldikcə müəlliflər “millətçilik”, “türkçülük” adı ilə təqib edilmişlər. Çoxsaylı faktlar var ki, “Kommunist” qəzetindəki “millətçilik yuvası”nı dağıtmaq üçün dəfələrlə çox yüksək səviyyədə ciddi tədbirlər həyata keçirilmiş və redaktorlar vəzifələrindən uzaqlaşdırılmışdır.

1924-cü ilin 18 aprelində Mərkəzi Komitənin ikinci katibi, 27 yaşlı gənc vətənpərvər Əyyub Xanbudaqov “Kommunist” qəzetində “Milli məsələyə dair” məqalə ilə çıxış edərək partiyanın milli siyasətinin yerinə yetirilməməsini ciddi tənqid edir, milli kadrların hazırlanmasının qarşısının alındığını, yerli kadrların vəzifəyə təyinatında ayrı-seçkiliyə yol verildiyini bildirir. Məqalə aprelin 27-də Bakı Partiya Komitəsinin konfransında müzakirə edilir. Xanbudaqov cəzalandırılır və Əliheydər Qarayevə tapşırılır ki, “Kommunist” qəzetində kök salmış millətçilər, sovet hakimiyyətinin düşmənləri aşkar edilərək ifşa olunsunlar. Nəticədə qəzetin redaksiyasında çalışan milli ruhlu, türkçülük ideyalarının təbliğatçısı olan görkəmli ziyalılar – Əbdürrəhim bəy Haqverdiyev, Ağababa Yusifzadə, Cəfər Cabbarlı, Mir Seyfəddin Kirmanşahlı Əliheydər Qarayevin təkidi ilə xırda burjuaziyanın əlaltısı adlandırılır, bir qismi işdən qovulur, bir qismini isə ciddi tənbehlərə məruz qalırlar. Bu kimi faktların sayı isə yetərincədir.

Yeri gəlmişkən, qeyd edilməlidir ki, dövrün mətbuat orqanlarını, eləcə də 20-ci illərin “Kommunist” qəzetini vərəqlədikcə çox aydın bir şəkildə görünür ki, qəzet əlifba islahatının həyata keçirilməsində, Şərq Xalqları və Türkoloji qurultayların keçirilməsində informasiya-təbliğat ruporu olmuşdur. Qəzet, eyni zamanda, milli jurnalist kadrları yetişdirən, yönləndirən yaradıcılıq məktəb kimi də fəaliyyətini davam etdirmişdir. 1920-ci ilin əvvəllərində “Kommunist” qəzetinin nəzdində təşkil olunmuş dərnək və respublika miqyaslı 3 aylıq kurslarda dinləyicilərə publisistika, qəzet informasiyası, kütlə ilə ünsiyyət formaları, qəzet təsərrüfatı, qəzetin səhifələnmə texnikası, stenoqrafiya və s. haqqında təlimlər keçilirdi. Bu kursların mühazirəçiləri arasında Üzeyir bəy Hacıbəyov, Əbdürrəhim bəy Haqverdiyev, Əli Terequlov, Ağababa Yusifzadə, Mahmud bəy Mahmudbəyov, Xəlil İbrahim, ər-arvad Nuşirəvanovlar və başqaları kimi tanınmış jurnalistlər və yazıçılar var idi. Maraqlı faktdır ki, Azərbaycan ədəbiyyatının məşhur simalarından olan yazıçı və ədəbiyyatşünas Mir Cəlal Paşayev (Paşazadə Cəlal) də bu kursların dinləyicilərindən olmuş və sonralar “Kommunist” qəzetində işləmişdir. Ümumiyyətlə, uzun illər boyu “Kommunist” qəzeti respublikanın ən yaxşı jurnalistlərinin qüvvəsi, təəssübkeş ziyalıların fəal iştirakı ilə nəşr edilib. Onun peşəkarlıq səviyyəsi sahə və bölgələrin dövri nəşrləri üçün örnək kimi qəbul olunub. Qəzetin həyatındakı bir sıra yeniliklər, milli mətbuatımızın ümumi tarixinə önəmli fakt və hadisələr kimi daxildir.

Dövrün mətbuat orqanlarında, o cümlədən, “Kommunist” qəzetində dərc edilən çoxsaylı məqalələrdə milli dünyagörüşün qorunması, milli varlığa bağlılıq, mətbuatın milli-xəlqi istiqamətinin qorunub saxlanması kimi ciddi cəhdlər açıq-aydın özünü büruzə vermişdir. Eyni zamanda, rejimin dayaqlarının daha da möhkəmlənən təməllər üzərində inkişafı, təbii ki, ciddi ideoloji qarşıdurmalara əsas yaradır və cəmiyyəti represiyaya doğru aparmaqda idi.

İndiki dövrdə Azərbaycan sovet mətbuatının cəmiyyət qarşısında xidmətlərini “rejimin xidmətçisi və təbliğatçısı” adlandırmamaq mümkün olmadığı kimi, onu tam şəkildə bu cür təqdim etmək də haqsızlıq olardı. Bu baxımdan, uzun illər boyu Azərbaycan KP MK-nın, Azərbaycan SSR Ali Sovetinin və Nazirlər Sovetinin orqanı kimi nəşr edilmiş “Kommunist” təkcə “rejimin xidmətçisi” yox, həm də xalqımızın uğurlarla, hədsiz çətinliklər və faciələrlə müşayiət edilən həyat yolunun əks olunduğu tarixi güzgü olmuşdur. Ona görə də cəsarətlə deyə bilərik ki, həmin dövrdə mətbuat rəsmi dövlət siyasətinin "marksist-leninçi" ideyalarının təbliği, sosialist quruculari olan yeni insanların formalaşması üçün güclü partiya silahı olsa da, əsrlər boyu Azərbaycan xalqını bir xalq kimi qoruyan, onun dövlətçilik və türkçülük ənənələrini yaşadan mədəniyyətimiz, ədəbiyyatımız, incəsənətimiz, musiqimiz və digər dəyərlərimizlə yanaşı, milli mətbuatımız da olub və onun xidmətləri heç vaxt danılmayan mənbələr sırasındadır.

***Namiq QƏDİMOĞLU***
***XQ***

## Paytaxtda təmizlik aksiyası





**Ölkə paytaxtının sanitar-təmizliyik səviyyəsinin daha da yüksəldilməsi məqsədilə Bakı Şəhər İcra Hakimiyyəti şənbə günü növbəti geniş ümumşəhər iməciliyi keçirib.**

Kommunal təsərrüfat xidmətlərinin texnikası səhər saatlarından əsas küçə və prospektlərinə ziyansız yuyucu maddələrsəpib. İməcilik zamanı həm də məhəllədaxili və ara yollar da bu üsulla yuyulub. Xidmətin əməkdaşları həyət və yaşayış məhəllələrində təmizlik işləri aparıblar. İctimai iaşə, ticarət və digər obyektlərin əməkdaşları da iməcilikdə yaxından iştirak edərək səki və vitrinləri təmizləyib, ətrafda səliqə-sahman yaradıblar.

Şəhərin müəssisə, idarə və təşkilat kollektivləri də təmizlik aksiyasında fəal iştirak ediblər. Sakinlər isə yaşadıqları mənzillərin pəncərələrini, binaların həyətini təmizləyiblər.



Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliynini əməkdaşları magistral yol və prospektlərin kənarlarındakı ağaclara qulluq göstəriblər.

***XQ***

## Borçalıda COP29 maarifləndirməsi

**Gürcüstanın Marneuli şəhərində “GES Youth Energy+” proqramı çərçivəsində “Yaşıl Dünya Naminə Həmrəylik İli”nə həsr olunmuş növbəti görüş keçirilib.**

“İnkişaf və Təhsil Mərkəzi”nin təşkil etdiyi toplantıda sağlam həyat tərzi, təmiz ekologiya, yaşıl dünya, yaşıl enerji və s. məsələlər diqqət mərkəzində olub. Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçiriləcək 29-cu sessiyasına hazırlıqla bağlı apardığı işlər barədə soydaşlarımıza ətraflı məlumat verilib. Vurğulanıb ki, Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi etmək sahəsində zəngin təcrübəsi var.

İştirakçılar qlobal istiləşmə dən bəhs edən sənədli filmi izləyiblər. Layihənin məqsədi gənclərin elmi dünyagörüşlərini artırmaq və ekoloji savadlılığına dəstək olmaqdır.

***XQ***

# Azərbaycan Şimal–Cənub Nəqliyyat Dəhlizinin önəmli həlqəsidir

## *Bu infrastrukturla 2030-cu ilə qədər 30 milyon ton tranzit yüklərin daşınması nəzərdə tutulub*

**(əvvəli 1-ci səhifədə)**

Rusiya mətbuatının bildirdiyinə görə, hazırda Yaraq-Kazmalyar keçid məntəqəsində bütün proseslər "bir pəncərə" prinsipi ilə gerçəkləşdirilir. Belə ki, sözügedən keçid məntəqəsində sənədlər təqdim edildikdən sonra 30-40 dəqiqə ərzində hazırlanaraq sürücülərə verilir.

Rusiya hökumətinin fikrincə, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi Süveyş kanalına alternativ ola və bu, həm Avropaya, həm də Rusiyadan Fars körfəzinə tranzit nəqli üçün birbaşa marşruta imkan yarada bilər. Dəhlizin ən mühüm quru hissəsi Rusiya Federasiyası, Azərbaycan və İran ərazisindən keçir. Hazırda dəhlizlə daşımaların əsas hissəsi yük maşınlarından istifadə etməklə gerçəkləşdirilir.

Yeri gəlmişkən, burada mövzu ilə bağlı bir informasiyanı da xatırlatmaq istərdik. Rusiya Prezidentinin müşaviri İqor Levitin bu yaxınlarda Beynəlxalq Sibir Nəqliyyat Forumunun videobağlantı vasitəsilə keçirilən plenar iclasında Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsində 13 ölkənin iştirak edəcəyini bildirib. "Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsində iştirak edən bütün ölkələrlə – onların sayı 13-dür – razılaşma əldə edilib, onların hamısı iştirakını təsdiqləyib", – deyə Rusiya Prezidentinin müşaviri vurğulayıb.

İ.Levitin əlavə edib ki, hazırda Şimal Dəniz Yollarına (ŞDY) çıxışın inkişafına təcili ehtiyac var. Çünki Uralda və Sibirdə dəmir yolu xətlərinin tikintisi layihəsini həyata keçirmək lazımdır. Yalnız belə halda Transsibir magistralında sıxlıq aradan qaldırıla və Asiya ölkələrinə yükdaşımaları artırıla bilər.

Yuxarıda qeyd etdiyimiz kimi, sözügedən dəhlizə Süveyş kanalına alternativ kimi yanaşılır. Dəhlizin ən mühüm quru hissəsi Rusiya, Azərbaycan və İrandan keçir. Hazırda dəhlizboyu daşımaların əsas hissəsi yük maşınlarından istifadə etməklə reallaşdırılır.

Rusiyanın Xarici İşlər Nazirliyinin MDB ölkələri Departamentinin direktor müavini Mixail Kaluqin Bakıda keçirilən Rusiya–Azərbaycan Ekspert Şurasının V iclasında Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizini bütün regionun flaqman layihəsi kimi dəyərləndirib. M.Kaluqin qeyd edib ki, bu layihənin həyata keçirilməsi Rusiya ilə Azərbaycan arasında münasibətlərə də müsbət təsir göstərir: "Bu dəhliz bir neçə onillikdir ki, inkişaf edir. Lakin son iki ildə sözügedən infrastrukturun Rusiyadan Azərbaycana, buradan isə İrana qədər uzanan güclü qərb qolunun yaradılması da daxil olmaqla aktiv icra mərhələsi həyata keçirilir".

Rusiyanın Xarici İşlər Nazirliyinin nümayəndəsi, həmçinin vurğulayıb ki, indiyədək bu layihədə iştirak edən tərəflərlə fəal dialoq aparılıb. Layihənin icrası ilə bağlı artıq yol xəritəsi də razılaşdırılıb. Bu zaman əsas diqqət mövcud yolların modernləşdirilməsinə və yenilərinin tikintisinə yönəldilib.



Bu məqamda xatırladaq ki, İranda Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin bir hissəsi olan, Xəzər dənizinin cənub sahilində yerləşən Gilan vilayətində Rəşt-Xəzər dəmir yolu xətti istifadəyə verilib. 37 kilometr uzunluğunda olan bu dəmir yolu infrastrukturunun işə salınması ilə qonşu ölkənin cənub və şimal limanları birləşdirilib və Xəzər dənizi ilə Fars və Oman körfəzləri arasında birləşdirici halqa yaradılıb.

Yeri gəlmişkən, Rəşt şəhərindən Xəzər limanına qədər olan hissə Rəşt–Astara dəmir yolu tikintisinin ilkin mərhələsidir. Gələcəkdə isə Xəzər limanından artıq İranın şimal-qərbində Astara şəhərinə qədər olan yolların növbəti hissəsinin inşası planlaşdırılır.

Respublikamızda da Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafına xüsusi diqqət yetirilir. "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmovun jurnalistlərə açıqlamasında Bakı–Astara dəmir yolu istiqamətində xüsusi plan üzə 2025-ci ildən layihələndirmə və tikinti işlərinə başlanılacağı bildirilir. Açıqlamada qeyd edilir ki, dəmir yolu infrastrukturunun müasirləşdirilməsi xüsusi proqram üzə həyata keçirilir.

R. Rüstəmovun sözlərinə görə, hazırda Bakı–Yalama istiqamətində yollar yenidən qurulur. Bu yolun yenidən qurulması Asiya İnkişaf Bankının ölkəmizə ayırdığı 400 milyon ABŞ dolları məbləğində kredit hesabına maliyyələşdirilir. Növbəti ilin birinci yarısında işlərin sona çatdırılması planlaşdırılır.

Xatırladaq ki, Prezident İlham Əliyevin təsdiqlədiyi Azərbaycan ərazisindən keçən beynəlxalq dəhlizlərlə bağlı Fəaliyyət Planına əsasən, 2024-2026-cı illərdə Ələt−Osmanlı−Astara dəmir yolunun yenidən qurulması planlaşdırılıb. Həmçinin bununla bağlı 2026-cı ildə Biləcəri stansiyasının çeşidləmə parkında 3-cü dəstənin dartı yollarının və yoldəyişənlərin əsaslı təmiri nəzərdə tutulub.

### Ekspert rəyi



**Məhəmməd ƏLİYEV,**
**Azərbaycan Dövlət İqtisad Universiteti biznes və logistika kafedrasının müdiri, dosent**

Azərbaycanda son illər nəqliyyat sektorunda bu sahənin dayanıqlılıq, etibarlılıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsi standartlarına uyğunluğu baxımından konkret və sistemli layihələr reallaşdırılıb. Sözügedən istiqamətdə aparılan dövlət siyasəti ölkəmizin sosial-iqtisadi inkişafına, əhalinin rifahının yüksəlməsinə, dövlətimizin iqtisadi qüdrətinin artmasına yönələn tədbirləri əhatə edib. Həyata keçirilən siyasət institusional islahatlar yolu ilə idarəetmənin təkmilləşdirilməsi, nəqliyyat əməliyyatlarında informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə və dövlət tənzimləmə mexanizmlərinin tətbiqi yolu ilə sağlam rəqabət mühitinin formalaşması məqsədi daşıyıb.

Bu istiqamətdə görülən tədbirlərin nəticəsidir ki, son illər ərzində nəqliyyat sektorunda orta illik artım tempi artıb, yeni infrastruktur qurulub, özəl investisiyalar çoxalıb. Ölkə regional əhəmiyyətli nəqliyyat-logistika və ticarət qovşağına çevrilib və əsas ticarət marşrutlarından bəhrələnməyin əsası qoyulub. Bunun bariz nümunəsi olaraq, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi kimi iri nəqliyyat infrastrukturunun reallaşdırılması istiqamətində nəhəng dəhliz layihəsi gerçəkləşdirilib.

Azərbaycanın tərəfdaşları tərəfindən ötən müddətdə bu nəqliyyat dəhlizindən səmərəli istifadə edilib. Pandemiya dövründə bütövlükdə bütün dünyada iqtisadiyyatın tənəzzülə uğramasına baxmayaraq, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə daşınan yüklərin həcmi təxminən 20 faiz yüksəlib.

Ölkəmizin ərazisindən keçən Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi yükdaşımalar üçün məsafə və müddət baxımından olduqca əlverişlidir. Bakı–Tbilisi–Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Azərbaycanın Xəzər dənizində ən böyük ticarət donanması, müasir gəmiqayırma zavodu, müasir standartlara cavab verən avtomobil yolları həmin nəqliyyat dəhlizlərinin imkanlarını daha da genişləndirir. Bu imkanlar fonunda tranzit yüklərin həcmi də getdikcə əhəmiyyətli dərəcədə artır.

Yeri gəlmişkən, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşması tarixinə nəzər salmaq istərdim. 2000-ci il sentyabrın 12-də Rusiya, İran və Hindistan arasında imzalanan hökumətlərarası saziş əsasında adıçəkilən nəqliyyat dəhlizinin təməli qoyulub. Azərbaycan bu sazişə 2005-ci ildə qoşulub. Ümumilikdə, 13 ölkə (Azərbaycan, Türkiyə, Ukrayna, Belarus, Bolqarıstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Ermənistan respublikaları, Rusiya Federasiyası, Hindistan, İran İslam Respublikası, Oman Sultanlığı) tərəfindən sözügedən sənəd ratifikasiya edilib.

Xatırladaq ki, Şimal-Cənub Nəqliyyat Dəhlizi Hindistan və İran Körfəzi regionundan yüklərin Rusiya, Qərbi Avropa, Baltikyanı və Skandinaviya ölkələrinə çatdırılmasına hesablanıb. Bu dəhlizin digər marşrutlarla müqayisədə əsas üstünlüyü tranzit məsafəsinin və vaxtının iki-üç dəfə az olmasıdır. Əgər dəniz yolu ilə daşıma İran körfəzi və Hind Okeanı, Süveyş kanalı, Aralıq və Baltik dənizlərindən keçərək Helsinki şəhərinə 45-60 gün ərzində reallaşdırılırsa, Şimal-Cənub Tranzit Dəhlizi ilə bu müddət 20-25 gün təşkil edir.

# Torpaq güclü olanda...

**Hazırda Azərbaycanın torpaq ehtiyat fondu 8,6 milyon hektar təşkil edir ki, bunun da 4,8 milyon hektarı kənd təsərrüfatına yararlı torpaqlardır. Müşahidələr göstərir ki, ötən müddətdə kənd təsərrüfatı təyinatlı torpaqların təyinatının dəyişdirilməsi ilə bağlı çoxsaylı qanun pozuntularına yol verilib. İndən belə, bu sahədə ciddi nəzarət mexanizmi tətbiq olunacaq, kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadə qanunla tənzimlənəcək.**

Ölkəmizdə kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadənin səmərəliliyini yüksəltmək üçün kənd təsərrüfatı yerlərinin məqsədli təyinatının dəyişdirilməsinin çevik mexanizminin yaradılması, eləcə də kənd təsərrüfatı təyinatlı torpaqlarda tikililərin inşasının (quraşdırılmasının) tənzimlənməsi nəzərdə tutulur. Bu məsələ Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layhəsində öz əksini tapıb. Xatırladaq ki, sənəd ölkə Prezidentinin "Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında" 15 iyul 2021-ci il tarixli fərmanı çərçivəsində hazırlanıb.

Təklif olunan dəyişikliyə əsasən, torpaq sahələrinin mülkiyyətçiləri (onların razılığı ilə istifadəçiləri və icarəçiləri) yay və qış otlaqları, örüş və biçənək sahələri istisna edilməklə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı məqsədilə kənd təsərrüfatı yerlərinin məqsədli təyinatını dəyişdirmək imkanı əldə edəcəklər. Həmçinin onların müraciəti əsasında bu barədə məlumatların daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının aparılması təmin ediləcək. Kənd təsərrüfatı təyinatlı torpaqların kateqoriyası daxilində (kateqoriyası gözlənilməklə) onların məqsədli təyinatının dəyişdirilməsi istehsalçıların mülkiyyətlərində (istifadəsində) olan belə torpaqlardan istifadənin səmərəliliyini yüksəldəcək, bu sahədə daha çevik mexanizmin yaradılması təmin ediləcək, həmçinin reyestrdə qeydiyyatın aparılması ilə aidiyyəti orqanların əkinlər (əkin altında olan torpaqların təyinatı) barədə məlumatlılıq səviyyəsi yüksəldiləcək.

Artıq ölkəmizdə kənd təsərrüfatı yerlərinin məqsədli təyinatının dəyişdirilməsinin çevik mexanizminin yaradılması üçün hüquqi baza formalaşdırılıb. Bu məsələ Milli Məclisin iyunun 21-də keçirilmiş iclasında müzakirəyə çıxarılmış Torpaq Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb. Müzakirələr zamanı diqqətə çatdırılıb ki, hazırda kənd təsərrüfatı yerlərindən birindən digərinə dəyişiklik etmək mürəkkəb bir mexanizmə tabe olduğundan mülkiyyətçilərin təsərrüfat fəaliyyətində tətbiqi çətinlik yaradırdı. Təklif olunan tənzimləmə torpaq istifadəçiləri üçün bu mexanizmi daha dəqiq tənzimləyir, torpaq balansının dürüst məlumatlara sahib olmasını təmin etmək üçün isə bu barədə məlumatların daşınmaz əmlakın dövlət reyestrinə daxil edilməsi şərtini müəyyən edir.



Layihəyə əsasən, yay və qış otlaqları, örüş və biçənək sahələri istisna edilməklə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı məqsədilə kənd təsərrüfatı yerlərinin məqsədli təyinatının dəyişdirilməsi torpaq sahələrinin mülkiyyətçiləri (onların razılığı ilə istifadəçiləri və icarəçiləri) tərəfindən həyata keçiriləcək. Belə ki, təklif olunan dəyişikliyə əsasən, torpaq sahələrinin mülkiyyətçiləri (onların razılığı ilə istifadəçiləri və icarəçiləri) yay və qış otlaqları, örüş və biçənək sahələri istisna edilməklə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı məqsədilə kənd təsərrüfatı yerlərinin məqsədli təyinatını dəyişdirmək imkanı əldə edəcəklər. Həmçinin onların müraciəti əsasında bu barədə məlumatların daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının aparılması təmin ediləcək.

Torpaq Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən, kənd təsərrüfatı təyinatlı torpaqlarda tikililərin inşası yeni qaydada tənzimlənəcək. Belə ki, kənd təsərrüfatı təyinatlı torpaqlarda əsaslı tikililərin və qurğuların, habelə işçilərin (personalın) müvəqqəti yaşaması məqsədləri üçün yaşayış təyinatlı tikililərin inşa edilməsi və quraşdırılması bu Məcəlləyə təklif edilən yeni –13-1-ci maddəyə uyğun olaraq həyata keçiriləcək. Sözügedən maddəyə (kənd təsərrüfatı təyinatlı torpaqlarda tikililər) əsasən, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üçün nəzərdə tutulmuş, habelə işçilərin (personalın) müvəqqəti yaşaması məqsədləri üçün yaşayış təyinatlı əsaslı tikililər sahəsi 5 hektardan az olmayan və vahid sərhəd daxilində yerləşən kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin (yay və qış otlaqları, ümumi istifadədə örüş sahələri istisna olmaqla) 1 faizindən artıq olmayan hissəsində inşa edilə və quraşdırıla bilər. Həmin tikililərin inşa edilməsinə və quraşdırılmasına torpaq sahəsinin mülkiyyətçisinin (onun yazılı razılığı ilə istifadəçisinin və ya icarəçisinin) müraciəti əsasında Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq icazə veriləcək. Bu məqsədlər üçün torpaq sahəsinin kateqoriyasının və məqsədli təyinatının dəyişdirilməsi tələb olunmayacaq.

Kənd təsərrüfatı təyinatlı torpaq sahəsində layihələndirilən obyektin tikinti layihəsində həmin obyektin inşası üçün müəyyən olunan faiz nisbəti nəzərə alınmaqla torpaq sahəsinin tələb olunan hissəsinin sərhədləri ayrıca göstəriləcək. Kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin tikinti əmsalına cəlb edilməsi və həmin əmsalın tətbiq olunduğu torpaq sahəsi barədə məlumatlar daşınmaz əmlakın dövlət reyestrində və dövlət torpaq kadastrında saxlanılan məlumatlara əlavə edilməsi üçün tikintiyə və istismara icazə verən orqan (qurum) tərəfindən daşınmaz əmlakın dövlət reyestrinə ötürüləcək. Yeri gəlmişkən, inşasına yol verilən tikinti obyektlərinin kənd təsərrüfatı məhsullarının istehsalı və emalı məqsədləri üçün istifadəsi halları istisna olmaqla torpaq sahəsinin kateqoriyası dəyişdirilmədən digər məqsədlər üçün istifadəsinə və istismar təyinatının dəyişdirilməsinə yol verilməyəcək.

Bütövlükdə, Torpaq Məcəlləsinə təklif edilən dəyişiklik kənd təsərrüfatı istehsalçılarının və emalçılarının müvafiq maliyyə resurslarına asan çıxışının təmin edilməsinə, infrastrukturun və aqrar biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində işlərin sürətləndirilməsinə, kənd təsərrüfatının iqtisadiyyatın mühüm sahələrindən birinə çevrilməsinə, sözügedən sahənin davamlı inkişafına, dövlət xidmətlərinin optimallaşdırılmasına və səmərəli idarəetmə sisteminin qurulmasına, aqrar sahədə keyfiyyət dəyişikliyinə və emal sənayesinin inkişafına, eləcə də kənd yerlərində əhalinin məşğulluq imkanlarının artırılmasına şərait yaradacaq.

# Günəş enerjisi 8 dəfə çoxalıb

**Cari ilin ötən 5 ayı ərzində respublikada elektrik enerjisinin istehsalı 11 milyard 231 milyon kilovat-saat olub. Energetika Nazirliyindən qəzetimizə bildirilib ki, bu dövrdə elektrik enerjisi istehsalı istilik elektrik stansiyalarında (İES) 9 milyard 686 milyon kilovat-saat, su elektrik stansiyalarında (SES) keçən ilin müvafiq dövrünə nisbətən 525 milyon kilovat-saat artımla 1 milyard 197 milyon kilovat-saat, digər mənbələr üzrə isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 189 milyon kilovat-saat artımla 348 milyon kilovat-saat təşkil edib.**



Hesabat dövründə külək elektrik stansiyalarında 26,3 milyon kilovat-saat, Günəş elektrik stansiyalarında ötən ilin müvafiq dövrünə nisbətən 181 milyon kilovat-saat və ya 8 dəfə artımla 206,5 milyon kilovat-saat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 115,7 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib.

Yanvar-may aylarında elektrik enerjisinin istehsalı "Azərenerji" ASC üzrə 9 milyard 901 milyon kilovat-saat (İES-lərdə 8 milyard 789 milyon kilovat-saat, SES-lərdə 1 milyard 111 milyon kilovat-saat), Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti üzrə 177 milyon kilovat-saat (İES-lərdə 73 milyon kilovat-saat, SES-lərdə 79 milyon kilovat-saat, Günəş ES-də 24 milyon kilovat-saat), "Azərişıq" ASC üzrə külək elektrik stansiyalarında 19 milyon kilovat-saat, müstəqil elektrik stansiyaları üzrə isə 1 milyard 134 milyon kilovat-saat təşkil edib.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# “Qərbi Azərbaycana qayıdış” qədim tarix və yurd sevgisindən güc alır

## Naxçıvanda keçirilən festival-konqres isə bu hərəkata geniş ictimai dəstək qazandırır

**Xəbər verdiyimiz kimi, Naxçıvanda keçirilən builki “Qərbi Azərbaycana qayıdış” festival-konqresi iyunun 21-də Zəngəzur Milli Parkının Qərbi Azərbaycanın qonşuluğunda yerləşən Batabat yaylağında təntənəli açılış və qədim el törənlərini xatırladan etnoqrafik festivalla start götürmüşdü.**



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin, Naxçıvan Dövlət Universitetinin və Qərbi Azərbaycan İcmasının birgə təşkil etdiyi geniş elmi-mədəni aksiya dünən elmi sessiyalarla, kitab təqdimatı, Ordubad rayonunda qaçqınlarla görüş və çoxsaylı iştirakçıların Zəngəzur dəhlizinə doğru rəmzi yürüşü ilə davam etdi.

Naxçıvan Dövlət Universitetinin iclas salonlarında təşkil edilən panel elmi sessiyalarda “Qərbi Azərbaycan: tarix, həqiqətlər və faktlar”, “Qərbi Azərbaycanın 11 tarixi mahalının ən qədim zamanlardan türk yurdu olması, bu torpaqlarda babalarımızın zəngin mədəni irs yaratması, imperialist dairələrin xəyanətkar himayədarlığı ilə vətənsiz hay toplumlarının bu ərazilərdə yerləşdirilməsi və onlara oyuncaq dövlət qurulması, erməni millətçilərinin soydaşlarımıza qarşı törətdikləri soyqırımı və deportasiyaların faciəli nəticələri təkzibedilməz elmi dəlillərlə bir daha gündəmə gətirildi.

Yekun olaraq bildirildi ki, zaman-zaman Qərbi Azərbaycandan qovulmuş 4 milyon türk əhalinin varislərinin əzəli in-



nın mədəni sərvətləri”, “Qərbi Azərbaycan: dil faktları və toponimika”, “Qərbi Azərbaycan ədəbiyyatı və folkloru”, “Qərbi Azərbaycanda elm və təhsil”, “Qərbi Azərbaycana qayıdışın hüquqi aspektləri”, “Qərbi Azərbaycanın təbii sərvətləri”, “Qərbi Azərbaycanın mədəni sərvətləri” mövzularında məruzələr dinlənildi.

Mövzu təqdimatlarında və müzakirələrdə Qərbi Azərbaycanın 11 tarixi

sanlıq haqqı olan qayıdıb doğma torpaqlarında yaşaması bu gün qarşısıalınmaz bir hərəkat halına gəlib. Zəngin mədəni irsin sahiblərinin pozulmaz qan yaddaşı və misilsiz yurd sevgisi Qərbi Azərbaycana qayıdış hərəkatını irəli aparan güclü lokomotivdir.

***

Həmin gün festival-konqresin bir qrup iştirakçısının Ordubad rayonunda məskunlaşmış Qərbi azərbaycandan qaçqın soydaşımızla görüşü oldu.

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev soydaşlarımıza Naxçıvanda ikinci dəfə keçirilən aksiyanın məramı barədə məlumat verdi, qayıdış hərəkatının uğurla nəticələnəcəyinə xalqımızın inamını ifadə etdi. Görüşdə ölkə Prezidenti İlham Əliyevin Qərbi Azərbaycana qayıdış hərəkatını himayə etməsi məmnunluqla vurğulandı, festi-



val-konqresin də bu mərama dəstək olduğu qeyd edildi.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Rəhimli, Qərbi Azərbaycan İcmasının rəhbəri Əziz Ələkbərli, AMEA Naxçıvan bölməsinin sədri, akademik İsmayıl Hacıyev, dövlət rəsmiləri, deputatlar, elm adamları, qaçqın soydaşlarımızla səmimi söhbət edilər, onların doğma yurda qayıtmaq istəyinin gerçəkləşməsi üçün xalqımızın birlik və mübarizliyinin başlıca silah olduğunu söylədilər.

Görüş iştirakçıları Naxçıvanı ölkənin əsas hissəsindən ayıran Zəngəzur dəhlizinin başlanğıcı olan Kotam kəndi ərazisində Salamməlik dəmiryol stansiyasında rəmzi yürüş keçirdilər, xatirə şəkli çəkdirdilər.

***

Festival-konqres çərçivəsində Qərbi Azərbaycanla bağlı tarixi həqiqətlərin geniş ictimaiyyətə çatdırılması məqsədilə Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında ali məktəbin rektoru Elbrus İsayevin “Qərbi Azərbaycana qayıdış festival-konqresinin materialları” və “Qərbi Azərbaycana Qayıdış Konsepsiyası: Sülh və Ədalət” kitablarının təqdimatı da keçirildi.

Elbrus İsayev bildirdi ki, festival-konqresdə bu kitabların təqdimatı xüsusi önəm daşıyır. Ölkəmizin ziyalılarının, qabaqcıl alimlərinin məruzələri, məqalələri bu kitabda yer alıb. Türkiyənin Hacəttəpə, Qazi, Ankara, Qars, İğdır univeristetlərinin rektorlarının da Qərbi Azərbaycan mövzusuna həsr olunmuş çıxışları bu topluya əlavə olunub. 620 səhifəlik bu nəşr Qərbi Azərbaycanı öyrənmək istəyən hər kəs üçün dəyərli mənbədir. Hər il keçiriləcək festival-konqresdə ötən aksiyanın materialları kitab şəklində iştirakçı və məruzəçilərə təqdim ediləcək.

Təqdimatda Qərbi Azərbaycan İcmasının İdarə heyətinin sədri Əziz Ələkbərli,



ADPU-nun prorektoru, professor Mahirə Hüseynova, Əməkdar elm xadimi Fərrux Rüstəmov yeni nəşrlərin Qərbi Azərbaycana qayıdış hərəkatına elmi töhfə olduğunu söylədilər.

Festival-konqres iştirakçıları ”Xalq qəzeti” üçün qısa açıqlamalarında təəssüratlarını belə ifadə etdilər:

**Alı Alıyev, Qərbi Azərbaycanın Dərələyəz mahalının “İstisu” İcmasının sədri:**

– Naxçıvanda keçirilən “Qərbi Azərbaycana qayıdış” festival-konqresi möhtəşəm tədbirdir və burada keçirdiyimiz hissləri sözlə ifadə etmək çətindir. Festivalın birinci günü Batabat yaylağında olduq, Qərbi Azərbaycanın 11 mahalına məxsus çadırlar qurulmuşdu. Burada təşkil olunan folklor və etnoqrafik, eləcə də, milli mətbəx nümunələrimiz tədbirə məxsusi bir gözəllik və dəyər qatırdı. Xüsusilə burada Qərbi Azərbaycana məxsus toy mərasiminin təşkil olunması, müxtəlif folklor nümunələrinn təqdimatı yaddaşımızda böyük izlər buraxdı.

Naxçıvan Dövlət Universitetində keçirilən panel iclasında da bu bölgəmizə aid folklor nümunələrindən danışdıq. Hamımız bilirik ki, folklor xalqımızın yaddaşıdır. Babalarımızın, nənələrimizin söylədikləri hər şey folklorumuzda öz əksini tapır. Bütün bunlar onu göstərir ki, Qərbi Azərbaycan hər birimizin qəlbində yaşayır və Qarabağa qayıdışımız kimi, inşallah Qərbi Azərbaycana qaydışımız da baş tutacaq.

**Əpoş Vəliyev, AMEA Folklor İnstitutunun folklor şöbəsinin elmi işçisi:**

– Naxçıvanda Qərbi Azərbaycan festival-konqresinin keçirilməsi mühüm hadisədir. Naxçıvan həm də Şərqin qapısıdır. Buradan baxanda biz artıq Qərbi Azərbaycan mahallarını görürük. Bu gün qarşımıza qoyduğumuz məqsəd sülh yolu ilə torpaqlarımıza qayıdışdır. Bütün Qərbi azərbaycanlıların da ən böyük arzusu doğma ata-baba yurdlarına qayıtmaqdır. Buna görə də bu gün Azərbaycanımızın qədim diyarı olan Naxçıvanda bir çox tanınmış insanlarımızın, o cümlədən elm adamlarımızın belə bir möhtəşəm konfrasda iştirak etməsi həmvətənlərimizin yurd yerlərinə qayıtmaq inamını daha da gücləndirir.

Prezident İlham Əliyevin dediyi kimi, əminik ki, sülh şəraitində, öz avtomobillərimizlə ata-baba ocağımız olan yurd yerlərimizə qayıdacağıq, oradakı məzarları, tarixi abidələrimizi ziyarət edəcəyik. Festival-konqresin təşkili üçün muxtar respublika rəhbərliyinə, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcması rəhbərliyinə təşəkkür edirik.

Bu gün “Qərbi Azərbaycana qayıdış” festival-konqresi mədəni-kütləvi tədbirlərlə davam edəcək, mükafatlandırma və bağlanış mərasimi olacaq.

***Tahir AYDINOĞLU,***
***Səbuhi HƏSƏNOV***
***XQ***

**Naxçıvan**

# Novosaratovkaya kəm-kəsir yaraşmır...

## Söhbət Gədəbəyin səfalı bir guşəsindən gedir

**Gədəbəyin ən ucqar kəndinə də çox rahat gedib çıxmaq mümkündür. Çünki son illər bu dağ rayonunda bir-birindən gözəl o qədər yollar çəkilib ki, saymaqla qurtaran deyil. Haqqında söhbət açacağımız Novosaratovka kəndinə də təxminən on il qabaq çəkilmiş yolla gəlib çıxırıq. Özü də bu yoldan təkcə Novosaratovka deyil, 59 min nəfər əhalinin yaşadığı 87 yaşayış məntəqəsi istifadə edir.**



Kəndin tarixini çoxları bilir. Ona görə də geniş məlumat verməyə ehtiyac da yoxdur. Sadəcə bir faktı daha qabarıq



qeyd etmək istəyirik ki, kəndin yaranmasını bəzi mənbələrdə olduğu kimi tamamilə malakanların adı ilə bağlamaq düzgün deyil. Bu kəndin keçmiş adı Fındıqlı olub. Başqa sözlə, Novosaratovka çarizmin köçürmə siyasəti nəticəsində 1850-ci ildə Rusiyanın Saratov quberniyasından gəlmələrin həmin ərazidə məskunlaşmasından sonra inkişaf etməyə, böyüməyə başlayıb. Təbii ki, kənd tədricən öz simasını dəyişib və digər azərbaycanlı kəndlərundən seçilib. Özü də təkcə Novosaratovka deyil, Slavyanka, İvanovka kəndləri də azərbaycanlıların yaşadığı kəndlərdən çox fərqlənir. Planlı şəkildə salınan evlər və səliqəli, rahat küçələr indiyədək olduğu kimi durur.

Maraqlıdır ki, burada yaşayan ruslar Azərbaycan dilində Gədəbəy ləhcəsi ilə danışırlar. Malakan kəndlərinin memarlıq quruluşu və məişəti elə fərqlidir ki, buralara yolu düşən Azərbaycanda olduğunu unudur. Ruslar köhnə adət – ənənələrini, mətbəxlərini, musiqilərini yaşadırlar...

Kənd icra nümayəndəsi vəzifəsini müvəqqəti icra edən Elnur Qarayevlə nümayəndəliyin binası qarşısında görüşürük. Deyir ki, hazırda kənddə rəsmi qeydiyyatda olanların sayı 2865 nəfərdir. Lakin son vaxtlar Novosaratovkada ev tikdirənlər, bura yalnız yay aylarında gələnləri də nəzərə alsaq əhalini sayı 4 min nəfərdən çoxdur.

– Yayda Bakıdan, Gəncədən, hətta Rusiyadan, digər şəhərlərdən və rayonlardan gələnlərin sayı-hesabı olmur. Yerli sakinlər öz evlərini gələn qonaqlara kirayəyə verirlər, – deyə E.Qarayev Novosaratovkanın bir azdan daha qələbəlik olacağını bildirir, – artıq hamı öz ev -eşiyini qaydaya salıb, turistləri gözləyir.

Qeyd edək ki, yay aylarında səfalı kəndə gələnlərin istirahətinin daha maraqlı və məzmunlu təşkili üçün hələlik ciddi bir iş görülməyib. Halbuki turizmlə məşğul olan qurumların istər xarici, istərsə də yerli turistlərlə bağlı konkret iş planı, tədbirləri, marşrutları olmalıdır.Nə vaxta kimi burada bir-iki ay qalan qonaq istirahətini yalnız bulaq başında yeyib-içməklə keçirəcək? Gədəbəy elə bir tarixi qədim məkandır ki, onun təbliği ilə məşğul olmaq hamımızın vəzifəsidir. Yadımdadır, bir neçə il qabaq Gədəbəy tarixində ilk dəfə olaraq Milli Yaylaq festivalı keçirəndə 19 ölkədən turistlər gəlmişdi və onlar bu bölgənin adət-ənənələrinə, təbiətinə, tarixi abidələrinə, mətbəxlərinə heyranlıqlarını gizlədə bilmirdilər.

Hər il Novosaratovkaya yüzlərlə uşaq gəlir. Onların əyləmələrinin, gəzintilərinin təşkili barədə düşünmək lazımdır. Gədəbəy şəhərindəki bir parkla kifayətlənmək olmaz. Bu cür guşələrin yuxarıda adlarını çəkdiyimiz kəndlərdə də təşkilini həyata keçirmək lazımdır.

Novosaratovkada torpaq becərənlərin də kifayət qədər problemləri vardır. Doğrudur, son illər adamlar süni əngəlliklərlə qarşılaşmırlar, bir sıra məsələlərin həllində yerli icra orqanlarının köməyini hiss edirlər. Lakin kəndli yetişdirdiyi məhsulun bəhrəsini görməlidir, heç olmasa ailəsinin ehtiyaclarını ödəmək üçün məhsulu bazara çıxara bilmədilər.



– Kartof əkməyə qorxuram ki, sata bilməyim, hamısı çöldə qalıb çürüsün, deyə milliyyətcə rus olan Vasili Bıçkov təmiz azərbaycan dilində, gədəbəyli ləhcəsi ilə bazara çıxa bilmədiklərindən gileylənir, – ona görə də 12 sot pay torpağımın hamısını biçənək etmişəm ki, heç olmasa mal-qara qışda ac qalmasın,- deyir.

İcra nümayəndəliyinin qarşısında söhbət etdiyim digər kənd sakinləri də Vasilinin dediklərini təsdiq etdilər.

– Keçən il yetişdirdiyim məhsulun 7 tonunu mal-qaraya verməli oldum, – deyə Qədimalı Cəfərov da kartofu sata bilmədiklərindən gileyləndi,- tədarük məntəqəsinin olmaması işimizi xeyli asanlaşdırardı, bilərdik ki, zəhmətimiz hədər getməyəcək.

Digər bir sakin Faik Əsgərov da dedi ki, şərait yaratsalar kartofu Bakının, Gəncənin bazarlarına çıxarmaq olar və yaxşı da satılar. Hər halda Gədəbəy kartofunun adı-sanı var. Alıcılar da bilərlər ki, təmiz Gədəbəy kartofunu haradan almaq mümkündür.

İş adamlarının imkanlarından maksimum istifadə edilməlidir. Respublikanın iri şəhər və rayonlarında “Gədəbəy kartofu” adlı firma mağazalarının açılmasına nail olmaq lazımdır.

Maraqlıdır ki, Gədəbəyin öz bazarında da normal kartof tapmaq müşkül məsələyə çevrilib. Yeri gəlmişkən, bir neçə il qabaq şəhərin mərkəzində sıxlıq yaratdığı üçün nisbətən şəhərdən kənarda salınan bazara da baş çəkdik. Tovuzdan, Şəmkirdən kartof gətirib satanlara rast gəldik.

“Təzə bazar” isə dağılıb gedir.Piştaxtalar qırıq-qırıqdır, satıcıların çoxu məhsulunu yerdə satır, antisanitariya hökm sürür. Öyrəndik ki, bazarın sahibi Xanlar Hüseynov adlı bir iş adamıdır. Guya o da son vaxtlar xəstə olduğundan bazar bir növ başlı-başına qalıb.

Novosaratovkanın həlli mümkün olan digər problemlərindən biri də içməli su ilə bağlıdır. Xüsusilə, qəsəbənin mərkəzi küçəsində su qıtlığı var.Bulaqlardan su gətirmək isə hər adama qismət olmur, çünki çox uzaqdır.

...Gədəbəyin bütün kəndləri səfalıdır, cəzbedicidir. Novosaratovka da bu gözəlliklərin mərkəzidir, desək, yanılmarıq.Bu yerlərin məhsulunun, ətinin, südünün də dadı bambaşqadır. Amma ənənələri qorumaq, əvvəlki şöhrəti bərpa etmək üçün sakinlərdən, kənd adamlarından da çox şey asılıdır. Bütün məsələlərin həllini dövlət qurumlarının üzərinə atmaq, əlini əlinin üstünə qoyub gözləmə mövqeyi tutmaq yaramaz. Bir vaxtlar kənd icmaları yaradılmışdı. Onların bir çoxu kağız üzərində qalıb. Bu icmaların fəaliyyətindən maksimum istifadə olunmalıdır. Problemlər sakinlərin özlərinin iştirakı ilə həll edilməlidir.

Gədəbəyi gərək, ilk növbədə, gədəbəylinin özü sevsin. Mərhum şairimiz İlyas Tapdıq necə deyib?

***Gəzib dolaşanda binələrini,***
***Əzmə çiyələyin dənələrini.***
***Dərənin dərini, suyun sərini,***
***Dağların qocası Gədəbəydədir!***

Gədəbəyi bax, beləcə sevmək, sevdirmək, onunla fəxr etmək, qürur hissi keçirmək, heç nəyə biganə qalmamaq varsa, digər problemlər öz-özünə çözüləcək...

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gədəbəy rayonu**

Məfkurə irsimiz

# Üzeyir Hacıbəyli – istiqlalçı publisist

## *Müsahibimiz AXC irsinin tədqiqatçısı, professor Nəsiman Yaqubludur*

**Üzeyir Hacıbəyli Azərbaycan musiqisinin, mədəniyyətinin, bütövlükdə, ictimai-siyasi fikir tariximizin inkişafında misilsiz xidmətlər göstərmişdir. Fəxrlə qeyd olunmalıdır ki, bugünə kimi Şərq tarixində musiqi sahəsində belə bir istedad sahibi doğulmamışdır. Üzeyir Hacıbəyli, həqiqətən, xalqımızın milli sərvətidir. Bu böyük düha, eyni zamanda, parlaq publisist kimi də fəaliyyət göstərmişdir. Əməkdaşımız Üzeyir bəyin son dərəcə dolğun publisistik fəaliyyəti barədə fədakar tədqiqatçı, BDU-nun professoru, tarix elmləri doktoru Nəsiman Yaqublu ilə söhbət etmişdir. Professor Üzeyir bəyin jurnalistlik fəaliyyəti barədə bunları demişdir:**



– Üzeyir bəy Şuşadakı ikisinifli rus-tatar məktəbini bitirdikdən sonra təhsilini Qori Müəllimlər Seminariyasında davam etdirmişdir. Seminariyanı bitirib Cəbrayıl qəzasının Tuğ kəndində müəllimlik etməyə başlamışdır. O, ilk yazılarını da buradan – Cəbrayıl qəzasından "Kaspi" qəzetinə göndərmişdir. İlk məqaləsi 1904-cü il sentyabrın 24-də "Kaspi" qəzetinin 215-ci sayında dərc edilib.

Üzeyir bəy 1905-ci ildə Bakıya qayıtmışdır. Burada "Həyat" və "İrşad" qəzetləri ilə fəal əməkdaşlıq etmişdir.

Ü.Hacıbəyli fəal yazar olmuşdur. Onun "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət" qəzetlərində, "Molla Nəsrəddin", "Məktəb" jurnallarında, eləcə də digər mətbu nəşrlərdə yüzlərlə məqaləsi, felyetonu dərc edilmişdir. Təkcə Azərbaycan Xalq Cümhuriyyətinin orqanı olan "Azərbaycan" (Azərbaycan dilində) qəzetində Üzeyir bəyin 68 məqaləsi işıq üzü görmüşdür.

1909-cu il iyunun 28-dən oktyabrın 25-dək "Tərəqqi" qəzetində (Ə.Ağaoğlu Türkiyəyə getdikdən sonra), 1909-cu ilin 25 dekabrından 1910-cu il mayın 28-nə qədər "Həqiqət" qəzetində, 1919-cu ilin 16 yanvarından 1920-ci ilin 28 aprelinə qədər (fasilələrlə) "Azərbaycan" qəzetində redaktor olmuşdur.

Görkəmli publisist yazılarını bu imzalarla çap etdirirdi: "Hacıbəyli Üzeyir", "Üzeyir", "Ü.Hacıbəyli", "Çı", "Bəhmənkəs", "Lal uşaq", "Bisavad", "Musiqiçi". Üzeyir bəy "Ordan-burdan", "O yan, bu yan" başlıqları altında olan felyetonlarına "Filankəs" imzası qoyurdu.

**– Üzeyir bəy istiqlalımızın tarixi əhəmiyyətini xalqa necə çatdırırdı?**

– Ü.Hacıbəyli 1918-ci ildə AXC (Azərbaycan Xalq Cümhuriyyəti) yaradıldıqdan sonra, "Azərbaycan" qəzetində müstəqil dövlətimizin geniş təbliğatını aparırdı. "Azadlıq", "Cümhuriyyət", "Parlament" sözləri onun yazılarının əsasını təşkil edirdi.

Ü.Hacıbəyli "Azərbaycan" qəzetindəki "Tarixi günümüz" məqaləsində dekabrın 7-də açılacaq parlamentin tarixi əhəmiyyətini yüksək dəyərləndirirdi. 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin açılış mərasimi oldu. Müəllif "Təəssürat" məqaləsində həmin hadisəni belə təsvir edirdi: "Parlamanımız açıldı, gördük, Fətəli xan doğru dedi ki, yatsa idik də, yuxumuza girməzdi..."

Ü.Hacıbəyli parlamentin açılış mərasimindən çox maraqlı məqamları oxuculara belə çatdırırdı: "Məhəmməd Əmin (Rəsulzadə − red.) nitqində bu üç rəngin: "Türkləşmək, islamlaşmaq və müasirləşmək amalı əlamətindən ibarət olduğuna işarə ilə bu bayraq endiriləməz!" − dedikdə bütün Məclis ayağa qalxıb, əl çala-çala bayraqları salamlarkən təəssürati-fövqəladəmdən başımın tükləri biz-biz durdu".

Ü.Hacıbəyli Azərbaycan Cümhuriyyətinə bağlı olmaq, dəyərləndirmək, onu müdafiə etmək prinsiplərini yazılarında əks etdirirdi: "Amma bu gün biz bu cürə dövləti qorumağa və ictimai işlərə girişməyə məcburuq. Bu cürə işlərə kənardan baxmağa və biganə qalmağa haqqımız yoxdur, çünki biz daha özgə vətənin ögey oğlu deyilik. Öz vətənimizin doğma oğluyuq. Vətən də bizimdir, hökumət də bizimdir, camaat da bizimdir".

Bəli, dahi Üzeyir bəy bütün varlığı ilə Azərbaycanı sevirdi və Vətən sevgisi ilə yaratdıqlarının, yazdıqlarının, bəstələdiklərinin hər biri bu gün də çox qiymətlidir.

**– Ü.Hacıbəylinin Azərbaycan istiqlalının bir illiyinə həsr etdiyi "Bir yaş" məqaləsi milli publisistikamızn tarixində xüsusi yer tutur. Professor, bu barədə oxuculara bir qədər geniş məlumat verməyinizi xahiş edirəm.**

– "Bir yaş" məqaləsi yüksək publisistika nümunəsidir. Üzeyir bəyin 1919-cu ildə "Azərbaycan" qəzetində dərc olunan bu yazısında Azərbaycan istiqlalına böyük bağlılıq vardır. Üzeyir bəy yazırdı: "Bu gün istiqlalını elan etmiş olduğumuz və bu istiqlalı qazanmaq yolunda çaylarca qanlar axıdıb, minlərcə xanimanlarımızı xərabə qoyduğumuz bir dövlətin, yəni Azərbaycan Türk Dövlətinin bir yaşı tamam olub da, iki yaşa qədəm qoyduğu gündür.

Novzad dövlətimizin təvəllüdü, ana vətənin bətnindən doğulması çətinliklə əmələ gəldi. Ana vətən balasını doğarkən özünü qurban edəcək dərəcəsinə gəlmişdi. Azərbaycan torpağı bir xarabazara, bir viranəyə dönəcək idi. Onun, o madəri-mehribanın nazik sinəsi, zərif bədəni üzərində gəzən qaba ayaqlar həm anasını, həm bətnindəki balasını çəkmələrinin təpikləri altında tapdalamaq, əzmək və xurd-xəşil etməklə anasını da, balasını da öldürmək istəyirdilər. Lakin bu zəif sinə içinə gizlənmiş olan eşq və məhəbbət o dərəcə böyük bir qüvvəti haiz idi ki, zəif cisim, qüvvətli ruh sayəsində düşmən zülmü qarşısında tab və taqətdən düşməyib yaşamaq və yaşatmaq iqtidarını qeyb etmədi".

Böyük mütəfəkkir, fədakar jurnalist olan Ü.Hacıbəyli "Azərbaycan" qəzetində o dövrdə Qarabağda baş verən hadisələrlə də bağlı yazılar dərc etdirir, bu bölgədə erməni silahlılarının dinc insanlara qarşı törətdikləri vəhşiliklərdən yazır, etiraz səsini qaldırırdı.

**– Üzeyir bəy yazılarında xarici düşmənlərə qarşı da kəskin mövqe nümayiş etdirmişdir...**

– Tamamilə doğrudur. Bu mənada onun "Azərbaycan" qəzetində çap edilən "İçimizdəki Denikinlər" məqaləsi də çox əhəmiyyətlidir. 1919-cu ildə Azərbaycan Cümhuriyyətinin sərhədlərində dayanan, çar Rusiyasının generalı olmuş Denikin "Bölünməz Rusiya" xülyalarından uzaqlaşa bilmir, yaranmış müstəqil dövlətləri təhdidlər altında saxlamağa çalışırdı. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə dövlətin içində mane olanları Ü.Hacıbəyli "İçimizdəki Denikinlər" adlandırırdı.

Böyük ədibin "Azərbaycan" qəzetindəki son yazısı "Zurna" adlanırdı. Yazı 1920-ci il aprelin 25-də qəzetin 82-ci sayında "Çı" imzası ilə dərc olundu.

Ü.Hacıbəyli böyük uzaqgörənliklə iki gündən sonra Azərbaycanı işğal edəcək bolşeviklər haqqında yazırdı: "Mən deyirəm ki, Nikolay hökuməti ilə Lenin hökuməti arasında təfavüt yoxdur. Xeyr! Təfavüt vardır və o özü də bundan ibarətdir ki, nikolaylar və generallar hökuməti bizə həmişə "usvoloç"(itoğlu-red) deyib, atamıza söyərdilər, mujik və raboçi (fəhlə-red) hökuməti məşhur rus söyüşü ilə anamıza söyəcəklər".



**– Azərbaycan işğal edildikdən sonra Üzeyir bəyin Sovet rejimi dövründəki fəaliyyəti, xüsusilə onun yazılarının əleyhinə kampaniyaların aparılmasında məqsəd nə idi?**

– 1920-ci il aprelin 27-də Rusiyanın XI ordusu Azərbaycan sərhədlərini keçib ölkə ərazisini işğal etdi. Sovet işğalının ilk illərində bütün ziyalılar kimi, Ü.Hacıbəylinin də həyatı təlatümlər içində keçdi. Bəzi məlumatlarda onun da bolşeviklər tərəfindən güllələnmə ehtimalı qeyd olunmaqdadır. Üzeyir bəyin xilasına kömək edən əsas şəxsin onun həyat yoldaşı Məleykə xanımın qardaşı İ.Terequlov olduğu söylənilir (İ.Terequlov o dövrdə Fövqəladə Komissiyada çalışırdı – müəllif).

1920-ci ildə Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra o, mənən qəbul etmədiyi, məcbur olub 28 il yaşadığı sovet dövründə ümumilikdə 90-na qədər (Azərbaycan və rus dillərində) məqalə çap etdirdi. Müqayisə üçün bildirək ki, Azərbaycanın işğalına qədər isə onun (1904-cü ildən 1920-ci ilə qədər) 16 il ərzində 600-ə yaxın məqaləsi çap olunmuşdur.

Üzeyir bəy sovet dövründə bütün fəaliyyətini Azərbaycan musiqisinin inkişafına, tərəqqisinə həsr etmişdir. 1920-ci ilə qədər çox sayda musiqi əsərləri bəstələyən bu böyük bəstəkar yalnız 1937-ci ildə bir opera əsəri − "Koroğlu"nu yazmışdır.

Ədəbiyyatımızın, mədəniyyətimizin, musiqimizin yolunda vətəndaş yanğısı ilə çalışan bu böyük insana qarşı sovet rejiminin mənfi münasibəti 1920-ci illərin sonlarında daha da sərtləşmişdir. Ona qarşı bu qərəzli münasibətin yaranmasında qardaşı Ceyhun Hacıbəylinin Avropada sovet dövləti əleyhinə çalışmalarının da böyük təsiri vardı.

Üzeyir bəyin cidd-cəhd göstərməsinə baxmayaraq, qardaşı Ceyhun Azərbaycana qayıtmadı. Bu mənada onun C.Hacıbəyliyə yazdığı məktublarda təsirli məqamlar çoxdur. Üzeyir bəy bu məktublarında ailə, məişət və dolanışıq problemləri ilə yanaşı, qardaşından nigarançılığını, onun ailəsindən, uşaqlarından ötrü darıxdığını ağrılı bir formada açıqlayırdı.

1948-ci il noyabrın 23-də Azərbaycanın ictimai-siyasi, mədəni mühitinə böyük və əvəzsiz itki üz verdi. Vətən sevdalı böyük ziyalı Üzeyir Hacıbəyovun sağlamlığı, səhhəti zamanın təlatümlərinə dözmədi, əbədi haqq dünyasına qovuşdu.

***– Azərbaycan tarixində, mədəniyyətində Üzeyir Hacıbəyovun yeri və rolunu qısa şəkildə necə ifadə etmək olar?***

– Böyük azərbaycanlı Üzeyir Hacıbəyov haqqında ən dəyərli fikirləri Məhəmməd Əmin Rəsulzadə demişdir: "Başda bir həvəskar olaraq işə başlayan Hacıbəyli sonra özü-özünü yetişdirmiş, musiqi təhsilini tamamlamış, nəticədə sözün Avropa mənası ilə otoritəsini (nüfuzunu − red.) hər kəsə tanıtmış bir bəstəkar olmuşdur. Nə yazıq ki, bolşevik rejimi Azərbaycanın bu müstəsna zəkasını da öz diktatorluğu altına almış və onu bayağı mənfəətləri üçün sümürdükcə sümürmüş və verdiyi bir neçə rəsmi, siyasi vəzifə və ünvanlarla onu "mənimsəmişdir".

Fəqət beyhudə, dəmir pərdənin arxasında özünə süni marşlar yazdırılsa da, tabutu başında Azərbaycan mənəviyyatı ilə ilgiləri olmayan komissarlar növbədə dursalar da, Hacıbəyli Üzeyiri Azərbaycandan, Azərbaycan kültüründən və Azəri türk tarixindən kimsə ayıramaz! O, milli Azərbaycan varlığının məsnədləri (qaynaqları − red.) arasında qalacaq ayrılmaz bir dəyərdir".

***Müsahibəni apardı:***
***Kəmalə ABDİNOVA***
***XQ***

---

# Qafqaz Albaniyası Dədə Qorqud yurdu idi

## *Erməni "albanşünas"ların iddiaları isə gülünc xülyalardır*

**(əvvəli 1-ci səhifədə)**

– Əlbəttə, bu cəfəngiyatı hələ 70 il öncə albanşünas alim K.Trever ifşa edib. Bundan sonra aparılan tədqiqatlar şübhəsiz ki, erməni və alban mədəniyyətlərinin tamamilə bir-birinə yad mədəniyyət olduğunu sübut etdi. Albanların xristianlığı ermənilərdən əvvəl qəbul etdiyini yazan Moisey Kalankatlı qeyd edir ki, albanlar xristianlıq dinini qəbul edəndə, kilsələrə gedib dini ibadət mərasimlərini icra edəndə ermənilər hələ də bütpərəst toplum idilər.

**– Ermənilər bütpərəst toplum idi?**

– Bəli. Ermənilərin bütpərəst toplum olmasını özlərinin tarixçisi kimi qələmə verdikləri, əslində yunan əsilli tarixçi və din xadimi olan Favstos Buzand da qeyd edib. O, "Tarix" əsərində yazır ki, erməni çarı Tiran hakimiyyətdə olduğu zaman (339-350-ci illər) Ərzurum yaxınlığında Tordanda kilsəni idarə edən parfiyalı Müqəddəs Qriqorisin nəvəsi İusik idi. O zaman İusik yeni katolikos seçilmişdi. Əslində, katolikos rütbəsi ermənilərdə yox idi, o erməni kilsəsinə rəhbərlik edən keşiş idi. 347-ci ildə yeni il günü Tiran kilsəyə girərək dini bayramı qeyd etmək istəyərkən İusik ona mane olur. İusik kilsənin qapısı ağzında duraraq Tiranı buraxmır.

Favstos Buzand İusikin erməni çarına qarşı çıxışını öz əsərində ətraflı təqdim edir. İusik erməni çarına deyir ki: "sən o qədər murdar əməllər törətmisən ki, adını xristianlıq qoyub, İsanın dinini qəbul etmək qoyub, o bəhanə ilə əslində bütpərəst məbədlərinə getmisən, xristian olmamısan və xristianlığa qarşı qəddar tədbirlər görmüsən, xristian din xadimlərini qətlə yetirmisən".

İusikin bu sözündən sonra Tiran öz nahararlarına (ətrafında olan hərbçi feodallar) əmr verir, onlar zopayla keşiş İusiki kilsənin içərisində döyüb öldürürlər.

IV əsrin birinci yarısında Alban hökmdarı Urnayr xristianlıq dinini rəsmən dövlət dini elan etmişdi. Bu dövrdə Albaniyada xristianlıq dövlət səviyyəsində təbliğ olunurdu. Amma ermənilər həmin dövrdə xristian din xadimlərini kilsənin içində qətlə yetirirdilər. Buna görə də albanlarla ermənilərin xristianlıq tarixi tamamilə bir-birinə ziddir.

**– Alban ölkəsi haqqında ilk məlumatlara mənbələrdə nə vaxtdan rast gəlinir?**

– Alban adı ilk dəfə mənbələrdə e.ə. VIII əsrin ortalarında, konkret olaraq e.ə.743-cü ildə Urartu hökumdarı II Sardurinin "Xəzinə Qapısı" adlı kitabəsində Ku'-Alban kimi çəkilir. Urartu mixi yazılı mətnlərində Göyçə gölü ətrafında yaşayan tayfalardan, eləcə də Göyçə gölünün şimal-qərbini əhatə edən Etiuni (Etiuhi), Alban, Luipruni və Kamniu ölkələrindən bəhs edilir. Qarqar tayfasının yaşadığı ərazi Qurqumeli kimi tanınır. Urartu mixi yazılı kitabələrində Azərbaycanın qərb bölgələrində şəhərlərdən, qalalardan, eləcə də digər yaşayış məntəqələrindən də bəhs olunur. Amma albanların adının e.ə.743-cü ildə bir Urartu kitabəsində, həm də Göyçə gölünün şərqinə aid bölgədə çəkilməsi əslində, Albanların Kür çayının sağ sahilində, hələ e.ə.VIII əsrin ortalarında yaşadığını sübut edən tutarlı dəlildir. Halbuki müasir albanşünaslıq elmində belə bir fikir var ki, Albaniya dövləti Kürün sol sahilində meydana gəlib, sonrakı dönəmlərdə, yəni erkən orta əsrlər dövründə Kürün sağ sahilinə irəliləyib və bizim eranın IV əsrinin sonlarından başlayaraq Kürün sol sahili ilə yanaşı sağ sahilində də möhkəmlənib. Bu konsepsiyaya görə V əsrin ortalarında Albaniyanın paytaxtı müasir Bərdə şəhəri yaxınlığında yerləşən qədim Partav şəhərinə köçürüldüyünə görə Kürün sağ sahili yalnız bu dövrdən etibarən Alban torpaqları olub. Amma e.ə.743-cü ildə baş vermiş hadisələrdən bəhs edən Urartu mixi yazılı kitabəsi Qafqaz Albaniyası haqqında mövcud olan yanlış fikirlərin üstündən xətt çəkir, albanların e.ə.743-cü ildə artıq bir tayfa ittifaqı formalaşdırdığını və Qərbi Azərbaycan ərazisində yaşadığını sübut edən tutarlı dəlil kimi qarşımıza çıxır. 2800 il əvvəl Urartu qaynaqlarında Alban ölkəsindən bəhs edilməsi albanşünaslıq elmində Qafqaz Albaniyası haqqında mövcud olan yanlış konsepsiyanı, əsasən də bu dövlətin e.ə.IV əsrin ikinci yarısında meydana gəlməsi haqqında irəli sürülmüş fərziyyəni alt-üst edir.

**– Xahiş edirəm Etiuni ölkəsi və utilər barədə məlumat verəsiniz. Bu məlumatlar oxucular üçün də maraqlı olardı.**

– E.ə.IX əsrin son rübündən başlayaraq Urartu hökmdarı İşpuininin və oğlu Minuanın hakimiyyəti dövründən başlayaraq Azərbaycanın qərb torpaqları yeni hücumlara məruz qaldı. Bu barədə məlumat verən Urartu mixi yazılı kitabələri Azərbaycanın qərbində Etiuni ölkəsindən bəhs edir. Etuhi və ya Etiuni toponimi "etiu", yəni "uti" və Urartu dilində mənsubiyyət bildirən "-hi", məkan və yer mənasını bildirən "-ni" suffikslərindən ibarət olub, "Utilərin ölkəsi" deməkdir. Bəhs olunan dövrdə Etuhi ölkəsi albanlar da daxil olmaqla onlarla yerli tayfanın birləşdiyi konfederasiya idi. Albanlardan əvvəl bu bölgədə tayfa ittifaqı yaradan, yəni yerli tayfaları vahid konfederasiyada birləşdirən etnos etiular olmuşdur. Urartu mənbələrində utilərin, albanların, qarqarların, lipinlərin və digər tayfaların hər birinin tayfa başçısının və ya hökmdarının adı çəkilir. Amma etiular, yəni utilər haqqında məlumat verən mixi yazılı mətnlərdə onların bir neçə hökmdarının olmasından, şəhərlərindən və Göyçə gölünün qərbini əhatə etməsindən bəhs edilir. E.ə.VIII əsrin birinci yarısında Etiuni ölkəsi müasir Qars bölgəsinə qədər, Ağbaba, Şörəyel, Dərəçiçək, Qərbi Azərbaycanın şimal-qərb bölgələri, hətta Çıldır gölünə qədər böyük bir coğrafiyanı əhatə edirdi. Urartu mixi yazılı kitabələrində Etiuni tayfa ittifaqından Qərbi Azərbaycan ərazisini ilk dəfə vahid dövlət halında birləşdirən güclü etnos kimi bəhs edilməsi bölgədə yerli dövlətçilik ənənələrinin möhkəm əsaslara malik olduğunu sübut edir.

Urartu mənbələrində etiu, daha sonrakı dövrlərdə isə yunan mənbələrində uti adlanan etnos bölgədə hakim mövqeyə malik idi. Etiuların bu cür konfederativ hakimiyyəti iskit tayfalarının bölgəyə gəlişinə qədər davam etmişdir. İskitlərə qədər Cənubi Qafqazda, eləcə də, Qərbi Azərbaycan ərazisində Urartu hücumlarına qarşı ciddi müqavimət göstərən başlıca qüvvə etiular olmuşdur. Etiu tayfaları albanları, qarqarları, lipinləri və digər yerli tayfaları vahid dövlət halında birləşdirib. Azərbaycanın şimal torpaqlarında, eləcə də Şimal-Qərbi Azərbaycan ərazisində (indiki Ermənistan respublikası nəzərdə tutulur – R.Əlizadə) etiuların vahid dövlətçilik xəttini əvvəlcə iskitlər, daha sonra isə albanlar davam ediblər.

**– Alban ölkəsinin adının Arran-Ardan kimi çəkilməsi nə ilə bağlıdır?**



– Yunan və Roma müəlliflərinin əsərlərində Alban tayfalarının birliyindən, Albaniya dövlətindən bəhs edildiyi zaman artıq Makedoniyalı İsgəndərin imperiyası dağılmışdı. Onun ölümündən sonra diadoxları, yəni sərkərdələri arasında çəkişmələr regionda siyasi dağınıqlıq vəziyyəti yaratmışdı. Bu dövrdə Azərbaycan ərazisində Albaniya və Atropatena dövlətlərinin formalaşması məhz iskitlərin qədim dövlətçilik ənənəsinə əsaslanırdı. Təsadüf deyil ki, Azərbaycanın ilk tarixçisi Moisey Kalankatlı "Albaniya tarixi"ndə Albanların ilk hökmdarının Sesak (Qara Sak) soyundan olan Aran (Arran) olmasından bəhs edir. Bu kitabın ilk variantı Alban dilində yazılsa da, sonralar erməni keşişləri qrabar dilinə tərcümə edərək üzünü köçürüb və yeni mətnlər əlavə edərək ciddi təhriflərə yol veriblər. Əsəri diqqətlə oxuyanda, tarixi-filoloji və mətnşünaslıq baxımından təhlil edəndə aydın olur ki, bu əsərin ilk variantı şübhəsiz ki, Alban dilində olub. Alban hökmdarı Cavanşirin dövründə, yəni VII əsrdə yaşamış Moisey Kalankatlı onun tapşırığı ilə bu əsəri qələmə alıb. Bu kitabda Cavanşirin ölümündən xeyli sonra, hətta VIII və IX əsrə aid hadisələr öz əksini tapıb. "Albaniya tarixi"nin sonuncu kitabı, yəni üçüncü kitab Moisey Kalankatlının ölümündən sonra qələmə alındığı zaman qrabarca yazılıb. Movses Dasxuranatsi adında bir erməni keşişi bu hissəni yazıb, əsəri isə bütövlükdə qrabarca qələmə alıb. Bu zaman o, erməni əfsanələrini, mifologiyasını, Ermənistan haqqında rəvayətləri də "Albaniya tarixi"nə əlavə edib.

Qafqaz Albaniyasında ilk hökmdar sülaləsi Arandan başlayır. Aranın adı mənbələrdə Qara Sak (Böyük Sak) soyundan olan Aran kimi çəkilir. Moisey Kalankatlı Alban tarix əsərində onun Sesak soyundan olduğunu yazır. Qrabarca mətnlərdə rast gəlinən Sesak adı türkcəyə "Böyük Sak" kimi tərcümə olunur. Moisey Kalankatlı yazır ki, Böyük Sak soyundan olan Aran və onun varisləri Alban ölkəsini idarə ediblər.

Albaniya adı III əsrə aid mənbələrdə, əsasən də Sasani şahənşahı II Şapurun Nəqşi-Rüstəmdə Kəbeyi-Zərdüşt kitabəsində pəhləvi variantında Arran, Parfiya variantında isə Ardan kimi çəkilir. Alban ölkəsinin adının Arran-Ardan kimi çəkilməsi bu ölkənin hökmdarının Aran olması ilə bağlıdır. Yəni Albaniya Aranın ölkəsi olduğu üçün Aran, Ardan və ya Arran adlanıb. Arran adının aramey mətnlərində Eran və ya Aran adı ilə heç bir bağlılığı yoxdur. Bu ad İskit-Sak əsilli hökmdar olan Aranın ölkəsi mənasında işlənib. Əslində, İskitlərin e.ə. VIII-VII əsrlərdə Azərbaycanın şimalında və cənubunda möhkəmlənməsi buradakı hakim sülaləsinin İskit mənşəli olmasını deməyə imkan verir. Burada e.ə. I minilliyin ortalarından başlayaraq dövlətçiliyin formalaşması məhz iskit tayfalarının adı ilə bağlı idi. Qafqaz Albaniyasında hakim sülalələr və onların idarəçilik sistemi də öz başlanğıcını İskit dövlətindən götürüb.

Nəhayət, deyək ki, Qafqaz Albaniyası ulu Dədə Qorqudun yurdu idi. Erməni "albanşünas"ların iddiaları isə gülünc xülyalardır.

**Söhbətləşdi:**
**Pünhan ƏFƏNDİYEV**
**XQ**

Hüseyn Arif – 100

# Kür kimi çağlayan ilhamı vardı...

**Şairin vəfatından illər ötsə də, xatirəsi, şeirləri, haqqında danışılan lətifələr Azərbaycanı diyar-diyar dolaşır. Hüseyn Arif ömrü əriş-arğac cığırlar, izlər dünyası idi. Getdiyi yerlərdə özünün də, sözünün də izi qalıb.**

Bizim Borçalıda da o, zaman-zaman əziz insan kimi xatırlanıb. Ədəbiyyat müəllimim, ustadım şair Əli Səngərli deyirdi ki, Hüseyn Arif bizim Faxralıya gələndə sən hələ həyatda yox idin. Kəndimizin fəxri qonaqlarının – unudulmaz Səməd Vurğunun, Osman Sarıvəllinin və onlardan sonra Hüseyn Arifin adı elimizdə-obamızda xoş xatirələrlə anılır. Necə ki, bir şeirində yazmışdı:

*Oldum Faxralıda, oldum bir payız,*
*Məni qarşıladı neçə oğul-qız...*
*Hanı Musa kişi, Binnət qağamız,*
*Zamanın hökmünə neyləyə billəm?*



Mən orta məktəbi bitirdikdən sonra Bakıya gəldim, universitetdə oxuduğum illərdə Hüseyn Ariflə ünsiyyətimiz yarandı. Faxralıdan olduğumu biləndə və həmin şeiri ona xatırladanda çox kövrəldi. Beləcə, Xalq şairi Hüseyn Arif bir çoxları kimi, mənim də Söyün qağam oldu. O, Aşıqlar Birliyinin sədri olduğu illərdə vaxtaşırı görüşürdük. Bir dəfəsində "Aşıq Hüseyn Saraçlı də məndən küsülü getdi", – dedi və kövrəldi. Sonra da küskünlüyün səbəbini şeirlə anlatdı:

*Gəlmişdi yanıma bir işdən ötrü,*
*Gözündə həsrəti, nisgili getdi.*
*...Hüseyn Arifin gücü çatmadı,*
*Hüseyn Saraçlı küsülü getdi.*

Sevimli oğlu Arifin itkisi şairin ömrünü qəm-qüssəyə bələdi, şeirlərinə göz yaşı gətirdi. Sinəsindəki dağ boyda dərdi onun əzablı çöhrəsindən də, yazılarından da hiss olunurdu...

Söyün qağamla hər görüşümüz unudulmaz bir xatirəyə dönüb. Bu xatirələr qəlbimdə həmişə kövrək hisslər oyadır. Ötənlərdə aramızda olan söhbətlər beləcə ürəyimin qapısını döyür. Dediyi vaxt yanında olanda üzündəki təbəssümdən qəlbinin hərarətini hiss edirdim. Üzündə bir ümid şöləsi cilvələnirdi. Deyirdi ki, bax, həmişə belə tez-tez gəl... Gələ-gələ dost olarsan, gedə-gedə yadlaşarsan. Borçalıya olan sevgisindən ürəkdolusu danışanda duyğuları dil açırdı, yaralı könlü gül açırdı:

*Başkeçidin ətəyi gül, başı qar,*
*Çiçəklərdən dəstə tutur ilk bahar.*
*Yaranışdan zirvə geniş, dərə dar –*
*Həm arandı, həm yaylaqdı Borçalı.*

*Dost yolunda əsirgəməz, nə desən,*
*Harayına çatasıdı, səsləsən.*
*Şirininə acı qatmaq istəsən,*
*Coşan seldi, yanan dağdı Borçalı.*

Onun Borçalı ünvanlı şeirləri bir deyil, beş deyil, hansından söz açım?! Borçalı əsilli ziyalımız, sevilən şairimiz Abbas Abdullaya xitabən yazmışdı:

*Şenliyin, Sadığın gəzdiyi yerlər*
*Mehlə nəfəs alıb çiskinlə tərlər.*
*Gümüş üzəngili ceyran kəhərlər*
*Cıdırda mat qoydu hər kəsi, Abbas.*

*Çay çaya qovuşar, bağ bağa bağlı,*
*Düz düzə calanar, dağ dağa bağlı.*
*Borçalı çökəyi Qazağa bağlı –*
*Birdi mərəkəsi, məzəsi, Abbas.*

Onun ürəyi ürəklərin ürəyi idi. Özü də bulaq suyu kimi dupduruydu, safıydı. Çölündəki zəmanənin gərdişi də, içindəki insanlıq vərdişi də bir başqa idi. Onu da yaxşı bilirdim ki, xətrini çox istədiyi insanlarla rəftarı elə bu cürdür. Buna görə də şairin bu misraları ağappaq ümid kimi könlümdən gəldi keçdi:

*İnsan oğlu məhəbbətdən güc alar,*
*El gözündə ucaldıqca ucalar.*
*Bir arzum var, yallı gedə qocalar,*
*Bir arzum var, balalara toy ola.*

Mənim mənəvi dünyamı işıqlandıran unudulmaz Söyün qağam! Sən dünyanın o üzündə olsan da, ruhun bizimlədir, ustad! İndi sənin ətrini şeirlərindən alırıq. "Mən sənin özünəm, sən mənim özüm" dediyin duru gözlü Durnalı da, buludlu zirvələr də, yaşıl çəmənlər də, Çatmalı da yerindədir. Kürün suları hər yaz sənin həsrətinlə çağlayır:

*Nə qədər qoynunda xumarlanmışam,*
*Yayxana-yayxana gələn Kür çayım.*
*Sahil kölgəsinə bürünüb axşam,*
*Səhər şəfəqilə gülən Kür çayım.*

Sən Vətən ocağının istisinə qızınırdın. Vətənin suyuna, torpağına, otuna, yarpağına, gülünə, çiçəyinə elə könül vermişdin ki, şeirlərini oxuya-oxuya nəfəsini hiss edirəm, ustad! Sənin o sərt mehribançılığın üçün elə qəribsəyirəm ki...Hər yaz gələndə elə bilirəm o sənli xatirələrin içində bir həsrət toxumu cücərir. Deyirdin ki, yaz gələndə ana təbiət ağlımı başımdan alır. Elə "Vətən deməkdən" dilin ozan olmuşdu:

*Oxşayım ağotu, öpüm nərgizi,*
*Bu yurdda boy atıb yaşa dolmuşam.*
*A yonca, a yovşan, bircə gün sizi*
*Unutsam, bilin ki, unudulmuşam.*

Yox, sən unudulan deyilsən, Söyün qağam! Kür kimi çağlayan ilhamının havası ilə nəfəs alırıq.

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

# Rəssamlarımız Orta Asiyada



**Aktivist Rəssamlar Assosiasiyasının (ARA) bir qrup üzvü Orta Asiya dövlətləri olan Qazaxıstan və Qırğızıstana səfər ediblər.**

Assosiasiyadan "XQ"-yə verilən məlumatda bildirilir ki, birliyin rəhbəri rəssam Nəvai Metin, Naqiyə Rzayeva və İntiqam Cəfərovun qatıldığı bu səfərdə, nəzərdə tutulduğu kimi, işgüzar görüşlər, sərgilər keçirilib.

İlk gün Qazaxıstanda olan sənətçiləri Almatı Dövlət Texnologiya Universitetinin prorektoru qəbul edib, tələbələrlə görüş təşkil olunub. Gələcək birgə addımlar müzakirə edilib.

Daha sonra görüş Qazaxıstan İncəsənət Muzeyində davam edib. Burada rəssam Nəvai Metin müəllifi olduğu, qazaxıstanlı rəssamların da qatıldığı "Dünyanı sənət xilas edəcək" adı kitab – kataloqunu muzeyin rəhbərliyinə təqdim edib.

Qırğızıstanda da rəssamlarımızın görüşləri yaddaqalan olub. Qonaqlar Qırğızıstan Rəssamlar Birliyinin sədri Yaxşıbek Junuşev tərəfindən qəbul ediliblər və gələcəkdə yaradıcı səfərlərin daha intensiv keçirilməsi haqqında müzakirələr olub. Səfərdə olan rəssamların sərgisi haqqında qərar verilib.

Sonra Qırğızıstanın İssıkkul bölgəsinə gedən rəssamlar 9-cu "Çukurova ədəbiyyat və sənət" festivalına qatılıblar. Festival müddətində rəssamlar canlı rəsmlər çəkiblər və tədbirin keçirildiyi ərazidə sərgilər təşkil olunub. Naqiyə Rzayevanın qum ilə göstərdiyi canlı performans xüsusi maraqla qarşılanıb. İntiqam Cəfərovun sulu boya ilə işlədiyi rəsmləri də diqqət çəkib.

Sənətçilərimizin bu fəaliyyəti yüksək dəyərləndirilib. Naqiyə Rzayeva Turan Birliyi və Özbəkistan Respublikasının medalı ilə, İntiqam Cəfərov Turan Birliyi medalı, Nəvai Metin isə Atatürk medalı ilə təltif olunublar.

Oradan Bişkekə qayıdan həmyerlilərimizin Rəssamlar İttifaqının sərgi salonunda da sərgiləri təşkil olunub. Tədbirin sonunda rəssamlar Qırğızıstan Rəssamlar İttifaqının diplomlarına layiq görülüblər.

***Ə.ƏLİYEV***
***XQ***

El sənəti

# Qurama festivalı

**"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin (DTMQİ) təşkilatçılığı və Türk Mədəniyyəti və İrsi Fondunun tərəfdaşlığı ilə Azərbaycanda ilk dəfə Beynəlxalq Qurama Festivalı təşkil olunub.**



Festival çərçivəsində quramanın ekoloji təmiz tətbiqi sənət növü olduğuna dair beynəlxalq seminar, qurama sənəti üzrə İçərişəhərin müxtəlif məkanlarında ustad dərsləri keçirilib. "İçərişəhər" Muzey Mərkəzinin fond kolleksiyasında olan qurama nümunələri və Qoşa Qala meydanında yerli və xarici quramaçı sənətkarların əl işləri nümayiş etdirilib.

Qeyd edək ki, 2020-ci ilin dekabr ayından başlayaraq "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyinin təşəbbüsü ilə xalqımızın qədim tarixi köklərə və ənənələrə bağlı bədii tikmə növlərindən olan "Qurama" sənətinin yenidən bərpa olunmasına start verilib. Qurama sənətinin bərpası layihəsinin uğurlu nəticəsi olaraq gələcəkdə "İçərişəhər" DTMQİ-nin "gurama.az" brend məhsullarının hazırlanması da nəzərdə tutulub.

***Fidan HÜQUQQIZI***
***XQ***

# "La Gazette" azərbaycanlı musiqiçidən yazıb



**Azərbaycanlı bəstəkar və pianoçu Şahin Növrəslinin Parisin "Louis Vuitton" Fondunda uğurlu konserti olub. Bu konsertlə bağlı Fransanın "La Gazette" nəşrində maraqlı yazı dərc olunub. Həmin yazını təqdim edirik:**

"Muğam", Azərbaycanın ənənəvi musiqisi və Amerika cazını özündə birləşdirən unikal musiqi aləmi yaradan bu sənətkarı hər kəs alqışlayır. Şahin Növrəsli tez-tez Ari Hoeniq, Natan Pek və Əhməd Camal kimi caz ulduzları ilə birgə çıxış edib. Məhz bu dəfə solo sənətçi kimi o, öz əsərlərini və caz standartlarını ifa etdi.

Şahin Növrəsli 1977-ci il fevralın 10-da Bakıda anadan olub. Erkən yaşlarından Azərbaycan Dövlət Akademik Filarmoniyasında Faiq Mustafayevin rəhbərliyi ilə Simfonik Orkestrlə çıxış edib. Sonra müsabiqə və festivallarda Bax, Bethoven, Motsart və Raxmaninovun əsərlərini ifa edib. O, bəstəkar və pianoçu Vaqif Mustafazadənin yaradıcılığından ilhamlanaraq caza, daha dəqiq desək, onun Azərbaycan estradasına, caz-muğama doğru irəliləyib.

1996-cı ildə Şahin Növrəsli Üzeyir Hacıbəyov adına Azərbaycan Milli Konservatoriyasına daxil olub. Peşəkar karyerasına başlayanda Azərbaycan xalq mahnılarını caz üslubunda ifa edərək "Məhəbbət şəlaləsi" və "Min bir gecə" mahnılarını bəstələyib. O, iki albom yazdırıb, ABŞ, İtaliya, Türkiyə və Rusiyada konsertlər verib. Caspian Jazz & Blues Festival (Bakı), Hot Summer Jazz Festival (Minneapolis, ABŞ), Black Sea Cazz Festival (Soçi, Rusiya), Antalya Beynəlxalq Piano Festivalı (Türkiyə), Bakı Caz Festivalı kimi bir çox beynəlxalq yarışmalarda iştirak edib.

O, ilk dəfə Fransaya 2000-ci illərin əvvəllərində azərbaycanlı mədəniyyət mütəxəssisi Aytən Muradovanın təşəbbüsü ilə Parisdə "Studio de l'Ermitage"də təşkil olunan konsertə gəlib. Daha sonra o, 2007-ci ildə Die şəhərindəki Est-Ouest festivalında iştirak edib. Bir sözlə, Fransada da sevilən sənətkardır."

***XQ***

# Azərbaycanlı jurnalistin adı ən yaxşılar siyahısında

**Niderlandda yaşayıb-yaradan tanınmış azərbaycanlı jurnalist Vüqar Abbasovun adı Avropa Xəbər Agentliyinin (European News Agency) 30 ən yaxşı jurnalisti (Top 30 ENA-journalisten) siyahısına salınıb.**



Soydaşımız 2008-ci ildən Niderlandda yaşayır. Azərbaycanda Qərb Universitetini "Politologiya" ixtisası üzrə bitirib. 1993-cü ildə AzTV-də fəaliyyətə başlayıb və elə o ildə də Azərbaycan Jurnalistlər Birliyinin üzvlüyünə qəbul edilib. Atası da jurnalist olub, "Günün ekranı" xəbərlər proqramında işləyib. Niderlandda xeyli müddət yerli jurnalistlər birliyinin üzvü olub. İkinci təhsilini sosial xidmətlər üzrə alıb.

V.Abbasov qeyd edib ki, niderlandlı dostları ilə birlikdə "Connect" təşkilatı yaradıblar: "Müxtəlif tədbirlərimiz olub ki, bunlar barədə Niderland mətbuatında çoxsaylı məlumatlar gedib. Hazırda təşkilat olaraq fəaliyyətimiz bəzi səbəblərdən yalnız lokal xarakter daşıyır. Artıq bir neçə ildir ki, mərkəzi ofisi Almaniyada olan GNS Press Jurnalistlər Birliyinin üzvüyəm və Avropa Xəbər Agentliyi ilə əməkdaşlıq edirəm. Jurnalistlər birliyinin Avropa üzrə 8 min üzvü, agentliyin isə 146 əməkdaşı var. Mənim üçün olduqca xoş oldu ki, adım agentliyin 30 ən yaxşı jurnalisti siyahısına salınıb".

***XQ***

# Əlcəzairdə Şuşa haqqında kitab çapdan çıxıb

**Əlcəzairdə akademik Zemfira Səfərovanın "Azərbaycanın musiqi qalası – Şuşa" kitabı çapdan çıxıb.**

Bu barədə mediada yayılan xəbərdə bildirilir ki, 2024-cü ildə Şuşa şəhərinin İslam dünyasının mədəniyyət paytaxtı elan olunması çərçivəsində diplomatik nümayəndəliyimizin dəstəyi ilə AMEA-nın həqiqi üzvü, akademik Zemfira Səfərovanın müəllifi olduğu "Azərbaycanın musiqi qalası – Şuşa" kitabı ərəb dilində bu ölkənin "DJIL Print" nəşriyyatı tərəfindən nəfis şəkildə çapdan çıxıb.

Kitabda Şuşa şəhərinin 1750-ci ildə Qarabağ xanı Pənahəli Xan tərəfindən əsasının qoyulması, burada Azərbaycanın görkəmli musiqiçiləri, bəstəkarları və ifaçılarının yetişməsi haqqında ərəb ictimaiyyətinə müfəssəl məlumat verilir. Bununla yanaşı, bu qədim mədəniyyət paytaxtında "Məclisi-üns", "Məclisi-fəramuşan" kimi ədəbi və musiqili məclislərin təşkil edildiyi, "Qarabağın konservatoriyası" adı verilmiş bu şəhərin 30 ilə yaxın erməni işğalı altında olduğu və 44 günlük Vətən müharibəsi zamanı azad edildiyi diqqətə çatdırılır.



Müəllif Şuşanın Azərbaycan, Şərq və bütövlükdə dünya mədəniyyəti üçün əhəmiyyətindən də söz açır.

Kitabda Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Şuşanın işğaldan azad olunması münasibətilə xalqa müraciəti də yer alıb.

***Qabil YUSİFOĞLU***
***XQ***

Yaddaşlarda yaşayanlar

# Xeyirxahlıq nümunəsi

**Bəri başdan deyim ki, son 25–30 ildə dəfələrlə Türkiyəyə getsəm də, uşaqlıq və gənclik illərimdə qətiyyən belə bir arzum olmamışdı. Çünki həmin dövrdəki dövlət siyasəti Türkiyəni bizə NATO üzvü ( Türkiyə 1952-ci ildən bu hərbi ittifaqın üzvüdür), düşmən dövlət kimi təqdim etmiş və mən də "fəal komsomolçu" kimi həmin düşüncənin təbliğatçılarından biri olmuşdum. Bu qardaş ölkəni görmək həvəsi məndə məhz SSRİ dönəmində, 1977-ci ildə Aqşin Babayevin Türkiyə təəssüratlarını eşidəndən sonra yaranmışdı.**



Unuda bilmərəm, Bayılda, Neftçilərin Mədəniyyət Sarayında fəaliyyət göstərən "Müşfiq bulağı" ədəbi birliyinin görüşə dəvət etdiyi qonaqlardan biri də iki il "düşmən ölkədə" – Türkiyədə işləyib qayıtmış Aqşin Babayev idi. Qonağın həmin bir saatlıq tədbirdə sevə-sevə, qardaşcasına, fəxarətlə danışdıqları, sözün həqiqi mənasında, mənə Türkiyəni sevdirmişdi. Ədəbi birliyin bütün tədbirlərində "dil ağıza qoymasam" da, həmin tədbirdə danışa bilməmişdim. Aparıcı mənə söz verəndə isə "Türkiyəyə gedib qayıdandan sonra danışaram" – deyə vəziyyətdən çıxmışdım. O zaman hamı gülsə də, Aqşin müəllim "İnşallah, gedərsən!"– deyə mənə ürək-dirək vermişdi. Çox sonralar bu xatirəni dövlət radiosu Xəbərlər baş redaksiyasının baş redaktoru, rəhmətlik Heydər Zeynaloğlunun iş otağında Aqşin müəllimə danışmışdım.

Radiodan söhbət düşmüşkən xatırladım ki, sovet dönəmində Cənubi Azərbaycandakı soydaşlarımız üçün hazırlanan "Körpü" verilişinin də, "Səhər" xəbərlər proqramının da yaradıcısı Aqşin Babayev olmuşdu və həmin verilişlər indi də "yaşayır". Aqşin müəllimin adı ilə bağlı olan başqa bir təsisat isə Milli Məclisin mətbuat katibliyidir. Aqşin Babayev o xidmətin yarandığı gündən etibarən tam 15 il rəhbəri olmuş və 2004-cü ildə II dərəcəli dövlət müşaviri statusuna layiq görülmüşdü. Mən o dövrdə Ali Sovetin, demək olar ki, bütün tədbirlərində iştirak edirdim. O zaman üç məsələ mənim diqqətimdən yayınmırdı: Aqşin Babayevin bütün jurnalistlərlə təcrübəli müəllimin sevimli şagirdi ilə danışırmış kimi rəftar etməsi, Rəsul Quliyevin xarici qonaqlarla bir az ərkyana danışması, bir də əcnəbi siyasətçilərin Heydər Əliyevə çox böyük ehtiramla yanaşması.

...Qərəz, mən dövlət radiosundan ayrılıb, köhnə həmkarımız Qulu Kəngərlinin təşəbbüsü və iştirakı ilə "Xalq qəzeti"nə gələndə baş redaktor Mahal İsmayıloğlu sınaq müddəti adıyla məni parlamentə göndərdi. Hamı bilirdi ki, iş yerindən vəsiqəsi olmayan jurnalisti Milli Məclisə buraxmırdılar. Mən radiodakı şöbəmizin əməkdaşı Cahid Rüstəmova (Cahid müəllim uzun müddət televiziyada işləmiş, yaş senzinə görə onu işdən çıxartmaq istəmədiklərinə görə radionun Xəbərlər redaksiyasına göndərmişdilər) dedim ki, Aqşin Babayev sizin yaxın dostunuzdur, mənim parlamentə buraxılmağıma kömək eləsin. Cahid müəllim yanımdaca zəng elədi. Aqşin Babayev dedi: "Mən nə zamansa BMT məsulu olsam, İttifaq Mirzəbəylinin o binaya girişinə də heç bir məhdudiyyət qoyulmaz."

...Mən parlamentin iclaslarına getdim, dörd-beş yazı hazırladım və cəmi on gündən sonra əmrim verildi. Sonralar Aqşin Babayevlə neçə yüz dəfə görüşdümsə... sayını– hesabını bilmirəm. Amma onu bilirəm ki, filologiya elmləri doktoru, professor Aqşin Babayev Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Ədəbi yaradıcılıq və ekran dramaturgiyası" kafedrasının müdiri vəzifəsində çalışdığı illərdə bizim evin ilki Sadiq həmin universitetdə oxuyurdu. Aqşin müəllim, bəlkə də, on dəfə mənə demişdi ki, sən o uşağın adını səhv yazdırmısan, onun adı Sadiq yox, Sakit olmalı idi.

Bir dəfə də (artıq Sadiq universiteti bitirəndən beş-altı il sonra) məndən soruşdu ki, Sakit necədir? Dedim, sağ olun. Çində magistratura təhsilini başa vurub, indi də doktoranturaya hazırlaşır. Elə sevindi ki, sanki, söhbət öz nəvəsinin uğurlarından gedirdi: "O bacarar, doktoranturanı da oxusun, əmisi ona hansı məsələdə istəsə kömək edər". Xatırladım ki, Aqşin müəllim Ali Attestasiya Komissiyasının Ekspert Şurasının üzvü idi.

...Təbii ki, hamımız həyatdan gedəcəyik. Ancaq Aqşin Babayevin torpaqlarımızın düşmən işğalından azad edilməsini görmədən dünyasını dəyişməsi (2020-ci il iyunun 10-da), sözün həqiqi mənasında, onu istəyənlərin ürəyini yandırdı. Çünki o, daim – həm ulu öndərin, həm də Prezident İlham Əliyevin münaqişənin ədalətli şəkildə həll edilməsi üçün apardığı mübarizənin, demək olar ki, içərisində olmuşdu. Allah rəhmət eləsin!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# Qərb bölgəsi xəbərləri



## SAMUX

**Samux rayonunda XXI əsrin ilk Milli Qəhrəmanı Eltun Xaləddin oğlu İsgəndərovun anım günü qeyd edilib.**

Tədbir iştirakçıları Samux Rayon Əhmədbəyli kənd şəhidləri qəbiristanlığında Milli Qəhrəmanın qəbrini ziyarət edərək üzərinə tər-qərənfillər düzüblər. Daha sonra rayon icra hakimiyyətinin başçısı Firdovsi Əliyev çıxış edərək deyib ki, 2009-cu il iyunun 18-də Cəlilabad rayonu istiqamətində sərhəd pozucuları ilə döyüşə girən həmyerlimiz bir neçə nəfəri məhv etdikdən sonra, sərhəd pozucularının birinin sərhədçilərimizin cəm dayandığı mövqeyə qumbara atdığını görüb və dərhal qumbaranın üzərinə atılaraq öz həyatı bahasına əsgər və zabitlərimizi xilas edib. Eltun bu hərəkəti ilə Azərbaycan oğullarının Vətən uğrunda lazım gələrsə, canlarından keçə biləcəyini sübut edərək, gənc nəsillərə nümunə olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti əsgərimizin göstərdiyi bu şücaəti nəzərə alaraq 25 iyun 2009-cu il tarixli sərəncamı ilə İsgəndərov Eltun Xaləddin oğluna ölümündən sonra Milli Qəhrəman adını verib.

Tədbirdə iştirak edən Xaləddin İsgəndərov oğlunun göstərmiş olduğu qəhrəmanlığı ilə fəxr etdiyini, Eltun kimi vətənpərvər oğulların sayının minlərlə olduğunu vurğulayıb. Göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə öz minnətdarlığını bildirib.

## NAFTALAN



**Yaxın vaxtlarda Naftalanda daha bir yeni müalicə mərkəzi istifadəyə veriləcək.**

Respublikanın digər bölgələrində olduğu kimi, Naftalan şəhərində də sahibkarlıq gündən-günə inkişaf edir. Beləliklə də yeni açılan iş yerlərinin sayı artır, əhalinin sosial rifah halı daha da yaxşılaşır.

Beynəlxalq Turizm Mərkəzi hesab edilən Naftalanda sahibkarlara geniş imkanlar yaradılmışdır. Həm hotel və istirahət, həm də müalicə mərkəzi kimi Naftalana üz tutan yerli və xarici turistlərə yüksək səviyyəli xidmət göstərilməsi məqsədilə burada hər cür şərait yaradılıb.

Bu günlərdə şəhər icra hakimiyyətinin başçısı Vüqar Novruzov tikintisində son tamamlama işləri görülən "Naftalan Hotel"ə baş çəkib, aidiyyəti üzrə fikir və tövsiyələrini bildirib.

## AĞSTAFA



**Ağstafalı şəhidlərimizin ailə üzvləri ilə növbəti görüş keçirilib. Rayon icra hakimiyyəti başçısı aparatının inzibati binasında təşkil olunan görüşdə 50 nəfərdən çox şəhid ailəsinin üzvü iştirak edib.**

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra RİH başçısı Seymur Orucov, rayon prokuroru Anar Cəfərov, polis şöbəsinin rəisi Vüqar Xəlilov çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə şəhid ailələrinə, müharibə veteranlarına və qazilərə göstərilən yüksək diqqət və qayğıdan söz açıblar. Qeyd olunub ki, dövlətimizin başçısı həssas təbəqədən olan vətəndaşlarımızın problemlərinin həllini bütün dövlət qurumları qarşısında bir nömrəli vəzifə kimi müəyyən edib.

Görüşdə çıxış edən şəhid valideynlərindən Azər Abbasov, Aydın Mehdizadə, Zeynəb Sadıqova, Afət Namazova, Nazim Yusifov, Nizami Yolçuyev, Bayram Ələkbərov, Yasəmən Qurbanova, Xatirə Əlizadə, İlqar Quliyev, Aybəniz Əhmədova və şəhid qızı Nəcmiyyə Sədizadə şəhid adının əbədiləşdirilməsi məqsədi ilə görülən tədbirlərdən, müharibə əlilləri və şəhid ailələrinin mənzil – məişət şəraitinin yaxşılaşdırılması üçün fərdi və çoxmənzilli yaşayış binalarının tikilib istifadəyə verilməsi, eləcə də bu kateqoriyadan olan insanların avtomobillərlə təmin olunmasından söz açıb, icra olunan ardıcıl tədbirlərə, onlara göstərilən xüsusi diqqət və qayğıya görə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əlievaya dərin minnətdarlıqlarını bildiriblər.

**H.QASIMOV,**
**XQ-nin bölgə müxbiri**

# ABŞ dövlət katibinin müavini Ukraynada

**ABŞ dövlət katibinin siyasi məsələlər üzrə müavini Con Bass Ukraynaya səfər edib və burada yerli hakimiyyət nümayəndələri ilə görüşlər keçirib. Bu barədə Dövlət Departamentinin mətbuat xidməti məlumat yayıb.**

Səfər zamanı rəsmi şəxs Ukraynanın baş naziri Denis Şmıqal, Ukrayna prezidentinin aparatının rəhbəri Andrey Ermak, xarici işlər naziri Dmitro Kuleba, müdafiə naziri Rustem Umerov, strateji sənaye naziri Aleksandr Kamışin, habelə Ali Radanın deputatları ilə görüşüb.

Onlar ABŞ-ın yeni hərbi və iqtisadi yardımının təsirini, müdafiə və digər sahələrdə uzunmüddətli öhdəlikləri və Ukraynanın yenidən qurulması üzrə davam edən işləri müzakirə ediblər.

Bundan sonra Bass Ukrayna üzrə təmas qrupunun komandanlığının nümayəndələri ilə görüşmək üçün Almaniyaya gedib.

***XQ***

# *Metroda "lirik" bir gecə...*

**(yaşantı)**

Gecə saat 11-ə az qalardı. Toya gələnlərin çoxu getmişdi. Qalanlar bəylə gəlinin qohum-qardaşı, yaxınları idi. Klarnetdə oynaq hava çalınır,5-6 nəfər içkinin təsirindən necə gəldi, atılıb-düşürdü.

Gödəkçəmi geyinib şadlıq sarayından çıxdım. Metro stansiyası yaxın olduğundan piyada getməyi qərara aldım. Narın yağış yağırdı. Külək əsmədiyinə görə yağış adama xoş gəlirdi. Şəhərin işıqlı küçələri sanki yağışda güzgülənirdi. Küçədə tək-tük adam görünürdü. Mənə elə gəlirdi ki, onlar ya gecə növbəsinə gedir, ya da hansısa əzizinin və ya dostunun evindən şənlikdən qayıdırdılar. Metro stansiyasının qarşısındakı bağın tinindən dönəndə küçədən bir maşın keçdi. Sürücü radionun səsini artırmışdı. Müğənni "Aman Tello"nu oxuyurdu:

***"Qoy məni öldürsünlər, Tello,***
***Bir alagöz qız üstə, Tello!"***

Öz-özümə dedim ki, gör necə sevənlər olub e, öz alagözlüsü yolunda çəkinmədən canını fəda edib. Gözəl deyilib:

***"Məhəbbət bir bəladır ki,***
***giriftar olmayan bilməz..."***

Sərin yaz havası və küçələrin sakitliyi səs-küylü toy havasını getdikcə mənə unutdururdu. Artıq sabahkı gün haqqında fikirləşirdim. Evə çatıb rahatlanandan sonra ilk görəcəyim iş köşə yazısı yazmaq idi. Səhərdən bu barədə düşünür, hansı mövzuda yazacağımı götür-qoy edirdim. Axır ki, tapdım – bugünki toylarımız haqda yazmağı qərarlaşdırdım. Doğrudur, bu mövzuda çox yazılıb, amma heç nə dəyişməyib. Hətta yazıya sərlövhə də tapdım – "Toylar bizə toy tutur". Bir az təmtəraqlıdır, qoy olsun, əsas odur ki, həqiqətdir. Yazını yaza bilsəydim, rahat yata bilərdim. Ona görə ki, sabah xeyli işim vardı və onları həll etmək üçün bir neçə idarədə olmalı idim.

Elektron kassaların qarşısında növbətçi qadın polislə söhbət edirdi. Mən gediş kartımı tapmaq üçün ciblərimi xeyli axtarmalı oldum. Bu dəqiqələrdə polis dayanıb mat-mat üzümə baxırdı. Nəhayət, kartı tapdım və eskalatora doğru getdim. Qatar yola düşməyə az qalmış özümü yetirdim. Vaqonun orta hissəsindəki altı nəfərlik üzbəüz oturacaqda 2 sərnişin vardı. Mən onlarla üzbəüz əyləşdim. Əvvəlcə üst-başıma diqqət yetirdim. Gödəkçəm islanmışdı.

Üzbəüz oturmuş yaşlı kişi nəsə itiribmiş kimi ciblərini yoxlayırdı. O, deyəsən, axtardığını tapdı, lakin əlini cibinə salmadı. Kişinin enli qalın qaşları vardı, elə bil, əllə yapışdırmışdılar. Yaşının çox olmasına baxmayaraq, saçları gur idi və tamamilə ağarmışdı. Qoca köhnə xarici filmlərin qəhrəmanlarına oxşayırdı. Hara baxdığı dəqiq bilinmirdi.Tez-tez gülümsəyirdi və bu zaman üzündəki qırışlar daha da dərinləşirdi. Əvvəlcə mənə elə gəldi ki, o, mənim təhər-tövrümə baxıb gülümsəyir. Ancaq sonra yəqin etdim ki, kişi heç mənə baxmır, fikri haradasa metro qatarından uzaqlardadır. O, bəlkə də, bir az əvvəl bağ evində qoyub gəldiyi əzizlərini düşünür, yaxud yeni dil açan nəvəsinin "baba, baba" deməsini xatırlayır. Bəlkə, dünyasını dəyişmiş xanımının çöhrəsini göz önünə gətirir, onun həlim, nəvazişli baxışlarına isinir. Bəlkə o, mənimlə yanaşı oturduğu oğlanla qıza baxıb, hansı səbəbdənsə, qovuşa bilmədiyi sevgilisini yada salıb təəssüflənir... Bu anda bir az əvvəl küçədə eşitdiyim "Aman Tello" mahnısı yenidən qulaqlarımda səsləndi:

***"Mən yarımı sevmişəm, Tello,***
***şirin-şirin dil ilə, Tello!"***

Deyəsən, mən qocanı haradasa görmüşdüm, ancaq bunu dəqiq xatırlaya bilmirdim. Bəlkə kişi məni tanıyıb, salam vermədiyimə görə gülümsəyir. Amma nə illah eləyirdim, onunla tanışlığımızın tarixini yadıma sala bilmirdim.

Mənimlə yanaşı əyləşən oğlanla qız şirin-şirin söhbət edirdilər. Hər ikisi səliqəli geyinmişdi. Deyəsən, onlar da toydan gəlirdilər. Çünki qızın əynində parıltılı parçadan uzun paltar vardı. Sarışın saçlarını açıb tökmüşdü. Əlində krem rəngində balaca çanta tutmuşdu. Arabir çantanı açıb şəkilə baxırdı. Oğlan tez-tez əyilib qızın qulağına nə pıçıldayırdısa, o, "vay, vay" deyirdi. Oğlan tez-tez öskürürdü və əlində saxladığı salfetlə ağzını tuturdu. Bu zaman da qız yenə "vay, vay" sözünü təkrarlayırdı. Diqqət çəkən qəribəlik bu idi ki, qatarın qapısının yanında, dəmir çərçivəyə salınmış reklam kağızı üzərində iri hərflərlə bu sözlər yazılmışdı: "Öskürəkdən yoxdur hal, ailən üçün "Zedeks" al!".

Vaqonun daha bir sakini mənimlə yanaşı əyləşmişdi. Onun üst-başı pis vəziyyətdə idi. Şalvarı palçığa bulaşmışdı. Köhnə paltosunda bir dənə də düymə yox idi. Tüklü sifətində qaysaqlanmış yaralar vardı. Saçlarını axırıncı dəfə nə vaxt daradığını, yəqin ki, özü də xatırlaya bilməzdi. Əlində tutduğu torbada nə vardısa, tez-tez ağzını açıb baxırdı. Mənə elə gəldi ki, o, içki düşkünüdü. Hər kəsə yazıq-yazıq baxır, bəlkə də nəsə soruşmaq və ya içmək üçün pul almaq istəyirdi. Lakin, o, bunu hələ ki, dili ilə yox, baxışları ilə deyirdi...

Onun bu görkəmdə metroya girə bilməsi mənə bir az təəccüblü gəldi.

Qəfil haqqında bayaq söhbət açdığım qocanın orta məktəbdə mənə coğrafiya dərsi deyən Söhrab müəllimə oxşadığını yəqin elədim. Bir anda Söhrab müəllimin qurub-yaratdığı zəngin coğrafiya kabineti gözlərim önündə canlandı. Müəllimim yenə əlində uzun çubuq tutmuşdu və üzünü divardan asılmış böyük xəritəyə tutub deyirdi: "Baxın, İtaliyanın ərazisi sanki uzunboğaz çəkməyə oxşayır. İtalyanlar bizim insanlara bənzəyirlər, onlar da çılğındırlar..." Yaxud, elə bil, müəllimim indicə məni ayağa qaldırıb sakitcə soruşacaq ki, de görüm, Küdrü düzünün torpaqları hansı torpaq tipinə aiddir? Mən suala o dəqiqə cavab verəcəyəm və Söhrab müəllim yenə gülümsəyəcək...



Söhrab müəllimdən o yana arıq, uzun, eynəkli bir nəfər oturmuşdu. Torpağı sanı yaşasın, bu adam bizim kənddə bir vaxtlar Temir "doxtur" vardı, sanki onun "kopya"sı idi. Kişi, deyəsən, saçlarını rəngləmişdi. Çünki 50-dən yuxarı yaşın ola, başında bir dənə də tük ağarmaya? Mən bunu o, tez-tez papağını götürüb başını, boynunu ovxalayanda hiss elədim. Onu da deyim ki, Temir əslində, həkim deyildi, "medbrat" idi. Amma o illərdə 3 qonşu kəndin heç birində həkim olmadığına görə, hamı ona həkim deyirdi. Və o da vardı ki, uşaqdan-böyüyə hamı Temirin yaxşı həkim olduğuna inanırdı. Temir həm müayinə edir, həm də iynə vururdu. Dəmirdən olan balaca qabda gəzdirdiyi şprisini görəndə nəinki uşaqların, elə böyüklərin də canına vicvicə düşürdü.

Temir atla gəzər, atın üstündə daim əlində köhnə hamam çamodanına oxşar kiçik sumka tutardı. Çünki Temirin, belə demək olarsa, qazancı bu çamodandan çıxırdı.Yalan olmasın, o sürtülmüş meşin çamodan, bəlkə də Nikolayla yaşıd idi. Amma imkanı olsa da, Temir, nədənsə, ozünə yeni çamodan almırdı. O çamodanda nələr yox idi...

Temirin uzun əlləri, karandaş kimi nazik barmaqları vardı. Dərmanların və işlətdiyi yodun təsirindən sağ əlinin 3 barmağı daim sapsarı olurdu. Kəndimizdə, demək olar ki, hamı Temir kişiyə hörmət edirdi. Ancaq mənim ondan xoşum gəlmirdi və dünyasını dəyişənədək də belə oldu. Təbii ki, bu, səbəbsiz deyildi.

…Mən 7-ci sinifdə oxuyurdum. Bir gün məktəbdən dönəndə gördüm ki, Temir kişi yolda dayanıb. Salam verib, yanından ötəndə o, dedi:

– A bala, bir dayan! Eşitmişəm Səidənin saçlarını yolmusan. Qulaqlarını çəkərəm, ha!.. Müəllimə də tapşırmışam, sabahdan sizi ayrı-ayrı partada otuzdursun. Bir də qıza yaxın düşmə...

Səhəri günü sinfə girəndə Səidəni başqa partada oturmuş gördüm. Daha mən ona tərəf dönüb baxmadım da. Fikirləşirdim ki, yəqin Səidə məndən atasına şikayət edib. Çox sonralar eşitdim ki, Səidə yox, sinfimizdəki qara Səidə gedib onun anasına nə çatdırıbsa, Temir kişi də arvadının sözü ilə qabağımı kəsib. Amma Səidə yenə mehriban idi və başa düşmüşdüm ki, o, atasının mənə dediklərindən xəbərsizdi.

Kənd səkkizillik məktəbini bitirəndən sonra mən rayon mərkəzində oxudum və Səidəni demək olar ki, görmədim. Universitetə qəbul olunanda kənddəki sinif yoldaşlarım evimizə məni təbrikə gəlmişdilər. Səidə də onlarla idi. O, çox dəyişmiş, ağappaq gözəl bir qız olmuşdu. Uzun hörükləri tez-tez sinəsinə düşürdü. Çox az danışırdı. Uşaqlar "sağ ol"laşıb gedəndə Səidə susub mənə baxırdı. Mənə elə gəldi ki, o, nəsə demək istəyir. Ancaq deyəcəklərini yoldaşların yanında dilə gətirməkdən çəkinir...

Mən 1-ci kursu bitirib kəndə gələndə eşitdim ki, Səidə qonşu kənddə qohumumuz olan Ağəlinin oğluna nişanlanıb...

Növbəti stansiyada düşməli idim. Vaqonun sərnişinləri isə mənim kimi yenə öz dünyalarında idilər. Mən, nədənsə, qarşıdakı stansiyada düşməyib, onlarla sonadək getmək istəyirdim. Çünki metro vaqonunda yaşadığım dəqiqələr mənə çox şirin gəlirdi və məni, az da olsa, gözəl çağlara qovuşdururdu. O çağlara ki, o anları yenidən yaşamaq üçün "qalan günlərimi qurban verərdim".

Bir neçə dəqiqədən sonra mən narın yağış altında evə doğru gedir və yolboyu bu gecə qəzet üçün yazacağım köşə yazısı barədə fikirləşirdim.

**Səməd MƏLİKZADƏ**

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

informasiya texnologiyaları sistemi üçün şəbəkə təhlükəsizliyi avadanlıqlarının satın alınması məqsədilə

**MÜSABİQƏ ELAN EDİR**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 11 iyul 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: +994 12 599 00 03 (daxili 3706).

Ünvan: AZ1010. Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 129 (30533) 23 iyun 2024-cü il, bazar

İDMAN

## 2 üzgüçümüz Parisdə üzəcək

**Azərbaycanın iki üzgüçüsü Paris Yay Olimpiya Oyunlarında iştirak edəcək.**




Bu barədə Gənclər və İdman Nazirliyindən məlumat verilib. Komandamızın üzvləri Məryəm Şeyxəlizadəxanqah və Ramil Vəlizadə Serbiyanın paytaxtı Belqrad şəhərində keçirilən üzgüçülük üzrə Avropa çempionatının nəticələrinə əsasən, rəsmi dəvət əsasında Olimpiya Oyunlarına vəsiqə qazanıblar.

## Avarçəkənimiz Avropa çempionu oldu

**Polşanın Qdansk şəhərində keçirilən sahil avarçəkməsi və "beach sprint" üzrə Avropa çempionatında Azərbaycan avarçəkəni Diana Dımçenko qızıl medal qazanıb.**



Milli komandanın lideri bir nəfərlik qayıqda təsnifat mərhələsində finişə birinci çataraq A finalında iştirak hüququ əldə edib. Finalda 5-ci sırada mübarizə aparan idmançı İrlandiyadan olan Dukarska Monikanı və finlandiyalı Karpinen Eavanı geridə qoyaraq fəxri kürsünün birinci pilləsinə yüksəlib.

İki nəfərlik qayıqda Murad Sadıqov–Boqdan Qladçenko cütlüyü də A finalında mübarizə aparıb və yekunda 6-cı yeri tutub.

## 1 gümüş, 2 bürünc medal

**Yunanıstanın Saloniki şəhərində 15 və 17 yaşlı yeniyetmələr arasında keçirilən Avropa çempionatında Azərbaycanın daha bir ağırlıqqaldıranı 3 medal qazanıb.**



Muhəmmədəli Məmmədzadə yaşı 15-ə qədər olan atletlər arasında 96 kiloqram çəki dərəcəsində birdən qaldırma hərəkətində 120 kiloqramı ram edərək bürünc medala layiq görülüb. Təkanla qaldırmada 146 kiloqramı üzərinə qaldıran idmançı bu hərəkətdə gümüş mükafat əldə edib.

M. Məmmədzadə toplam 266 kiloqram (120+146) nəticə ilə yekun sıralamada 3-cü olub.

Qeyd edək ki, Avropa çempionatında 38 ölkədən 415 (198 qız + 217 oğlan) atlet qüvvəsini sınayır.

*Leyla QURBANOVA*
*XQ*

**Onu öz adı ilə çağıran yoxdur. Hamı Rauf Rəhimlini "Çiçəklər kralı" kimi tanıyır. Bəziləri qısaca "kral" deyə də müraciət edirlər. Bu adı ona təsadüfən verməyiblər... Bir qızılgül kolunda 22 rəngdə gül yetişdirən, bir limona 7 cür sitrus meyvələri calaq edən bu təbiət vurğununu başqa necə adlandırasan?**



# "Çiçəklər kralı"nın "yaşıl avtoqrafı"

Ötən əsrin 70-ci illərində Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində onun becərdiyi gül-çiçəyi görənlər heyranlıqlarını gizlədə bilməyiblər. Ona bu adı o vaxt sərgini ziyarətə gələn SSRİ Elmlər Akademiyasının, Səhiyyə Nazirliyinin, Baş Aptеklər İdarəsinin rəhbərləri veriblər.

Rauf Rəhimlinin təkcə ana təbiətə, ağaclara, güllərə-çiçəklərə deyil, ətrafda bizi əhatə edən nə varsa, hamısına özəl, daha doğrusu, fəlsəfi yanaşması var. Bəlkə də belə olmasaydı, Xəzərin xəzri, dənizdən əsən gilavarların at oynatdığı Abşeronun qumsal torpağında hər addımından, hər qarışından gözəllik boylanan cənnət guşəni necə yaratmaq olardı?

bu qeyri-adi otaqlara da uyğun adlar verib: "Meksika papağı", "Robinzonun otağı"...

### Bir ağacda 104 meyvə

O, Vətənin torpağını, havasını, gülünü-çiçəyini deyil, daşını da çox sevir. Əbəs yerə deyil ki, onun yaratdığı gözəlliyin bir hissəsi də daşlarla əlaqədardır. "Pis gül yoxdur, pis bağban var", – deyən Rauf Rəhimli əlavə edir:

– Yabanı halda bitən bir bitkidən məhsul almaq üçün ona mütləq calaq vurmalısan, qulluq etməlisən, təxminən, 3 il gözləməlisən. Bir gülün rəngini, nəslini dəyişmək üçün 3 il, bəzən 7 il zəhmət çəkmək və gözləmək lazım gəlir. Bu isə səbir, bilik və məhəbbət tələb edir.





### "Kral"ın bağı

Təsadüfən Novxanı–Corat yolundan keçənlər buranı istirahət guşəsi, restoran və ya hotelə oxşadırlar. Müxtəlif ekzotik ağacların, şəlalələrin, su şırnaqlarının, üzündə nilufər çiçəyi gül açan, içində balıqlar üzən kiçik gölməçələrin, yerə düzülmüş əsrarəngiz daşların həyətdə yaratdığı gözəllik ən daşürəkli müsafiri də biganə qoya bilməz.

Həyət o qədər də böyük deyil – haradasa 2 400 kvadratmetr (0,24 ha), amma həyət sahibi çox böyük ürək və zövq sahibidir. Burada əzvayın 15, kaktusun 50, qızılgülün 150-yə qədər növü var. Bağda, özü demişkən, jenşendən valeriana qədər hər çiçəklə rastlaşmaq olar.

"Kral"ın evi də elə buradır, lakin onun rəngbərəng balıqqulaqlarından ibarət evinin divarları da sənət əsəri təsiri bağışlayır. Divarlarda müxtəlif fiqur və təsvirlər, evin içərisindəki əşyalar, buradakı özünəməxsus dizayn göz oxşayır. O, həyətdəki

Bir limon ağacından 104 meyvə almaq da, görünür ki, bu səbrin, biliyin və sevginin nəticəsidir.

### Masallıdan Abşerona

O, ötən əsrin 1990-cı illərinin əvvəlindən etibarən bağ salmağa başlayıb. Bakı Dövlət Universitetinin kimya-biologiya fakültəsini bitirəndən sonra Masallıda aptekdə işləyib, sonra 770 nömrəli "Yaşıl aptek"in sahibi olub. Onun becərdiyi, yetişdirdiyi güllərin sorağı ilə çoxları Masallıya üz tutub. 1970-ci illərdə Bakıda Dənizkənarı Bulvarda keçirilən sərginin iştirakçısı olub. Moskvadakı Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinə yolu da buradan başlayıb.

Rayonda yaratdığı füsunkar gözəlliyi iqlim, hava şəraiti və təbiətlə əlaqələndirənlər olub. Subtropik iqlimə malik olmayan Abşeron yarımadasında da belə bir bağ salmaqla gözəlliyi hər yerdə yaratmağın mümkün olduğunu öz əməli ilə sübut edib.

### Torpaq üzərində yaşıl izlər

"Elə insanlar var ki, var-dövlətinin, torpağının çoxluğu ilə öyünür: "Filan yerdə bu qədər torpağım var, filan ərazidəki torpaq mənimdir". Amma onlar bir şeyi unudurlar ki, torpaq bizim yox, biz torpağınıq. Bəs üstündə yaşadığımız, qonaq olduğumuz bu torpaqda biz hansı izləri qoyuruq?", – deyə "çiçəklər kralı" sual verir.

Ömrünü, həyatını torpaq üzərində gözəlliklər yaratmağa sərf edən "çiçəklər kralı"nın bağını müxtəlif ölkələrin səfirləri, diplomatlar, təbiət vurğunları ziyarət edib, ona gül-çiçək, dibçək hədiyyə edənlər də olub. Haqqında film və verilişlər çəkilib.

Novxanıda saldığı bağ, bağdakı gözəlliklər, burada əkdiyi daş palıd, müxtəlif ekzotik ağaclar, yetişdirdiyi gül-çiçək ömrünün səkkizinci onilliyini yaşayan gözəllik vurğunu Rauf Rəhimlinin bu dünyada qoyduğu ən gözəl avtoqrafdır...

*Süleyman QARADAĞLI*

Sağlamlıq

## Kivi – cavanlıq iksiri

**Kivi antioksidant və C vitamini mənbəyidir. Onun dəri sağlamlığı üçün müalicəvi təsirləri var. Ona görə də mütəxəssislər daim gənc görünmək istəyənlərə bu meyvədən istifadəni tövsiyə edirlər.**



Xanımlar gənc qalmaq üçün dəriyə müxtəlif qulluq məhsullarından istifadə edirlər. Amma dietoloqların fikrincə, gənc görünüş üçün qidalanmanın böyük təsiri var.

Kivi istehlakı həm cavanlaşdırır, həm də sağlam hüceyrələrin sayını artırır. C vitamini ilə zəngin olan meyvə dəri hüceyrələrini yeniləyərək, dermis qatında qocalmanı zəifledir. Zədələnmiş hüceyrələrin tez bir zamanda bərpasına kömək edir. Bu meyvə lif zənginliyi ilə də diqqət çəkir. Təbiətdə ən yüksək antioksidant tərkibə malik meyvələrdən biridir.

Lütein və zeaksantinlə zəngin olan kivi qocalmağa meyilli hüceyrələri aradan qaldıraraq yeni hüceyrələrin əmələ gəlməsinə kömək edir. Həmçinin qırışların və dəri sallanmalarının qarşısını alır. Göz ətrafındakı qaraltıları və şişkinliyi azaltmağa kömək edir.

Kivi saçların daha parlaq və canlı görünməsinə də kömək edir. Saç follikullarında vitamin çatışmazlığını aradan qaldıraraq sağlam saçların uzanmasını dəstəkləyir. Bütün bunlar üçün kivini mütəmadi yemək lazımdır.

Ancaq allergiya riski olanların bu meyvədən istifadə etməzdən əvvəl mütəxəssislə məsləhətləşməsi vacibdir.

*Z.HÜSEYNLİ*
*XQ*

## Abşeronda yağmursuz, bölgələrdə yağış, duman və külək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyunun 23-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Lakin gündüz yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Cənub-qərb küləyi əsəcək. Gecə 20-24°, gündüz 28-33° isti olacaq.**



Atmosfer təzyiqi normadan aşağı – 758 mm civə sütunu, nisbi rütubət gecə 55-65 , gündüz 40-50 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 24-25°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü yağışlar olacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru əksər rayonlarda tədricən kəsiləcək. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 31-36°, dağlarda gecə 10-15°, gündüz 17-22° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

Sosial şəbəkələrdən seçmələr

## ...Sonda tort, yoxsa qarpız?

**Dünyada, elə Azərbaycanda da təfəkkürlərdə bərk oturuşmuş stereotiplər var. Məsələn, ad günlərində sonda tort gətirilməli, şamlar yandırılıb "Happy Birthday" oxunmalıdır. Bunsuz istənilən bayram, bayram sayılmır.**



Məni həkim kimi bu məsələnin tibbi tərəfi həmişə narahat edirdi. Mədəsi dolu insanların (uşaqların da) əlavə tort yeməiəri mədəaltı vəzi başda olmaqla, bütün daxili orqanlara çox güclü mənfi zərbədir.

Dünən mən öz əlamətdar günümdə bu ənənəni pozdum və qarpızı ortadan kəsdim və hamı şamla "Ad günün mübarək" oxudu. Bütün iştirakçılar bu sürprizimi maraqla qarşıladılar.

Deməliyəm ki, qarpız desert olaraq sağlamlıq üçün xeyirlidir.

Əminəm ki, mənim bu yazımın mövcud ənənəyə heç bir təsiri olmayacaq. Sadəcə, bilin ki, bəlkə də, dünyada ilk olaraq Sumqayıtda belə bir təşəbbüs olub.

Kim bilir, bəlkə, kimsə bunu təkrar etmək istədi.

Niyə də olmasın, xeyirdir axı…

*Hümbət HƏSƏNOĞLU,*
*Sumqayıt sakini*

*✓ 2016-cı ildə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının N saylı hərbi hissəsinin müddətdən artıq hərbi qulluqçusu Rzayev Azad Eynulla oğlunun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4070
SİFARİŞ 1387
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00